AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

G.R.ƏLİYEVA

DÜNYA XALQLARI VƏ ÇOXMƏDƏNİYYƏTLİLİK

Dərs vəsaiti

"Dünya mədəniyyəti haqqında
elmi biliklər"

Azərbaycan Dövlət İqtisad Universitetinin Tədris-Metodiki Şurasının 27.10.2017-ci il 1 saylı protokoluna əsasən çapa tövsiyə olunur.

BAKI – 2018

Elmi redaktor: f.e.d., prof. **Əsədulla Qurbanov**

Rəyçilər: akademik **Vasim Məmmədəliyev**

f.e.d. **Sakit Hüseynov**

f.e.d. **Azər Mustafayev**

Əliyeva G.R. Dünya xalqları və çoxmədəniyyətlilik. Dərs vəsaiti.
Bakı: "İqtisad Universiteti" Nəşriyyatı.- 2018. - 120 səh.

© Əliyeva G.R. - 2018
© "İqtisad Universiteti" Nəşriyyatı - 2018

ÖN SÖZ

Hazırkı yaşadığımız XXI əsri səciyyələndirmiş olsaq, bu barədə aşağıdakı elmi mülahizəni söyləyə bilərik.

Bəli, bu əsr bəşər tarixinə qloballaşma, inteqrasiya, informasiya və kommunikasiya texnologiyaları proseslərinin geniş vüsət aldığı bir əsr, zaman və dövr kimi daxil olmuşdur. Heç şübhəsiz, belə bir çox mürəkkəb, ziqzaqlı, paradoksal zamanda bu və ya digər konkret bir məkanda baş verən hadisələr müxtəlif xalqların, millətlərin, etnosların, habelə ölkələrin və dövlətlərin sosial, iqtisadi, siyasi, mədəni və mənəvi həyatının demək olar ki, bütün tərəf və istiqamətlərinə həm müsbət, həm də mənfi təsir gücünə malikdir. Milli-mütərəqqi, ümumbəşəri mənəvi dəyərləri qoruyub saxlayan, onları hifz edən başlıca amillərdən biri, bəlkə də birincisi mədəniyyətdir. Yeri gəlmişkən, mədəniyyətə tarixi, fəlsəfi baxımdan aşağıdakı elmi mülahizəmizi bildirmək istərdik.

Mədəniyyət, yer üzünün əşrəfi, ən qiymətli kapital, ictimai münasibətlərin məcmusu olan İNSAN düşünən başının, beyninin və onu yaradan əllərinin nailiyyətlərinin məcmusuna, toplusuna deyilir. Belə bir ümumbəşəri mənəvi sərvətə ümumxalq, ümumdövlət işi, mühüm strateji əhəmiyyət kəsb edən təhsil prosesi zamanı böyüməkdə, yetişməkdə olan gənc nəslə çatdırmaq müstəsna dərəcədə önəmli bir fəaliyyət sahəsidir. Bu baxımdan "Dünya xalqları və çoxmədəniyyətlilik" adlı dərs vəsaiti diqqəti xüsusilə cəlb edir. Bu dəyərli vəsaitin **birinci** bölməsi "Mədəniyyətşünaslıq və multikulturalizm, dinşünaslıq, islamşünaslıq, onların predmeti, əhəmiyyəti və vəzifələri" adlanır. Dərs vəsaitinin bu bölməsində müəllif sözügedən problemlərin müasir qloballaşma dövründə onların spesifik xüsusiyyətlərindən konkret faktlar əsasında geniş bəhs edir.

Dərs vəsaitinin **ikinci** bölməsi "Multikulturalizm, incəsənət və mədəniyyət kontekstində" adlanır. Burada müəllif

əsasən multikulturalizmin Azərbaycan modelinin spesifik xüsusiyyətlərindən və bu modelin bütün dünyaya örnək, nümunə olmasını azərbaycanşünaslıq kontekstində respublikamızın müstəqillik illərində sözügedən sahədə əldə olunan nailiyyətlərindən konkret, inandırıcı faktlar əsasında gənc nəslə öz qiymətli tövsiyəsini bildirir.

Sözügedən sahədə ilk müsbət təşəbbüs və təcrübə olan kitabın **üçüncü** bölməsində Azərbaycan mədəniyyətini dünya mədəniyyətinin mühüm tərkib hissəsi və aparıcı istiqamətlərindən biri olduğu xüsusi vurğulanır. Kitabın – dərs vəsaitinin diqqəti cəlb edən ən mühüm xüsusiyyətlərindən biri də bundan ibarətdir ki, Azərbaycan mədəniyyəti dünya və islam mədəniyyəti kontekstində şərh olunur. Dərs vəsaitində istifadə edilən və tövsiyə olunan ədəbiyyat siyahısının da verilməsi müsbət məziyyət kimi xarakterizə oluna bilər.

Müəlliflər dərs vəsaitində müəyyən çatışmazlıqların olduğunu da vurğulayır.

Bununla belə bir daha qeyd edilir ki, dərs vəsaiti sözügedən sahədə ilk təşəbbüs və təcrübə olduğu uçun müəyyən nöqsanlardan da tam azad deyildir.

Dərs vəsaiti haqqında öz irad və arzularını bildirənlərə müəllif irəlicədən öz səmimi təşəkkür və minnətdarlığını bildirir.

GİRİŞ

Mütərəqqi bəşəriyyət, o cümlədən cəmiyyət mənəvi dəyərlərin məcmusu olan mədəniyyət vasitəsilə öyrənilir. Ümumiyyətlə, sosial mədəni inkişafın, tərəqqinin çox mühüm, hərtərəfli və əhatəli amili olan mədəniyyətə maraq ölkə, regional və planetar miqyasda kəskin surətdə artmışdır. Bu, hər şeydən əvvəl, hazırda yaşadığımız XXI əsrin xarakter və mahiyyətindən irəli gəlir. Məlum olduğu kimi, yaşadığımız əsr qloballaşma, inteqrasiya, informasiya və kommunikasiya texnologiyaları proseslərinin geniş vüsət aldığı bir əsrdir. Təsadüfi deyil ki, belə bir əsrdə cəmiyyətin inkişafında mədəniyyətin rolu, yeri və xüsusi çəkisi durmadan artmaqdadır. Müasir dövrün mədəniyyəti bir-biri ilə qarşılıqlı əlaqədə, inteqrasiyada olan, bilavasitə özünəməxsus xüsusiyyətləri ehtiva edən çoxmədəniyyətlilikdən (multikulturalizm) ibarət olmaqla, həm də ta qədim dövrlərdən indiyə qədərki Şərqdən Qərbə, Qərbdən Şərqə doğru dünyəvi axın, dünya bəşər mədəniyyətidir. Müasir dövrün mədəniyyət tarixi ən qədim sınaqlardan üzüağ çıxmış tarixi varislik prinsipinə əsaslanan milli, mütərəqqi, ümumbəşəri ənənələr və ictimai-siyasi, iqtisadi, sosial – mədəni mikro və makro mühitdən asılı olaraq hər bir ölkənin konkret tarixi şəraiti və milli – ümumbəşəri zəmində inkişaf edir.

Azman, qocaman, qədim, zəngin, müdrik, humanist, Şərqin ilk mədəniyyətlərindən olan, dərin məna, məzmun və mündəricəyə malik Azərbaycan mədəniyyəti də milli və ümumbəşəri zəmində inkişaf edir. Yerigəlmişkən, qeyd etmək istərdik ki, hər bir milli mədəniyyətdə ümumbəşəri mədəniyyətin ünsürləri vardır. Başqa sözlə desək, öz növbəsində ümumbəşəri mədəniyyətdə də milli – mütərəqqilik mövcuddur. Bunlar dialektik vəhdət təşkil edir. Qədim və zəngin Azərbaycan mədəniyyəti hazırda özünün çox mühüm keçid dövrü mərhələsini yaşayır. Müstəqil ölkəmizdə dünyəvi, hüquqi, demokratik dövlət, humanist sivilizasiyalı və vətəndaş həmrəyliyi

cəmiyyəti qurulur. Bax, belə bir dövlətdə və cəmiyyətdə mədəniyyətin rolunun, yerinin və xüsusi çəkisinin artması müstəsna dərəcədə elmi-nəzəri və əməli əhəmiyyət kəsb edir.

Mədəniyyət sahəsində düşünülmüş elmi-nəzəri və əməli fəaliyyətin ana xətti yer üzünün əşrəfi, ən qiymətli kapital və ictimai münasibətlərin məzmunu olan insanın əxlaqi kamilləşməsinə, onun cəmiyyət qarşısında yüksək vətəndaşlıq mövqeyinin, mədəniyyətinin doğru-düzgün dərk etməsinə, şəxsiyyətin mənəvi probleminin, onun milli mentalitetinin zənginləşməsinə yönəldilməlidir. Burada ən başlıca vəzifə ondan ibarətdir ki, ümumxalq, ümumdövlət və mühüm strateji əhəmiyyət kəsb edən təhsilin inkişafına istiqamətləndirilməlidir. Belə bir təhsilin məqsədi tədbirli, vətənpərvər, ədalətli, xeyirxah, habelə digər bu kimi yüksək mənəvi keyfiyyətlərə malik, milli və ümumbəşəri dünyagörüşlü vətəndaşların, o cümlədən xüsusilə də gənclərin yetişdirilməsindən ibarət olmalıdır. Bütün bu qeyd olunanlar ictimai, sosial və humanitar elmlər sahəsində mühüm rol oynayan multikulturalizmin, mədəniyyətşünaslığın müstəqil bir elm, fənn kimi ümumxalq, ümumdövlət və mühüm starteji əhəmiyyət kəsb edən dövlət təhsil sisteminə aid bütün məktəblərdə (xüsusilə ali məktəblərdə) öyrədilməsinin, tədris edilməsinin vacib şərti kimi irəli sürülür, qarşıya mühüm vəzifə kimi qoyulur.

“Dünya mədəniyyəti və incəsənəti” fənninin tədrisinin zəruriliyini müəyyən edən digər səbəblər də vardır. Onlardan biri də multikulturalizm – çoxmədəniyyətlilikdir. Burada, çox mühüm və olduqca vacib bir məsələyə toxunmaq istərdik. Son illərdə bəzi xarici mütəxəssislər, o cümlədən xüsusilə nankor, bədnam, işğalçı, təcavüzkar, terrorçu qonşumuz olan ermənilər tərəfindən Azərbaycan tarixini saxtalaşdırmaq meyilləri, bilavasitə xalqımıza məxsus olan mədəni abidələrin, mahnıların, musiqinin . . . özününküləşdirilməsi cəhdləri artmışdır. Dünyada elə bir məkrli qüvvələr peyda olmuşdur ki, onlar özlərini insan hüquqları himayəçiləri və müdafiəçiləri kimi

təqdim edir, öz mənafeləri, məkrli maraqları naminə Azərbaycan xalqına, onun tarixinə, mədəniyyətinə, dövlət siyasətinə qara ləkə yaxırlar. Onlar tərəfindən ölkəmizə qarşı yönəldilmiş saxta, qərəzli, məkrli təbliğatın məqsəd və mahiyyətini düzgün dərk edilməsi ümumbəşəri mahiyyətli mədəniyyətimizin yüksəlişi və zənginləşməsi naminə dünya xalqları və ölkələri ilə əlaqələrin genişləndirilməsi, ümumbəşəri mədəni-mənəvi dəyərlərdən səmərəli və məqsədyönlü şəkildə istifadə edilməsi qarşımızda duran ən vacib vəzifələrdəndir.

Ölkəmizdə, Bakıda son zamanlar dövlət və qeyri-hökumət strukturları, o cümlədən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilməsi artıq ənənə şəklini almış mədəniyyətlərarası, sivilizasiyalararası və dinlərarası beynəlxalq simpoziumlar, konfranslar, forumlar, dialoqlar və dəyirmi masalar cəmiyyətimizdə baş verən köklü, müsbət, pozitiv dəyişikliklərdən xəbər verir. Bütün bunlar gələcəyə irəliləyişimizin parlaq nümunələrinin daha çox hiss edildiyi hazırkı mərhələdə, dövrdə, sözügedən sahədə qarşıya qoyulan vəzifələrin həlli mədəniyyətşünaslığın, dinşünaslığın, islamşünaslığın və multikulturalizmin tədris olunmasının vacibliyini, gərəkliliyini, önəmliliyini daha da artırır.

Təqdim olunmuş dərs vəsaitində “Dünya mədəniyyəti və incəsənəti” dinşünaslığın, islamşünaslığın və multikulturalizmin bir elm və fənn kimi, predmeti və vəzifələri, aparıcı inkişaf mərhələləri və qanunauyğunluqları məna, məzmun və mündəricəsi, mahiyyəti, cəmiyyətdə rolu, müasir vəziyyəti və gələcəyi haqqında elmi-nəzəri əsasda yığcam bilgilər verir.

I BÖLMƏ

MƏDƏNİYYƏTŞÜNASLIQ, MULTİKULTURALİZM, İSLAMŞÜNASLIQ, DİNŞÜNASLIQ VƏ ONLARIN PREDMETİ, VƏZİFƏLƏRİ VƏ ƏHƏMİYYƏTİ

Mədəniyyət anlayışı: "Mədəniyyət" sözü, məfhumu latınca "kultura" sözündən götürülüb, müasir dilimizdə ən çox işlədilən, tələffüz edilən sözdür. Qədim dövrlərdə mədəniyyət anlayışı torpağı suvarmaq, əkib-becərmək, yaxşı, bol keyfiyyətli məhsul almaq üçün torpağa layiqincə qulluq etmək mənasını anladır. Daha sonralar mədəniyyət çox hallarda davranış normaları və qaydaları, ehtiram, hörmət, təhsil, savadlı, tərbiyəli, bilikli və s. bu kimi məqamları ifadə etmişdir.

Mədəniyyətşünaslığın predmeti: Mədəniyyət yer üzünün əşrəfi, ən qiymətli kapital və ictimai münasibətlərin məcmusu olan insanın məqsədyönlü fəaliyyətinin məntiqi nəticələri, cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi nemətlərin, dəyərlərin, sərvətlərin məcmusudur, mütərəqqi bəşəriyyətin nail olduğu tarixi inkişaf səviyyəsini əks etdirir.

Mədəniyyət bu və ya digər xalqın yaradıcılığının və onun nailiyyətlərinin yekunu olmaqla yanaşı, insanların səmərəli, məqsədyönlü fəaliyyətinin inkişaf səviyyəsini, müəyyən tarixi insan toplumlarının həyatını və xarakter xüsusiyyətlərini müəyyən edir.

Mədəniyyətşünaslıq şəxsiyyətin sosial mədəni mühitdə yerini, rolunu və xüsusi çəkisini, insanların mənəvi aləmini, həyat tərzini və mədəni baxımdan təkmilləşməsini, formalaşmasını və zənginləşməsini, onların mənəvi intellektual potensialını, mentalitetini, qanunauyğunluqlarını və keyfiyyətlərini göstərir.

Mədəniyyətşünaslığın predmeti bu vacib elmin inkişaf istiqamətini və qanunauyğunluqlarını, onun metodologiyasını, məqsədini və vəzifələrini müəyyən edir.

Mədəniyyət, sivilizasiyalar və multikulturalizm. Mədəniyyət məfhumu əsasən iki komponentdən - ünsürdən ibarətdir. Onlardan birincisinin adı təbiət, digərininki isə sivilizasiya adladırdı.

Mədəniyyət, sivilizasiya və multikulturalizm bir-birinə çox yaxın olan, dialektik vəhdət təşkil edən anlayışlardır. Mədəniyyətin bilavasitə məxsus olduğu əsri, sivilizasiyanı, multikulturalizmi öyrənmədən onu başa düşmək, dərk etmək qeyrimümkündür. Sivilizasiya, mədəniyyət və aksiloji dəyər (sərvət) kimi mənaya malik olan anlayışlardır.

Mədəniyyət, sivilizasiya və multikulturalizm anlayışları əsasən XVIII əsrdə meydana gəlmiş, XX əsrə qədər mədəniyyətin sinonimi kimi işlədilmişdir.

Yaşadığımız hazırkı XXI əsrdə qeyd olunan bu anlayışlar xeyli dərəcədə yeni, müxtəlif mənalarda işlədilir.

Konkret olaraq bir qədər sivilizasiya anlayışı barədə bəhs etmək istərdik. Bu anlayışa əsasən aşağıdakılar daxildir.

Sivilizasiya müəyyən sosial - dərin məna, məzmun kəsb edən mədəni, mənəvi qollara malik olan, sosial fəlsəfi kateqoriya kimi çıxış edən, Yer planetinin ümumi qanunauyğunluğunda yer tutan insanların sosial-tarixi və mədəni ümumiliyidir.

Sivilizasiya insanın mədəniləşdirici, dəyişdirici fəaliyyətini onun vasitələrinin, insan-bəşər mədəniyyətinin təkmilləşmiş və sosial - siyasi mühit şəraitində yaşamasını ifadə edir.

Mədəniyyət, sivilizasiya, dinşünaslıq, islamşünaslıq və multikulturalizm anlayışlarının qarşılıqlı əlaqəsi

Bu əlamətləri aşağıdakı formalarda başa düşmək olar.

Birincisi: mədəniyyət, multikulturalizm və sivilizasiyanın qarşılıqlı əlaqəsi çox sıx və möhkəmdir. Sivilizasiya cəmiyyətin sırf sosial təşkili forması olmaqla mədəniyyətin inkişafında müəyyən tarixi pilləni ifadə edir.

İkincisi: sivilizasiya öz mədəniyyəti olmadan, habelə mədəniyyət də sivilizasiyasız mümkün deyildir. Sivilizasiya mədəniyyət prosesləri üçün ilkin şərtlər yaradır, onu nizamlayır və əksər hallarda onların inkişafını müəyyən edir. Öz növbəsində mədəniyyət sivilizasiya tərəfindən irəli sürülən normaları reallaşdırır, onun inkişafı üçün şərait yaradır. Mədəniyyət eyni bir sivilizasiyaya mənsub olan müxtəlif xalqlar, millətlər, milli – etniklər arasındakı fərqləri şərtləndirir. Onlar müəyyən bir xalq, millət üçün spesifik olan, onun emosional fərdiliyini təşkil edən, dil, tarixi tale, əxlaq, digər xalqlarla, millətlərlə və milli etniklərlə ünsiyyətini və s. davranış və adətlərdə, bir sözlə, mənəviyyatda əks etdirir.

Üçüncüsü, sivilizasiya bütün müxtəlifliyi ilə mədəniyyəti və multikulturalizmi özünə daxil edir, öz varlığını, mövcudluğunu təcəssüm etdirir. Sivilizasiya yox olub gedə bilər, mədəniyyət isə hisslər, emosiyalar, adət-ənənələr, vərdişlər, davranışlar, əhvali-ruhiyyələrdə yaşayır, mövcudluğunu bərqərar və davam etdirir.

Sivilizasiya müəyyən bir mənada keçici xarakter daşıyan anlayışdır, mədəniyyət isə ümumbəşəri olduğu üçün daimi, əbədi xarakter daşıyan anlayışdır.

Mədəniyyətşünaslıq elminin təşəkkülü

Qərb alimlərindən, antropoloqlarından sayılan **Lesli Alvin** ilk dəfə olaraq mədəniyyətşünaslıq anlayışını elmi ədəbiyyata gətirmişdir. O, bunu, yəni mədəniyyətşünaslığı müstəqil elm sahəsi kimi bəyan etmişdir. Onun nöqteyi-nəzərində bütün ictimai, sosial-humanitar elmlərdən fərqli olaraq mədəniyyətşünaslıq elminin dərk edilməsində daha yüksək pilləni təşkil edir.

Mədəniyyətşünaslığın tarixi inkişaf mərhələləri. Bu mərhələlər aşağıdakı dövrləri əhatə edir:

Birincisi, mədəniyyət haqqında ilkin təsəvvürlərin çox məhsuldar qüvvə olan elməqədərki dövrü, yəni mədəniyyətşünaslığın üstünlüyünün labüd mərhələsidir;

İkincisi, mədəniyyətşünaslığın fəlsəfi, tarix, etnoqrafiya və başqa xüsusi fənlərin mühüm tərkib hissəsi kimi yaranması mərhələsidir;

Üçüncüsü, mədəniyyət haqqında ənənəvi təsəvvürlərin böhrani mərhələsidir;

Dördüncüsü, mədəniyyətin sərbəst, yəni müstəqil fənn kimi təşəkkül tapması, onun öz əsasında inkişaf etməsi mərhələsidir;

Beşincisi, XX əsr mədəniyyətşünaslığın mərhələsi;

Altıncısı, XXI əsr qloballaşma, inteqrasiya, informasiya və kommunikasiya texnologiyaları proseslərinin geniş vüsət aldığı dövrün mədəniyyətşünaslığı.

Mədəniyyətşünaslığın öyrənilməsinin başlıca və köklü vəzifələri.

Bu vəzifələr əsasən aşağıdakılardan ibarətdir:

Birincisi, mədəniyyətşünaslığın mahiyyəti, mənası, məzmunu, mündəricəsi, əhəmiyyəti, funksiyalarının kifayət qədər və dərindən, bütövlüklə, izah və şərh edilməsi;

İkincisi, mədəniyyətin mənşəyinin kulturaloji prosesləri, dövrlərinin və mərhələlərinin öyrənilməsi, konkret xalqların, millətlərin, milli – etniklərin, cəmiyyətlərin, regionların, qitələrin mədəniyyət tarixinin, mədəniyyət ənənələrinin varisliyinin araşdırılması və öyrənilməsi;

Üçüncüsü, insanların, başqa subyektlərin kulturoloji prosesdə yerinin, rolunun və xüsusi çəkisinin müəyyənləşdirilməsi;

Dördüncüsü, məntiqi - elmi aparatın, mədəniyyətin öyrənilməsinin metodlarının və vasitələrinin hazırlanması;

Beşincisi, mədəniyyəti öyrənən başqa elmlərlə qarşılıqlı dialektik əlaqələrin həyata keçirilməsi;

Altıncısı, mədəniyyət və sivilizasiyanın özünəməxsus spesifikliyinin qarşılıqlı əlaqə və aslılığının aydınlaşdırılması, konkret sivilizasiyaların inkişaf perspektivlərinin tədqiq edilməsi;

Yeddincisi, elmi bilik dairəsinin genişləndirilməsi, cəmiyyətin yaradıcı fəaliyyəti, qabiliyyət və marağın, öz biliyini fasiləsiz artırmaq tələbatının inkişaf etdirilməsi;

Səkkizincisi, mədəni irsdən istifadə və onun qorunub saxlanılması haqqında qanunçuluğun əsaslarının öyrənilməsi;

Doqquzuncusu, cəmiyyətin ümumi mənafeyi naminə fəaliyyəti üçün zəruri olan mənəvi, əxlaqi, estetik və sosial normaların müəyyənləşdirilməsi və yüksəldilməsi üçün məsuliyyətin artırılması.

Mədəniyyətşünaslığın əsasını təşkil edən hümanitar elmlər

Mədəniyyətşünaslığın əsasını təşkil edən elmlər əsasən aşağıdakılardan ibarətdir.

1. **Kulturalogiya** (bu və ya digər mədəniyyətin təsviri)
2. **Kulturogenez** (mədəniyyətin əmələgəlmə təlimi haqqında)
3. **Kulturoqrafiya** (mədəniyyətin inkişafı, məqsədi və mümkün olan proseslərin təlimi haqqında)
4. **Sosiologiya** (məlum ictimai quruluş sistemində də mədəniyyətin əsaslandırılması nöqteyi-nəzərdən öyrənilməsi).

Mədəniyyətşünaslığın başqa digər elmlərlə qarşılıqlı əlaqəsi

Mədəniyyətşünaslıqla qarşılıqlı dialektik əlaqədə olan elmlər aşağıdakılardır:

Birincisi:
a) Fəlsəfə
b) Tarix

İkincisi:
a) Maddi həyat təzahürləri
b) Antropologiya

c) Etika
ç) Estetika
d) Hüquq nəzəriyyəsi
e) İslamşünaslıq
ə) Dinşünaslıq
f) Multikulturalizm

c) Etnoqrafiya
ç) Sosiologiya
d) Ümumui texnologiya
e) Etnonanxologiya
ə) Demoqrafiya
f) Sosiallaşma
g) Freydizm

Mədəniyyət varlıq sistemində

Mədəniyyət:
1) insan;
2) cəmiyyət;
3) təbiət.

Görüldüyü kimi, bunların üçü birlikdə mədəniyyəti ehtiva edir.

Mədəniyyətdə başlıca cəhət fərdlərin, insanın təkmilləşməsi, kamilləşməsi, zənginləşməsi və sosial-siyasi həyat şəraitinin yaxşılaşması iddialarını dərk etmələri və baxışlarında bu ideyalara daim əməl olunmasından ibarətdir.

Mədəniyyət-mənəviyyat – sosial - mədəni, tarixi hadisə və fenomendir.

Bu fenomenin əsasını şüurlu sosial məqam təşkil edir; Həmin məqamın tərkib hissələri bunlardır:
1) xeyirxahlıq;
2) insan;
3) gözəllik;
4) həqiqət;

Mədəniyyətin struktur ünsürləri:

Buraya daxildir maddi mədəniyyət. Bunun da əsasını üç ünsür təşkil edir: 1) maddi istehsal; 2) texnika; 3) istehsal.

Bütün bunlar aşağıdakıları ehtiva edir:

- Maddi mədəniyyət maddi sərvətdir. O cümlədən, bilavasitə istehsalata daxil olan sərvətdir, dəyərdir;

- Maddi mədəniyyət istehsal vasitələri, əmək alətləri, əmək məhsulları, istehsal və istehlak vasitələri yaradılmasındakı əməli fəaliyyət üsullarından ibarətdir;

- Maddi istehsal, maddi mədəniyyətdə ən mühüm ünsürdür;

- Maddi mədəniyyət sosial əlamət və mədəniyyət abidəsi kimi üzə çıxır;

- Maddi mədəniyyət cəmiyyətin inkişaf səviyyəsinin ən mühüm göstəricisidir;

- Bura, həmçinin mənəvi mədəniyyət də daxildir.

Mənəvi mədəniyyətin mühüm tərkib hissələri əsasən bunlardır:

1) Mənəviyyat;
2) Etika - estetika (bədii mədəniyyət);
3) Dini-islam;
4) Siyasət;
5) Millətlərarası münasibət mədəniyyəti;
6) Hüquq;
7) Elm - (məhsuldar qüvvə).

Mənəvi mədəniyyət mənəvi sərvətlərin, dəyərlərin özlərinin yaradılmasıdır. Mənəvi mədəniyyətə insanın mənəvi fəaliyyətinin, əqli düşüncəsinin nəticələri – elm, fəlsəfə, incəsənət, əxlaq, siyasət, hüquq və müvafiq təsisatlar: idarələr, orqanlar təşkilatlar, qurumlar (elmi institutlar və elmi idarələr, mərkəzlər, birliklər, cəmiyyətlər, məktəblər, teatrlar, kitabxanalar, konsert müəssisələri, klublar, mədəniyyət evləri, mədəniyyət və istirahət parkları, muzeylər, dövri mətbuat, efir, ekran, internet və s.) onun mənəvi-intellektual potensiala malik olan estetik və əxlaqi inkişaf səviyyəsi, dərəcəsi aiddir.

Mədəniyyətin başlıca funksiyaları

Bura əsasən aşağıdakılar daxildir:

1. Siyasi və təbii dünyanın dəyişdirilməsi. Yenidən insanın meydana gəlməsi ilə kainatın təzələnməsi, xüsusi bir həyat amili oldu. Həmin, çox çətin və mürəkkəb proses insan fəaliyyətinin maddi nəticələri olmadan mümkün deyildir.

2. Dünyanın dərindən dərk edilməsi: Bu, hər şeydən əvvəl, ətraf aləmin dərki, insanın, fərdin, kollektivin, xalqların, millətlərin, cəmiyyətin öz-özünü dərk etməsindən ibarətdir. İdraki funksiya xalq, ölkə haqqında bütöv bir təsəvvür verir. Onun sayəsində insanlar elm, incəsənət, fəlsəfə, təlim, təhsil, tərbiyə və s. sahələrdə öz mənafelərini, maraqlarını dərk edir, sosial təcrübənin ötürülməsinə və digər xalqların mədəniyyətlərinin mənimsənilməsinə güclü təsir göstərir. Burada multikulturalizm – çoxmədəniyyətlilik mühüm rol oynayır.

3.Ünsiyyət mədəniyyətin şəraitinin – mühitinin yaradılması. Ünsiyyət səbəbli müxtəlif adamların, sosial qrupların, mədəniyyətlərin fəaliyyət birliyi, fikir ümumiliyinin təşkili zərurəti reallaşır. Heç bir mədəniyyət təcrid olunmuş halda mövcud deyildir. Və həmişə bu və ya digər mədəniyyətlər birbirinə qarşılıqlı təsir göstərir, inteqrasiya edir, dialoqa, həmçinin başqa adamların və fərqli mədəniyyətlərin təcrübəsini mənimsəyir.

4. Requlyativ (əlaqələndirici, birləşdirici) funksiya. Bu funksiya insanların ictimai və şəxsi fəaliyyətinin müxtəlif növ və zəhmətlərinin davranışlarının nizamlanması ilə əlaqədardır.

5. Dəyərlər sisteminin müəyyən edilməsi və mühafizəsi. Aləmdə insanı əhatə edən nə varsa, hamısı yol verilə bilən, ya da yasaq olunan, həm xeyir, həm də şər planda nəzərdən keçirilə, qiymətləndirilə bilər. Dəyərlər ayrı-ayrı adamların, həm də sosial uğurların üstünlüklərini qoruyub sax-

lamağa, hifz etməyə, onların maraq və mənafelərini istiqamətləndirməyə kömək edir.

Mədəniyyətin formaları və tipləri

Bura əsasən aşağıdakılar daxildir:

1) Elitar mədəniyyət: imtiyazlı təbəqə və ya onun sifarişi ilə yaradılır.

Burada əsasən iki məqam diqqəti cəlb edir:

a) Tərkib hissələri;

b) Zərif incəsənət.

Bu incəsənətə aiddir. Bu həm də klassik musiqi və klassik ədəbiyyata xasdır. Bunlar bütövlükdə "incəsənət üçündür" şüarı elitar mədəniyyət şüarıdır. Mədəniyyətin bu norması ortasəviyyəli adamın davranma səviyyəsini geridə qoyur.

2) Xalq mədəniyyəti: Mənşəyinə görə bu forma həvəskar və ya kollektiv mədəniyyət forması adlanır. Xalq mədəniyyəti folklor mədəniyyəti də adlandırılır. Bu mədəniyyətə də aşağıdakılar daxildir:

a) miflər;
b) əfsanələr, rəvayətlər;
c) dastanlar;
d) epos;
e) nağıllar;
f) nəğmələr;
g) rəqslər.

Xalq mədəniyyəti konkret yerli, milli ənənələrlə əlaqədardır. Xüsusi hazırlığa malik olmayan və arzu edənlər onun yaranmasında iştirak edir. Bu səbəbdən də xalq mədəniyyəti demokratik mədəniyyətdir. Xalq mədəniyyətinin daha bir adı var – folklor mədəniyyət.

3. Kütləvi mədəniyyət: Burada yaşayış yerindən asılı olmayaraq bütövlükdə insanların tələbatı nəzərdə tutulur. Kütləvi mədəniyyət, ilk növbədə, biznesin fəaliyyətinə yönəldilir.

Onun daimi olması nəzərdə tutulur və müəyyən sosial qruplar üçün arzu edilir. Əxlaq, davranış tərzi geniş xalq kütlələrin adi və nəzəri şüura tətbiq etmək vasitəsi kimi də istifadə olunur.

Fəlsəfə, mədəniyyət və multikulturalizm

Fəlsəfə dünyaya, təbiətə, cəmiyyətə, insana ən mühüm nəzəri baxışlar sistemi olub, konkret elm sahələri ilə birlikdə bir, eyni kök üzərində yüksəlmişdir.

XVII – XVIII əsrlərdə elmin ayrı-ayrı sahələrinin və onların fəlsəfə adlanan ümumi bilikdən ayrılması prosesi bəşər mədəniyyətinin mühüm tərkib hissələri olmuşdur.

Əsrlər boyunca fəlsəfə inkişaf edərək ən ali mədəni-mənəvi sərvətlərin cəmləşdiricisi olmuşdur.

Müasir fəlsəfədə mədəniyyətin mahiyyətinin və məntiqinin dərk edilməsi mədəniyyət fəlsəfəsində ifadə olunur. Bunlar mədəniyyətin fəlsəfəsidir. Bu fəlsəfə də aşağıdakı məqamlarda ehtiva olunur:

Mədəniyyətə fəlsəfi yanaşma onu anlama, başqa cür yanaşma və anlamalardan fərqlənir. Belə ki, fəlsəfi təhsil, onun cəmiyyət həyatındakı bir sıra xüsusiyyətləri, xarakterik cəhətləri, qanunauyğunluqları vardır, bunların başa düşülməsi mədəniyyətinin özülünü və ya onun inkişafının səbəbini təşkil edir.

- Mədəniyyətə fəlsəfi baxımdan yanaşmaq mədəniyyət hadisələrinin təsvir edilməsi və ya sadalanması ilə məhdudlaşmır. Bu yanaşmada təfəkkürün köməyi ilə onların mahiyyətini şərh etmək nəzərdə tutulur. Mədəniyyət fəlsəfəsi mədəniyyətşünaslığın metodoloji və ümumbəşəri əsas kimi özünü göstərir. O, sosial, tarixi prosesləri dünyagörüşü fonunda sosial fenomen kimi kompleks şəkildə öyrənir

- Mədəniyyət fəlsəfəsi insanın ümumi mədəniyyətini, onun öz-özünə, cəmiyyətə və başqa insanlara münasibətini səciyyələndirir. Mədəniyyətin fəlsəfi təhlili və cəmiyyətin qar-

şılıqlı əlaqəsini, dünya mədəniyyətinin müxtəlifliyini, onda mövcud olan ümumbəşəri və lokal, regional, milli-etnik fərqlərin rəngarəngliyini, mədəniyyətin biliklər sistemində tutduğu yeri, xüsusi çəkisini müəyyənləşdirir, yerinə yetirdiyi funksiyaları və cəmiyyət həyatındakı rolunu aşkar etməyi əsas götürür və tədqiqat obyektinə çevirir.

Fəlsəfə, mədəniyyət və multikulturalizmin qarşılıqlı əlaqəsi məhz burada özünün həqiqi ifadəsini və mahiyyətini ehtiva edir.

Cəmiyyətdə mədəni təşkilatlar sistemi

(Mədəniyyətşünaslıq kontekstində)

Təsisatlar sistemi. Buraya daxildir:

Birincisi, fiziki mədəniyyət;

İkincisi, mənəvi mədəniyyət;

Üçüncüsü, maddi mədəniyyət;

Dördüncüsü, sosial idarəetmə mədəniyyəti.

Birinciyə, fiziki tərbiyə sistemi daxildir. İkinciyə, məscid, kilsə, sinaqoq, kirxa və təhsil. Üçüncüyə, sənət və sənaye aiddir. Dördüncüyə, hakimiyyət, məhkəmə, təhlükəsizlik, xarici əlaqələr, maliyyə, ictimai təşkilatlar, ekologiya və fövqəladə vəziyyət, nəhayət kriminal strukturlar daxildir.

Birinciyə əlavə olaraq tibb və idman da daxildir. İkinciyə əlavə olaraq ədəbiyyat, incəsənət, elm, texnika, mədəniyyət, kommunikasiyalar və mədəniyyət idarələri: klublar, kitabxanalar, mədəniyyət evləri, mədəniyyət və istirahət parkları, muzeylər, teatrlar, incəsənət mərkəzləri, konsert təşkilatları və s., üçüncüyə isə əlavə olaraq kənd təsərrüfatı, ticarət, nəqliyyat, rabitə, tikinti, kommersiya bankları daxildir. Bunlar cəmiyyətdə təşkilatlar sisteminə aid olanlardır.

Sosial-mədəni təsis kimi təhsilin funksiyaları

Ümumdövlət, ümumxalq və mühüm strateji əhəmiyyətə malik olan təhsilin funksiyaları bunlardır:

Birincisi, iqtisadi sahədə. Bura aiddir: ixtisaslaşmış işçi qüvvəsinin təkrar istehsalı, sosial-iqtisadi islahatların müdafiə və mühafizə olunması, dünya əmək, əmtəə xidmət bazarında ölkənin rəqabət aparmaq qabiliyyəti.

İkinciyə daxildir: şəxsiyyətlilik sahəsində, səviyyəsində böyüməkdə olan nəslin ictimailəşməsi və cəmiyyətdə yerini müəyyən edə bilməsi, ictimai münasibətlərin humanist əsaslarının, insan dəyərlərində ləyaqət, məsuliyyət hissinin, daxili azadlıq və mənalılığın mühafizə, hifz edilməsi.

Üçüncü funksiya sosial sahədə olanlardır. Bura aşağıdakılar daxildir: cəmiyyətin mənəviyyatının, mədəniyyətinin təkraristehsalı, demokratiya müdafiə edilməsi, dünyəvi-hüquqi dövlətin inkişafda, humanist, sivilizasiyalı və vətəndaş həmrəyliyi cəmiyyətinin qurulması, bərqərar olması, milli özünüdərkin tərbiyə edilməsi əhatəsində olduğumuz insanlar, təbiət və mədəniyyət haqqında dəyişiklik və multikulturalizm fəlsəfəsinin elmilik, obyektivlik, məntiqilik və dünyəvilik baxımından öyrənilməsi, habelə öyrədilməsi.

Mədəniyyət sistemində kütləvi informasiya vasitələri (KİV)

Kütləvi məlumat-informasiya vasitələri bütün demoqrafik və sosial qrupları əhatə edir. Kütləvi məlumat vasitələri geniş ərazi, əhatə dairəsinə malikdir.

Kütləvi informasiya vasitələri adamlara uzun müddət əməli olaraq bütün həyatı boyu təsir göstərir.

Kütləvi informasiya vasitələrinin əsas funksiyaları

Bu funksiyalar aşağıdakılardır:

Birinci, təlimatı,analitik funksiya;

İkinci, ictimai rəyin yaradılması (ictimai rəy həm müsbət, həm də mənfi ola bilir) və onun hakimiyyətdə olan qrupların marağına yönəldilməsi;

Üçüncü, əyləşdirici-asudə vaxt funksiyası;

Dördüncü, mədəni-maarif, idrakı funksiya;

Beşinci, normativ-idarəçilik, reklam (şüurun birləşməsi, eyniləşdirilməsi).

KİV-nin sosial-mədəni əhəmiyyətinin qiymətləndirmə metodları:

- Təlimatlılıq, məqsəd, əhəmiyyətlilik, dəyərlilik, faydalılıq;
- Etibarlılıq (dəqiqlik, doğruluq, tam uyğunluq);
- Operativlik, tezlik (vaxtlılıq);
- Kəmiyyət (həcm dövrülük, müntəzəmlik);
- Məlumatların çatdırılmasında etik və estetik qaydalara uyğunluq.

İqtisadi mədəniyyət

Cəmiyyətdə iqtisadi mədəniyyət ümumi mədəniyyətin maddi əsası, fəaliyyət növlərinin aparıcısıdır. Bunlar 2 hissəyə bölünür:

Birinci hissəyə əsasən aşağıdakılar daxildir:

1. İqtisadi mədəniyyətin maddi mədəniyyətə olan münasibəti hissəsinin ümumiyə olan münasibəti kimidir. İqtisadi mədəniyyət maddi mədəniyyətdə başlıca və aparıcı olsa da bura iqtisadiyyat xaricində təşəkkül tapmış sistemlər də daxildir. Maddi mədəniyyət ünsürləri cəmiyyətin siyasi və sosial həyatının bütün sahələri ilə bilavasitə bağlıdır.

2. İqtisadi mədəniyyət cəmiyyətin iqtisadi əsasının təkmilləşdirilməsinin ölçüsünün və səviyyəsinin göstəricisidir.

3. İqtisadi mədəniyyət təbiət və cəmiyyətin müvazinət və bir-birinə qarşılıqlı iqtisadi təsirinə məxsus bəzi harmoniyaları əks etdirir. İqtisadi mədəniyyət cəmiyyət həyatının müharibələrə, onun hazırlanması və aparılmasına deyil, sülhün möhkəmləndirilməsinə, qarşılıqlı sosial, ictimai, siyasi münasibətlərin yaxşılaşmasına yönəlir.

İqtisadi mədəniyyət cəmiyyətin maddi dəyərlərini, institutlarının, insanların təsərrüfat-istehsal fəaliyyəti normaları və prinsiplərinin məcmusu, bu sahədə insanların həyat fəaliyyətini və məzmununu törədən istehsal (iqtisadi) münasibətlərinin xarakteri və ölkə iqtisadiyyatının səmərəli fəaliyyəti prosesidir. Bunlar iqtisadi mədəniyyətin ümumi sistemində yeri iqtisadi mədəniyyət anlayışıdır. İqtisadi mədəniyyət norma və prinsiplərdə mövcuddur. Bura aşağıdakılar daxildir:

Mədəniyyət azadlığı, sahibkarlıq azadlığı, məhsuldar keyfiyyətli əmək, qabaqcıl təhlükəsizlik texnologiyası, işgüzar fəallıq, təsərrufat fəaliyyətinin humanist istiqamətləndirilməsi, yeniçilik, iqtisadi əmək fəallığının mənəvi-hüquqi əsaslandırılması, gələcəyə yönəldilməsi və bu mədəniyyətin proyeksiyaları kimi iqtisadiyyatın mühüm əlamətləri və proseslərini əks etdirir.

İqtisadi mədəniyyətin strukturunun əsas əlamətləri və bəzi təzahürləri

Bunlar aşağıdakılardır:

1. Maddi şərait və istehsal fəaliyyəti amillərinin dəyər əhəmiyyətli varlığı: istehsal vasitələri, məhsuldar qüvvə və istehsalın məqsədi kimi insan, xammal və enerji ehtiyatları, başqa yardımçı vasitələr və şərtlər;

2. Maddi nemətlərin müəyyən üsulla istehsal prosesi və başqa əməliyyatlar istehlak, mühafizəedilmə, bölgü və hesab aparılması;

3. Təsərrüfat fəaliyyəti institutları;

4. Mülkiyyət formaları, dövlət təşkilatları, cəmiyyətin hüquqi normaları və şəxsiyyətin özu və başqa subyektlə sıx əlaqədə təsərrüfat fəaliyyəti normaları və prinsiplərinin təşkili və həyata keçirilməsi;

5. Cəmiyyətin iqtisadi şüurunu, iqtisadiyyat meyilli dünyagörüşü dəyərlərinin xarakteri və istiqamətləndirilməsi;

6. İqtisadi münasibətlər sistemi;

7. Cəmiyyət və onun subyektlərinin, cəmiyyətin, dövlətin, mülkiyyət və başqa iqtisadi münasibətlərinin uzlaşması;

8. İqtisadi məlumatların və iqtisadi davranışların mədəni üsulu;

9. Təsərrüfat subyektlərinin sosial qarşılıqlı təsirinin norma və nümunələrinin, bu nümunələrin təkrar istehsalı və translyasiya üsulları;

10. İqtisadi mədəniyyətin mövcudiyyət formaları;

11. Əməyə, dövlətə, sərvətə, dəyərə baxışından əsas landırılmış münasibət;

12. İqtisadi məqsədin həyata keçirilməsi səviyyəsi və iqtisadi fəaliyyətin başa çatdırılması və s.

İqtisadi mədəniyyətin aparıcı istiqamətləri

Bu istiqamətlər aşağıdakılardan ibarətdir:

1. İqtisadiyyatla məşğul olan subyektlərin dünyagörüşü və peşəkar sərişləliliyi;

2. Təsərrüfatın əsas növlərinin, onun dinamikasının keyfiyyət-kəmiyyət xarakteristikası;

3. Ölkənin təsərrüfat strukturunun münasibliyi və etibarlılığı, maliyyə sistemi üzrə çeşidlilik;

4. Mülkiyyət formasının müstəqilliyi və onunla əlaqədar iqtisadiyyatın mobil olması;

5. Şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeləri və ideallarına uyğunlaşdırılması, təsərrüfatçılıq;

6. İqtisadi münasibətlər sisteminin mənəvi, hüquqi tənzimləndirilməsi;

7. İstehsal mədəniyyəti və maddi nemətlərin istehlak mədəniyyəti, əlaqəsi və nisbətinin gözlənilməsi, vətəndaşların maddi-iqtisadi mənafelərinin faydalılığı və müəyyən məqsədə yönəldilməsi;

8. Texniki tərəqqinin, cəmiyyətinin bütün təsərrüfat, humanist və ekoloji meyilliyinə nail olmaq.

Cəmiyyətin hüquqi mədəniyyəti

Hüquqi mədəniyyət: Bu mədəniyyətdə təbii hüquqların şəxsiyyətin cəmiyyətlə və dövlətlə münasibətlərinin müdafiə olunması, iqtisadiyyatın, o cümlədən istehsalın bütün ictimai və şəxsi həyatın qaydalarının mühafizə edilməsi, qanunlar və hüquqi təsisatlar vasitəsilə davranış və mədəniyyət normalarına əməl olunması.

Cəmiyyətdə hüquqi səviyyə. Bu səviyyə aşağıdakı kimidir:

1. Hüquqi şüur;
2. Hüquqi münasibətlər;
3. Qanunçuluq;
4. Hüquq qaydaları;
5. Qanunvericilik;
6. Hüquqi qaydaların tətbiqi mexanizmi.

Mədəniyyətin hüquqi sahələri

Hüquqi ideyalar. Bu ideyalar aşağıdakı kimi tərkib hissələrə bölünür:

1. Beynəlxalq hüquq. Bunun da tərkib hissəsi milli qanunçuluq hesab olunur.

2. Hüquqi ideyaların ikinci tərkib hissəsini məhkəmə sistemi təşkil edir. Onun da aparıcı istiqamətlərindən hüquqi mühafizə orqanları hesab olunur.

Bunlar da hüquqi fəaliyyətdə hesab olunur

Siyasi fəaliyyət.

Bəşər cəmiyyəti özünü mədəniyyətdə ifadə və dərk edir. Siyasi mədəniyyət siyasi proses subyektlərini bilavasitə öz fəaliyyətində də göstərən, tarixin varislik əsasında cəmiyyətin siyasi həyatının təzələnməsini, yenilənməsini təmin edən, tarixən təşəkkül tapmış dayanıqlı sərvətlərin, istiqamətlərin davranış modellərin sistemidir.

Siyasi mədəniyyət vətəndaşların və hakimiyyətin qarşılıqlı münasibətlərini tənzimləyən mənəvi-siyasi dəyərlərin, davranış qaydalarının adət və ənənələrinin məcmusunu ifadə edir. Siyasi mədəniyyət siyasi həyatdir, hakimiyyət və idarəetmə problemlərinə insanların siyasətdə iştirakçısına, həmçinin siyasi və hüquq, siyasətə və iqtisadiyyat, sosial həyat və mənəviyyatın qarşılıqlı təsiri məsələlərinə toxunur.

Siyasi mədəniyyətin strukturu aşağıdakılardır:

Həmin struktur əsasən üç tərkib hissədən ibarətdir:

I.

1. Siyasi şüur mədəniyyəti;
2. Siyasi məlumatlar və əqidələr;
3. Siyasi məqsədlər;
4. Siyasi dəyərlər, adətlər, ənənələr və normalar.

II

1. Siyasi davranış mədəniyyəti;
2. Siyasi məqsəd mədəniyyəti;
3. Siyasi maraq mədəniyyəti;
4. Siyasi fəaliyyət mədəniyyəti.

III

1. Siyasi təsisatların fəaliyyət mədəniyyəti;
2. Elektron proses mədəniyyəti;
3. Sosial-siyasi münasibətlərin dərk edilməsi və tənzimlənməsi mədəniyyəti;
4. Siyasi qərarların qəbul edilməsi və reallaşdırılması mədəniyyəti.

Siyasi mədəniyyət ünsürləri

Siyasi mədəniyyətin ünsürləri bunlardır:

1. Siyasi ideologiya;
2. Siyasi dəyərlər, ənənələr, adətlər, hisslər, normalar, sterotiplər;
3. Siyasi institutlar;
4. Siyasi həyatın, münasibətlərin, siyasi məlumatlanmanın səciyyəsi və səmərəsi;
5. Siyasi məsləklər;
6. Siyasi davranış, siyasi fəaliyyət;
7. İctimai-siyasi həyatda iştirak səriştəsi;
8. Siyasi şüur;
9. Siyasi bilik, baxış, rəy və məqsədlərin səviyyəsi, məzmunu.

Siyasi mədəniyyətin funksiyaları

Həmin funksiyalar bunlardır:

1. İdrak məqsədi güdən soial idrak, yəni siyasi biliklərə yiyələnmək.
2. Normativ dəyərlər, yəni normaların, dəyərlərin sərvətlərin möhkəmləndirilməsi.
3. Müdafiə, yəni siyasi dəyərlərin qorunması.
4. Yerli vətəndaşların cəmiyyət ətrafında birləşməsi.
5. Tərbiyəvi, yəni siyasi şüurun təşəkkülü.
6. Tənzimedici sahədə, yəni siyasi prosesə təsiretmə.

7. Kommunikativ, yəni əlaqələndirici, daha doğrusu, yeni sahədə və nəsillərin əhatə olunması. Bu funksiya əsasən siyasi tələbatdan irəli gəlir.

Siyasi mədəniyyət aşağıdakılara təminat verir:

1. Cəmiyyətin siyasi sisteminin birliyi;
2. Əhalinin müxtəlif təbəqələrinin birliyini;
3. İdarə edən, elitanın siyasi hakimiyyətinin sosial təmə-linin möhkəmliyini;
4. Qəbul edilmiş siyasi qərarlarına, əhalinin əksəriyyəti-nə irəlicədən kömək etmək;
5. Varislik yolu ilə cəmiyyətin siyasi həyatının yenilən-məsi.

Mədəniyyətin mənəvi-əxlaqi və estetik istiqamətləri

Mədəniyyət, sözün tam və geniş mənasında mənəviyyat ola bilməz. Və mənəviyyat əsasən mədəniyyət çərçivəsində təşəkkül tapır. Mədəni insanın kökünü, mühüm əsasını, başlıca olaraq mənəviyyat və əxlaq təşkil edir.

Şəxsiyyətin Mənəvi mədəniyyəti. Bura aşağıdakılar daxildir:

1. Etik-əxlaqi təfəkkür mədəniyyət;
2. Hiss-heysiyyət mədəniyyəti;
3. Davranış mədəniyyəti;
4. Etiket mədəniyyəti.

- Şəxsiyyətin mənəvi-əxlaqi mədəniyyəti əxlaqi və davranış mahiyyətidir;
- Ümumi əxlaqi prinsiplərini bilmək, onları özünün mənalı etiqad məsləkinə çevirmək, bu prinsipləri təbliğ etməyi bacarmaq,onlara tam uyğun olan davranışın formalarını müəy-yən etmək əxlaqi seçim şəraitində əsasdır;
- Cəmiyyətdə formalaşan əxlaqi şərait və ünsiyyət forma-larının məcmusu etiket adlanır. Ən vacib, önəmli etiket formaları;

- Xidməti etiket;
- İctimai yerlərdə, alilədə rəftar qaydaları;
- Kişilərin və qadınların, yaşlıların və qocaların qarşılıqlı münasibət qaydaları.

Cəmiyyətin mənəvi intellektual potensialı, onun öz problemlərinin dərk etmək səviyyəsi, onların həlledilmə dərəcəsi, mənəvi mədəniyyətin vəziyyəti və inkişafından, mədəni-mənəvi dəyərlərin keyfiyyətindən cox asılıdır.

Milli və millətlərarası münasibətlər mədəniyyəti

Sərlövhədə ehtiva olunan fikrin əsas əlamətləri aşağıdakılardan ibarətdir:

- Milli və millətlərarası münasibətlər. Mədəniyyətin fərdləri sosial-etnik qruplar, millətlər, xalqlar, dövlətlər, ölkələr, bölgələr, regionlar və millətlərarası münasibətləridir. O, dövlətlərin müstəqilliyi və dinc yanaşı yaşamaq prinsiplərinə, ümumbəşəri dəyərlərin üstünlüyünə, insan ləyaqətinə hörmət edilməsinə əsaslanır.
- Milli və millətlərarası mədəniyyətin əsasını heysiyyət, humanizm, qarşılıqlı hörmət, xeyirxahlıq, dözümlülük, sosialistlik fərqlərdən asılı olmayan müstəqilliyə malik fərdlərarası, şəxsiyyətlərarası münasibətlər təşkil edir.
- Müstəqil Azərbaycan Respublikasında Milli və millətlərarası münasibətlər mədəniyyəti sahəsində siyasət konstitusiya prinsiplərinə, hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normalarına əsaslanır.
- Milli və millətlərarası münasibətlər mədəniyyəti sahəsində siyasət də başlıca məqsəddir.
- Müstəqil Azərbaycanda yaşayan bütün millətlərin, xalqların, milli-etnik qrupların bərabər hüquqi, sosial və milli-mədəni inkişafı üçün lazımi şəraitin yaradılması;
- Bütün millətlərdən milli etnik qruplardan olan vətəndaşların hüquq və azadliqlarına riayət edilməsi əsasında ümumi

Azərbaycan vətəndaşının və mənəvi-əxlaqi birliyinin möhkəmləndirilməsi və bu birliyin ən yüksək sərvət kimi qəbul edilməsi.

Dini-islam və mədəniyyət

İctimai şüur mədəniyyətinin mühüm tərkib hissəsi olduğu milli dini-islami şüur da ümumbəşəri, mənəvi dəyərlərin mühüm və ayrılmaz tərkib hissələrindən biridir.

Məhz buna görə də dini bəşər tarixi təxminən 40-50 min ildən sonra yaranmışdır. Konkret olaraq islam dini eramızın yeddinci əsrinin əvvəllərində Ərəbistan yarımadasında yaranmışdır. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, din ümumbəşər mədəniyyətinin mühüm tərkib hissələrindən biridir. Dinə elmilik, obyektivlik, məntiqlik və dünyəvilik baxımından aşağıdakı tərifi vermək olar.

"Ümumiyyətlə, din ümumbəşər mənəvi dəyərlərin mühüm tərkib hissələrindən biri olan, sivilizasiyanın inkişafının insan təfəkkürü və onun təkamülünün konkret bir tarixi mərhələsində (40-50 min il) meydana gələn planetar miqyaslı ictimai şüurun bilavasitə özünəməxsus spesifik etnik formalarından sayılan sosial-tarixi hadisə və fenomendir" (Bu tərif müəllif Ə.Qurbanova məxsusdur).

Təxminən eyni tərif islam dininə də aiddir. "İslam dini ümumbəşər mənəvi dəyərlərin mühüm tərkib hissələrindən biri olan Şərqdə sivilizasiyanın inkişafının, islam təfəkkürünün və onun təkamül yolu ilə inkişafının konkret bir məkanda (Ərəbistan yarımadasında), konkret bir dövrdə (VII əsrin əvvəllərində Ərəbistan yarımadasında meydana gələn, sosial-tarixi, konkret şəxsiyyət (VII əsrin əvvəllərində, Məhəmməd Peyğəmbər) tərəfindən yaradılan sosial-tarixi hadisə və fenomedir (Kursiv və tərif).

Deməli, din təxminən mədəniyyətlə birlikdə yaranmış, onun tərkib hissəsi kimi çıxış etmiş, uzun müddət ərzində bəşər mənəviyyatının təməli olmuşdur.

Dini şüurun strukturu

1 Dini şüur;
2. Dini teologiya;
3.Dini təşkilatlar;
Dini şüur özü də iki yerə bölünür:
a) adi dini şüur;
b) nəzəri dini şüur.
Dini teologiya da üç yerə bölünür:
1. Dini fəlsəfə;
2.Teologiya (ilahiyyat);
3. Dini istiqamətləndirilmiş baxışlar, təsəvvürlər.

Dini duyumlar, dini ideyalar, dini təsəvvürlər dini hissələrə bölünür:

1. Moizə;
2. Sitayiş;
3. Ayinçilik;
4. İbadət;
5. Bayramlar;
6. Pəhriz.

Dini təşkilatlar, bu da aşağıdakı bölümlərə ayrılır:

1. Mərkəzi Dini Qurum. Məsələn, Qafqaz Müsəlmanları İdarəsi: onun nəzdindəki şəhər, rayon, qəsəbə, kənd, məhəlləli məscidlər.

Təsnifatına görə dinlər aşağıdakı qruplara ayrılırlar:

1. İlk dini təsəvvürlər: məsələn, fotimizm, totemizm, aminizm, alimatizm, magiya;

2. Milli dinlər. Məsələn, hinduizm, caynizm, silhizm, bakeizm, sintoizm, şamaizm, induizm.

3. Dünya dinləri. Bunlar Buddizm, Xristianlıq və İslam dinidir.

Monoteist (təkallahlıq) dinlər. İlk dini təsəvvürlər hələ din demək deyildir. Milli din, o din sayılır ki, bu dinə yalnız bir millətin, məsələn, hinduizmə-hindular, sintoizmə-yunanlar, daosizmə-çinlilər, induizmə-yəhudilər etiqad, sitayiş edirlər.

Dünya dinlərini şərtləndirən amillər vardır. Onlar aşağıdakılardır:

1.Dünya miqyasında coğrafi cəhətdən geniş yayılmasına görə;

2.Etiqad edən adamların sayına görə.

Ekoloji mədəniyyət və mədəniyyətin ekologiyası

Bu mədəniyyət özlüyündə, mahiyyətinə görə iki yerə bölünür:

1. Ekoloji mədəniyyət;

2. Mədəniyyətin ekologiyası.

Birincisi, əsasən dörd funksiyadan ibarət olan ekoloji fəaliyyət sahələrini əhatə edir:

- Təbiəti mühafizəetmə;
- Təbiətin pozulmaqda olan ilkin vəziyyətinin bərpası;
- Təbiətin məhvedici təsirindən insanların xilas edilməsi.

Ekoloji mədəniyyət həm cəmiyyətin ekoloji təsisatlarını, həm də konkret fərqlərin mədəniyyət səviyyəsini (ekoloji təhsilini, tərbiyəsini, ekoloji şüurunu və ekoloji mənəviyyatını) əks etdirir.

İkincisi, bu mədəniyyət aşağıdakıları ehtiva edir:

- təbii mühitin qorunması ilə yanaşı, mədəni mühitin (mədəni irsin) qorunmasını zəruri edir.

Mədəni mühit insanın mənəvi-əxlaqi varlığının həyata keçirilməsində labüd şərtdir.

Mədəniyyətin ekologiyası ekoloji tərbiyə məsələlərinə xüsusi fikir verməyi tələb edir. Bunun yolu şəxsiyyətin ekoloji şüurunun formalaşmasından ibarətdir. Bu, insana humanist xarakterli həyat fəaliyyəti üçün şərtdir.

Mədəniyyətin inkişafının əsas qanunauyğunluqları

Bu qanunauyğunluqlar aşağıdakılardan ibarətdir:

1. Varislik. Varisliyə aşağıdakılar daxildir:

Mədəniyyətin inkişafında mədəniyyətin nailiyyətlərinin saxlanılması və onun yeni nəsillərə keçirilməsi yolu ilə təmin olunur. Hər bir mədəniyyət özündən əvvəl yaranmış mədəniyyət növlərindən bəhrələnir, onun ən yaxşı nümunələrini gələcək nəsillərə çatdırır, ötürür.

2. Mənəvi ənənələrin dayanıqlığı və ötürülməsi

Cəmiyyətin inkişafı gedişində mədəniyyətdən heç bir şey kənara atılmır. Əsrlər, minillər keçir, insanlar tərəfindən yaradılan maddi və mənəvi sərvətlər, mədəni əlaqələr möhkəmləndirilir, öz həyatlarını davam etdirirlər.

3. Novatorluq

Mədəniyyətdə hər cür novatorluq, yenilikçilik, ona yaradıcı münasibət və onu inkişaf etdirmək deməkdir. Mədəniyyətin imkanlarının novatorluğu onun sabitliyi ilə dialektik vəhdət təşkil edir.

4. Orijinallıq (özünəməxsusluq), təkrarsızlıq, nadirlik, fenomenlik

Hər bir mədəniyyət təkrarolunmaz, əvəzedilməz sərvətlərin məcmusudur. Tarix mədəniyyət fenomenlərinin inkişafını qoruyub saxlayır.

5. Multikulturalizmdə millilik və ümumbəşəriliyin (beynəlmiləlçiliyin) vəhdəti

Mədəniyyət forması milli məzmunca ümumbəşəri (beynəlmiləl) xarakter daşıyır. Bunlar, yəni multikulturalizm (çoxmədəniyyətlilik), tolerantlıq (dözümlülük) hər bir xalqın milli mədəniyyətini zənginləşdirir. Dünya mədəniyyəti, ümumbəşəri

mədəniyyət bütün millət və xalqların birlikdə yaratdıqları qədim, mənəvi sərvətdir.

Haşiyə 1. Hər bir milli mədəniyyətdə, ümumbəşərilikdə də millilik vardır.

Haşiyə 2. Mədəniyyətin inkişafı, onun müxtəlif ünsürlərinin bir-birinə qarşılıqlı təsiri və qarşılıqlı əlaqəsi gedişi prosesində mümkün olur. Bu qarşılıqlı əlaqə və təsir düzxəttli deyil, mürəkkəb, çoxtərəfli xarakterli, ziddiyyətli prosesdir.

Multikulturalizm və dini müxtəliflik

"Multikulturalizm və dini müxtəliflik" adlı mövzu müasir dövr, xüsusilə ***qloballaşma*** şəraitində müstəqil Azərbaycan üçün müstəsna dərəcədə aktuallıq kəsb edən bir problemdir. Yeri gəlmişkən, yuxarıda kursivlə yazılan "qloballaşma" anlayışına, termininə, məfhumuna elmilik, obyektivlik, məntiqilik və dünyəvilik baxımından xarakterik olan aşağıdakı tərifi vermək istərdik.

"Yaşadığımız hazırkı XXI əsr bəşər tarixinə qloballaşma, inteqrasiya, informasiya və kommunikasiya texnologiyaları proseslərinin geniş vüsət aldığı bir dövr, zaman kimi daxil olmuşdur" (tərif və kursiv bizimdir, Ə.Y.R-q).

Qeyd etmək lazımdır ki, belə bir çox səciyyəvi olan əsl bəşər cəmiyyətində, o cümlədən müasir Azərbaycan cəmiyyətində sosial, iqtisadi, ictimai, siyasi, mədəni və mənəvi həyatın bütün tərəf və istiqamətlərinə kifayət qədər öz mənfi və müsbət təsirini göstərir. Təbii olaraq bu təsir multikulturalizm və dinlərdən də yan keçmir. Bu hər şeydən əvvəl, Azərbaycanda Multikulturalizmin (çoxmədəniyyətliliyin), habelə ölkəmizdə rəsmi qanunvericiliyə əsasən fəaliyyət göstərən çoxsaylı dinlərin, o cümlədən islam, xristian, yəhudi dinlərinin, eyni zamanda adları çəkilən dinlərdə bu və ya digər dərəcədə təzahür edən ilk dini ünsürlərin, təriqətlərin, cərəyanların, ayin və mərasimlərin . . . mənşəyini, mahiyyətini, fəlsəfəsini, sosiologiyasını, psixologiyasını, fenomenologiyasını elmilik, obyek-

tivlik, məntiqilik və dünyəvilik baxımından izah olunmasını tələb edir. Bu təsir həmçinin yuxarıda adları sadalanan dinlərdə olan bəzi zərərli qalıqların: mövhumatın, xurafatın, cəhalətin, fanatizmin, fatalizmin, asketizmin, mistikanın, habelə vəhhabiliyin, nurçuluğun, fundamentalizmin, radikalizmin, şiəliyin, sünniliyin, terrorçuluğun, ayrı-seçkiliyin, ikili standartlığın və s. bu kimi mənfi meyillərin elmilik, obyektivlik, məntiqilik və dünyəvilik baxımından, maarifçilik yolu ilə aradan qaldırılmasının forma, metod və üsullarının tətbiq olunmasını tələb edir. Doğrudur, son illərdə, xüsusilə 1993-cü ilin ikinci yarısından sonra Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, dövlətimizin başçısı – Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun Prezidenti, Mehriban xanım Əliyevanın titanik fəaliyyətləri nəticəsində sözügedən sahələrdə çox böyük işlər görülmüş, kompleks tədbirlər hazırlanıb həyata keçirilmişdir.

"Azərbaycan xalqında, azərbaycanlılarda qədim olan bir xüsusiyyət vardır. Bu da insanların bütün dinlərə dözümlülüyü, tolerantlığı, insanlara xoş arzularıdır."[1]

"Azərbaycan Böyük İpək yolu üzərində yerləşən ölkə kimi tarix boyu yüksək tolerantlıq mühiti yaşatmışdır. Bu, həm mədəniyyətimizdə, həm də cəmiyyətimizdə dərin iz qoymuşdur. İndi də bizim cəmiyyətdə belə bir tolerantlıq ab-havası hökm sürür. Bakı unikal şəhərdir. Artıq uzun müddətdir burada müsəlman məscidi, atəşpərəst məbədi, katolik kilsəsi və senaqoq, provaslav məbədi və kirxa yanaşı mövcuddur. Onların coğrafi yaxınlığı faktı belə, yüksək tolerantlıq şəraitində birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir və hər bir dinin əsas dəyərlərinin ümumbəşəri dəyərlərlə üst-üstə düşdüyünü təsdiq edir. Bu, təkcə tarixin ayrı-ayrı məqamları deyil. Bu il biz yeni katolik məbədi açmışıq. Tarixi əhəmiyyət daşıyan məscid

[1] İlham Əliyev. Azərbaycan tolerantlıq örnəyidir. Bakı, 2015-ci il

və kilsələrin bərpası ilə yanaşı, yenilərini də tikirik. Ümid-varam ki, Bakı forumu gələcəkdə ənənəvi şəkil almaqla, sivilizasiyaların faydalı dialoqunun formalaşmasına dair hər birimizin öz ideya və məqsədlərimizi həyata keçirmək üçün imkan yarada bilər."[2]

"Dini tolerantlıq Heydər Əliyev məktəbinin tarixi və mütərəqqi ənənələrindən qaynaqlanan siyasətin məntiqi nəticəsidir"[3].

Bu dərin məzmunlu, perspektivli fikir Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı ilin 11 yanvarında imzaladığı "2016-cı ilin Aəzrbaycanda "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı"nda da öz dərin ifadəsini tapmışdır. Həmin sərəncamda deyilir:

"Tarixi İpək Yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq, bariz nümunəsidir."[4]

---

[2] 2008-ci ilin 11 iyununda Bakıda keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirlməsi" mövzusunda beynəlxalq simpozium - Mehriban xanım Əliyevanın məruzəsi, "Azərbaycan" qəzeti, 11 iyun 2008-ci il.

[3] İlham Əliyev. Azərbaycan tolerantlıq örnəyidir. Bakı, 2015-ci il.

[4] "Azərbaycan" qəzeti, 2016, 12 yanvar

II BÖLMƏ

MULTİKULTURALİZM İNCƏSƏNƏT VƏ MƏDƏNİYYƏT SİSTEMİNDƏ

Şəxsiyyət çoxsahəli, çoxtərəfli, çoxistiqamətli, zəngin, dərin məna, məzmun və mündəricə təzahürlərinə malik sosial varlıqdır. Onun mövcudluğu mədəniyyətin ətraf aləmlə qarşılıqlı təsir prosesində üzə çıxır. Şəxsiyyətin daxili aləmi onun mənəvi yetkinliyinin, mədəniyyətinin kamilliyinin başlıca göstəricisidir. İnsanın bir şəxsiyyət kimi tələbatları onun tərbiyəsi və mədəniyyət aləminə çevrilməsi prosesində formalaşır.

Ünsiyyət tələbatı şəxsiyyətin mədəni inkişafının ən mühüm şərti rolunu oynayır. Ünsiyyət hər bir şəxsin simasının əks olunduğu güzgüdür. Şəxsiyyətin mədəniyyəti onun mənəvi yetkinliyini, ünsiyyət qaydalarına riayət edilməmiş, bəşəri dəyərlərə münasibətini və onun qiymətləndirilməsini tələb edir.

Şəxsiyyət mədəniyyəti münasibəti də mühüm göstəricidir.

Bu göstəricilər əsasən aşağıdakılardan ibarətdir:

1. İnsanlara qayğıkeşliklə maraq göstərilməsi və kömək etməyə hazır olmaq;
2. Özünü müəyyənləşdirmə, özünü dərketmə, tənzimetmə, özününküləşdirmə qabiliyyətini inkişaf etdirməyə cəhd göstərilməsi;
3. Başqa insanların hal-əhvalını, vəziyyətini başa düşmək, onlara rəğbətlə yanaşmaq, dərdlərinə şərik olmaq;
4. İnsan şəxsiyyətinin mənasını başa düşmək, onun keyfiyyətlərinin qiymətləndirilməsinə nail olmaq;
5. Adamlarda qarşılıqlı, dəyərli əlamətlərin yaxşılaşdırılmasına nail olmaq;
6. Şəxsiyyətin özünün davranış və hərəkətlərinin etik - əxlaqi baxımdan, xeyirxahlıq, ədalət, doğruçuluq mövqeyindən

qiymətləndirilməsi və onlardan düzgün, məntiqi nəticələrin çıxarılması.

Fiziki mədəniyyət

Bu mədəniyyətin məna göstəricilərinin əsas əlamətləri aşağıdakılardır.

1. İnsanın öz orqanizminə düzgün münasibəti mədəniyyətdir. Fiziki və ruhi sağlamlığı mühafizə edilmısinə və möhkəmləndirilməsinə, bədənə sahiblik etmək bacarığına nail olmasına yönəldilir;

2. İnsanın öz bədəninin bütün xüsusiyyətlərinə yaxşı bələd olması və pislik edə bilməsi (mümkünlük dairəsində), sürətlə dəyişən həyat və əmək şəraitinə tam uyğun bu xüsiyyətlərdən səmərəli istifadə etməklə yanaşı işgüzarlıq qalibiyyətini üzə çıxarmaq bacarığı;

3. İnsanların sağlamlığını möhkəmləndirir, onları mətinləşdirir, müsbət emosiyalar, əhvali-ruhiyyələr formalaşdırır, şəxsiyyətin hərtərəfli inkişafında vacib rol oynayır;

4. Fərdi yaradıcılıq – axtarış əhəmiyyətlidir. Bu, insanların yaradıcılıq fəaliyyəti prosesində aşkara çıxır;

5. Öz mənliyini bildirmək, özünü təsdiq üçün çox böyük imkanlar verir, adamlara öz davranışında sevinc bəxş edir. Onlara başqalarının dərdinə şərik olmaq və onlara kömək etmək həvəsi doğurur;

6. Şəxsiyyətin, ailənin, sosial qrupların, millətin və xalqın, bütövlükdə cəmiyyətin sosial sağlamlığının möhkəmləndirilməsində mühüm şərt-zəmin rolunu oynayır;

7. İdman rekordu insan orqanizminin hələ öyrənməyən, sınanılmış imkanlarını nümayiş etdirir, şəxsiyyətin özünü reallaşdırma meylini artırır.

8. Şəxsiyyətin mənəvi və estetik keyfiyyətlərini inkişaf etdirir, iradəsini möhkəmləndirir.

9. Boş-asudə vaxtdan səmərəli, məqsədyönlü istifadə-edilmə vasitəsi rolunu oynayır;

10. İdman olimpiadaları böyük siyasi, mənəvi və estetik əhəmiyyət kəsb etməklə, sülh və xalqlar arasında dostluğun möhkəmləndirilməsində çox mühüm yer tutur.

Bu baxımdan 2015-ci ildə Bakıda keçirilən I Avropa oyunları sözügedən sahədə xüsusi əhəmiyyət kəsb edir. Bu beynəlxalq tədbir zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və tədbirin təşkilat üzrə sədri Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyevanın titanik fəaliyyətləri xüsusi qeyd olunmalıdır.

Danışıq-nitq mədəniyyəti

Danışıq – nitq insanlar arasındakı ünsiyyət mədəniyyəti üçün zəruri şərtdir. Ünsiyyət mədəniyyəti insan həyatının mənasıdır.

Danışıq – nitq mədəniyyətinə verilən tələblər.

Bu tələblər aşağıdakılardan ibarətdir:

1. Yanlış hesab etdiyini danışmamaq;
2. Lazımi qədər əsaslara malik olmadıqlarının haqqında danışmamaq;
3. Ünsiyyət mədəniyyəti mövzusundan kənara çıxmamaq;
4. Anlaşılmaz sözlərdən qaçmaq, aydın danışmaq;
5. Ədəbli olmaq, nəzakət qaydalarına tam riayət etmək;
6. Sözçülükdən, tandologiyadan qaçmaq, uzaqlaşmaq, müxtəsər, qısa, lakonik danışmaq, əhəmiyyət kəsb etməyən danışıqlardan yan keçmək;
7. Özünə hörmətlə, məsuliyyətli və məntiqi yanaşmaq;
8. Kim ilə kimin üçün danışdığını nəzərdən, yaddan çıxarmamaq;
9. Mütəşəkkil, yığcam olmaq və öz “mən”ini daha yaxşı göstərmək;
10. Məsuliyyət hissi keçirmək, onu dərindən dərk etmək.

III BÖLMƏ

DÜNYA MƏDƏNİYYƏTİNİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Keçmiş, qədim, klassik, zəngin tarixi anlamaq və keçmişin hadisələrindən dərs almaq, örnək götürmək insan müdrikliyinin də ən yaxşı vasitələrindən biridir.

Mədəniyyətin genezisi – mənşəyi və mahiyyəti

Qeyd olunan mənbə, mənşə əsasən üç yerə bölünür.

1. Antopogenez – insanın mənşəyi,
2. Sosiogenez – bəşər cəmiyyətinin təşəkkül etməsi,
3. Kulturogenez – mədəniyyətin yaranması.

Bizcə, bir və ikinci bölməni geniş izah və şərh etməyə bir o qədər də ciddi ehtiyac yoxdur. Məhz buna görə də üçüncü bölmənin şərhini vacib sayırıq. Bu baxımdan aşağıdakı sxem, yəni cədvəl fikrimizi sübut etmək üçün bizə demək olar ki, tam əsas verir.

Tam yaşı (min il)	**Xarakteristikası**	
7	Neolit Mezolit	Mişarlanma texnikası və cilalamaq, kərkilər, baltalar, oraq, toxuculuq
40	Gec poliolit	Əl alətləri (dırmıq), ucluqlu oxlar, sümükdən iynələrin hazırlanması, mənzillərin qurulması mağara, ipəkçilik, heykəltəraşlığın yaranması

75 250	ilk	Son arxeolit	Sındırılma (parçalama) texnikasının yaranması, alət hazırlama əməliyyatının şərti refleks xarakterinin saxlanılması
1200 2000	Paleolit (arxeoloq)	Erkən arxeolit	Alət fəaliyyətinin: Əmək alətlərinin hazırlanması təbiət obyektlərinə yerləşdirmək üçün onlardan istifadə edilməsi, daş parçalama texnikası, ilk daş alətlərinin hazırlanmasının başlanğıcı

İbtidai dövrün mədəniyyəti

Bu dövrün mədəniyyəti aşağıdakı xüsusiyyətlərə bölünür:

1. İbtidai dövr mədəniyyətinin xarakterik xüsusiyyətləri, cəhətləri;

2. İlk davranış qaydalarının təşəkkül tapması və onların qiymətləndirilməsi;

3. Qobu qaydası: qəbilə daxilində nikahın qadağan olunması: totemin toxunulmazlığı, ataya, rəhbərə, kahinə toxunulmazlıq, hökmdara itaət;

4. Obyektlərə sitayiş etmək, obyektlərin sistemi: təbiətin gücünə, totemlərə, əcdadlara, ağsaqqallara sitayiş.

İbtidai icma dövründə yaradılmış mədəni sərvətlər: din, əxlaq, magiya (ovsunçuluq), incəsənət.

İlk dini təsəvvürlər

Bunlar əsasən beş yerə bölünürlər.

1. Miflər – mədəniyyətin kollektiv tərəfindən sakral (dünyəvilik) dərk edilmişdir. Miflər insanlara öz totem əcdadları ilə əlaqəsinin, təbiətin bu və ya digər qüvvəsinin canlandı-

rılmasını, magiyanın sehrli gücünü, bu və ya başqa hadisənin necə baç verməsini izah etmək cəhdləridir.

2. Totemizm – insan kollektivləri (qəbilə, tayfa), müqəddəs heyvan və bitkilər arasında insanın qan qohumluğu əlaqələrinin olmasına etiqaddır.

3. Animizm – ruhların ölməzliyinə etiqad etməkdir.

4. Magiya – tilsimləmək, ovsunlamaq, cadu etmək və s. kimi simvolik fövqəltəbii hərəkətlərlə insanlara təbii hadisələrlə təsir göstərmək bacarığıdır.

5. Fetişizm – müxtəlif maddi predmetlərin - əşyaların fövqəltəbii xassələrinə etiqad.

İbtidai incəsənət

İbtidai icma dövrünün incəsənəti əsasən beş hissəyə bölünür. Onlar aşağıdakılardır:

1. Mərasim rəqsləri.
2. Tamaşalar.
3. Bədənlə ritmik və zərif hərəkətlər göstərmək məharəti.
4. Qaya üzərində şəkillərin təsviri (məsələn, Qobustan qayaları üzərində həkk olunmuş şəkillərin təsviri).
5. Mifik yaradıcılığımızın qədim formaları.

İbtidai insan ovçu, döyüşçü olduğu dərəcədə rəssam, yaradıcı olmuşdur. İncəsənət onun mahiyyətinin təzahürüdür.

Babil (Babilistan) mədəniyyəti

Babil mədəniyyətinə eyni zamanda qədim ikiçayarası sivilizasiya da deyilir.

Bu sivilizasiya əsasən aşağıdakı üç mühüm sahəyə bölünür:

1. İkiçayarası (yunanca – babilistan) mədəniyyəti ən qədim dünya mədəniyyətlərindən biridir.

2. İkiçayarası ərazidə eradan əvvəl II minillikdə Dəclə və Fərat vadilərinin cənub hissəsində Şumer – Akkad mədəniyyəti təşəkkül tapmışdır.

3. Babilistanın ən qədim xalqı şumerlərin bəşər mədəniyyətinin başlanğıcına qoymuş, qədim dünyanın iqtisadi və mədəni həyatında mərkəzi rol oynamış, sonrakı dövrünün mədəniyyətinin bütün formalarının əsası olmuşdur. "Tarix Şumerdən başlayır" (N.S.Kramer).

İkiçayarası ərazidə elm

Bu ərazidə təşəkkül tapan elm əsasən aşağıdakı iki sahəyə bölünür:

1. İkiçayarası ərazidə elm daha erkən inkişaf etmişdir. Riyaziyyat elmləri üzrə yüzlərlə töhfələr, vurma cədvəlləri, kvadrat tənliklər, kəsrlər, kvadrat və kub köklərinin çıxarılması məlumdur. Artıq şumerlər dövründə dairənin 360 dərəcəyə, saatın 60 dəqiqəyə, dəqiqənin 60 saniyəyə bölünməsi məlum idi. Babil riyaziyyatçıları cəbr və həndəsənin əsasını qoymuşlar. Onluq və altı onluq sistemi, Pifaqor teoremi yaradılmışdır.

2. Kosmologiya və astrologiya sahələri də sürətlə inkişaf etmişdir. Babil astronomları səma cisimlərini sistemli şəkildə müşahidə edirdilər. Ayın tutulması cədvəli, Gün – Ay təqvimi və bir sıra digər təqvim növləri yaradılmışdır. Gün təqviminə görə (Şəmsi təqvim) bir il 365 gün, 24 sutkaya bərabərdir, ay təqviminə görə (qəməri təqvim) 1 ay 29 və ya 30 günə, il 12 aya və 364 günə bərabərdir. Dünyada birinci olaraq ulduzlu səmanın ilk xəritəsi tərtib olunmuş, dünyanın heliosentrik sistemi haqqında məlumat vermişdir. Astronomik məktəblər fəaliyyət göstərmişdir.

Texniki biliklərdə də mədəniyyət

Biz yuxarıda qeyd etmişik ki, insanın düşünən beyninin və onun yaradan əlinin nailiyyətlərinin məcmusuna mədəniyyət deyilir. Buraya texniki biliklər sayəsində əldə edilən, qazanılan kəşfləri də aid etmək olar. Texniki biliklər əsasən iki mühüm sahəyə bölünür.

1. Qədim ikiçayarası ərazidə texniki biliklər də inkişaf etmiş və dünya mədəniyyətində mühüm və xüsusi yer tutmuşdur. Burada öz həndəsi formaları ilə diqqət cəlb edən böyük məbədlər, saraylar tikilmişdir. Saraylar və məbədlərdə inşaat işləri aparılır, o cümlədən irriqasiya qurğuları, tikililəri planlaşdırlırdı. Şəhərlər və mədəniyyət mərkəzləri kimi fəaliyyət göstərən saraylararası əlaqələri su nəqliyyat yolları və kanallar vasitəsilə həyata keçirilirdi. Bişirilmiş kərpic əsas tikinti materialları idi.

2. Bizim eradan əvvəl birinci minillikdə dəniz səviyyəsindən 500 metr yüksəklikdə qayaları yararaq uzun tunel çəkilmişdir. Magistral və bölüşdürücü kanallar çəkilmiş, çayın üstündən keçmək üçün körpülər salınmışdır. Bizim eradan əvvəl üçüncü minillikdə şüşə istehsalı meydana çıxmışdır.

Hökmdar Novuxodonosordunin yararsız torpaqlarda qaya çıxıntılarını hamarlayaraq, onun üzərində tikdirdiyi Samiradı (asılı baca) böyük bir möcüzə idi. Dünyaca ilk botanika bağı adlanan bu bağ müasirləri, sonralar isə yunan və romalı müəlliflər tərəfindən şərh edilirdi.

İncəsənət və yazı mədəniyyəti

Hələ vaxtilə Babilistan ərazisində teatrşünaslıq plastik mahiyyətli, incəsənət yaradılmışdır. Bu baxımdan arxaik dövr yunan mədəniyyətini qabaqlamış, onun müjdəsi olmuşdur. Burada ifaçılıq sənəti də yüksək qiymətləndirilirdi. Şumerlər tütək, fleyta, dəf, arfanın yaradıcıları olmuşlar. İncəsənətin bu

yazı mədəniyyətinə ikiçayarası mədəniyyətini və incəsənətini də daxil etmək olar. Qeyd olunan incəsənət, yəni ikiçayrası incəsənəti bəşər tarixinə ilk yazı sisteminin vətəninə aid olan incəsənətdir. Burada eramızdan əvvəl II əsrin axırlarında yazılı mədəniyyət yaradılmışdır (təqribən eyni vaxtda qədim Misirdə dı yazı kəşf edilmişdir). Akkad, Hürrid tayfalarının gil lövhələr üzərindəki yazıları bizim dövrümüzə qədər gəlib çıxmışdır. Yazılar yalnız dövlət və mədəni xarakterli məqsədlərə xidmət edirdi. Yazı Şumer – babil mədəniyyəti elmi nailiyyətləin qorunub saxlanılmasına imkan vermişdir, şərait yaratmışdır.

Bu dövrdə Hammurapi qanunları adlandırlılan qanunlar da mövcud olmuşdu. Həmin qanunlara aşağıdakılar daxildir:

- babillərin hüquq elmi sahəsində də məmurları var idi. Babilistanda yüksək tərəqqi dövrü hesab edilən Xammuraninin çarlığı dövrü Şumer və Akkad dillərində bütün dünya tarixində ilk dəfə olaraq qanunlar məcmuəsi yaranmışdır. 222 maddədən ibarət olan bu qanunlar məcmuəsi əmlak, ailə hüququ, müxtəlif cinayətlər üzrə cəzalar verilməsi və məhkəmə proseslərinin aparılması üsullarını və s. əhatə edir.

Hammurapi qanunları Qədim İkiçayarasının ən nəzərə çarpan mədəni nailiyyəti idi. Babil natamam qanunları, bir sıra başqa hüquq qaydaları yaradılmışdır.

Mifologiya və ədəbiyyat

Bu bölüm əsasən aşağıdakı dörd sahəyə, hissəyə ayrılır:

1. Şumer – Akkad mifologiyası bəşər mənəvi mədəniyyətinin ən qədim formalarından biridir. Şumer miflərində dünyanın yaradılması, quruluşu və sonu haqqında, ulduzlar, planetlər, həyat və ölüm, əkinçilik, sənətkarlıq, adətlər, ənənələr və s. haqqında sadəlövhcəsinə təsəvvürlər ifadə olunmuşdur. Məzmun və formaca rəngarəng olan bu miflərdə Allahların yaradıcı və dağıdıcı rolunun və qəhrəmalarının yaradıcı rolunun təsviri əsas yer tuturdu.

2. Şumer – Akkad mifoloji ədəbiyyatda qanun – qaydalar, ədalətlilik və azadlıq, məharət yüksək qiymətləndirilmiş, şəxsi xoşbəxtlik və həyatın mənası haqqında suallara cavabların verilməsinə cəhdlər göstərilmişdir. Miflərdə bir sıra ibrətamiz nəsihətlər vardır. "Müdrik Axunar haqqında" hekayətdə etik normalara aid yüzdən çox nəsihət vardır.

3. Qədin Şərq ədəbiyyatının ən böyük əsəri mifoloji dünyagörüşün təzahürü olan "Bilqamin haqqında dastan" idi. Burada həyatın əbədi olması, insanın əbədi yaşaması üçün öz ömrünü mənalı keçirməsi, həqiqətən sevməsi, xeyirxah olması, xalqa xidmət etməsi, ölməzliyə yalnız pak əməllərlə çata bilməsi kimi baxışlar poetik formada təsvir olunur.

4. Babilistanda ümummədəni yüksəliş zəmininə fəlsəfi fikirlər də təşəkkül tapmışdır. Bütün Şərqdə olduğu kimi Babilistanda da fəlsəfi fikirlər öz başlanğıcını xarici aləmin mifoloji və dini anlamlarından götürmüşdür.

Qədim Misir mədəniyyəti

Dünyanın ən qədim, böyük və uzun, bol sulu çayı olan Nil misirlilər üçün həyat çayıdır, başqa sözlə desək, həyat tərzi və varlıqdır.

Osiris təbiətin ölən və dirilən baş Allahı, əbədilik ideyası idi. Ölməzliyə olan güclü meyil misirlilərin bütün dini-mifoloji fikrinə daxil olmuş, onların dünyagörüşünü müəyyən etmiş, qədim Misir mədəniyyətinin formalaşmasında çox mühüm rol oynamışdır.

Qədim Misir mədəniyyətinin əsas göstəriciləri

Bu göstəricilər aşağıdakı bölmələrdən obarətdir:

1. Mədəniyyətin dini – mifoloji dünyagörüşü ilə əlaqəsi, animist təsəvvürlər sistemi, məsələn, totalizm;

2. Mərasimlərin və adətlərin mühüm yer tutması, onların uzaq keçmişdən başlayıb ənənəvi olaraq davam etdirilməsinin mədəniyyətin sabitləşdirilməmiş səbəbi olması;

3. İncəsənətin ölüm mərasimlərinin mühüm tərkib hissəsi olması və əbədilik bəxş etməsi ideyası;

4. Əyanilik, konkretlilik və inandırıcılığın üstünlük təşkil etməsi;

5. Dünya mədəniyyətinin inciləri sayılan suvarma sistemləri, nəhəng ehramlar, saraylar, məbədlər, dulusçuluq, daş və ağac emalı, kətan parça toxuculuğu;

6. Süni suvarma sistemlərinin geniş tətbiq edilməsi və torpaqlardan istifadə edilməsi hesabına əkinçiliyin genişləndirilməsi;

7. Riyaziyyat, həndəsə, mexanika, astronomiya, kosmologiya, təbabət və s. elmlərin inkişafı, insan anatomiyası və qan dövranına aid bir sıra məlumatların əldə edilməsi. Misirlilərin yaratdığı ilk təqvim prinsipləri bu günə qədər öz əhəmiyyətini itirməmişdir;

8. Piktoqrafik yazının meydana gəlməsi və onun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi (piktoqrafiya, hekroqlif yazı, demontik (xalq) yazı).

İncəsənət və məişət

Qeyd olunan məsələ əsasən altı sahəyə bölünür:

1. Qədim Misirdə dulusçuluq sənəti inkişaf etmiş, müxtəlifçeşidli saxsı qablar hazırlanması sahəsində mühüm irəliləyişlər olmuş, boya və güzgü kəşf edilmişdi.

2. Qızıl, gümüş, yarıqiymətli daşlardan, fil sümüklərindən məmulatlar hazırlanması Misir sənətkarlarını ölkə xaricində də məşhur etmişdi.

3. Gildən düzəldilmiş xırda evciklərlə yanaşı şəhərlərdə iki, üçmərtəbəli rahat evlər, malikanələr tikilmişdi.

4. Ağac emalı yüksək səviyyəyə çatmış, ağacdan arabalar, kanal, çay və dəniz gəmiləri hazırlanmışdı.

5. Mumiya hazırlanması Misirdə ən hörmətli sənət sahəsi idi.

6. İndi də hamını heyran edən Misir məqbərələri və ehramları o dövrdə yaradılmışdı. Burada 20 il ərzində 100 minlərlə insanın ağır əl əməyi ilə tikilmiş 147 metr hündürlüyü və meydanı 55 000 kv. olan nadir ehram dünyanın ən böyük möcüzəsidi.

Qədim Misir mədəniyyətinin bədii əsasları

Qədim Misir mədəniyyətinin ibtidai əsaslarını başlıca olaraq iki hissəyə bölmək olar:

1. **Memarlıq:** Bura aşağıdakılar daxildir: a) məbədlər; b) saraylar; c) ehramlar (Misirdə ehramların sərdabəsi).

2. Heykəltəraşlıq: a) sifinkslər – xəyali məxluqlar; b) Allahların heykəlləri; c) Fironların heykəlləri.

Qədim Misir mədəniyyətin beşiyidir. Onun tarixi haqqında (incil, tövrat), qədim müəlliflər, ehramlar, məqbərələr, rəsmlər, arxeoloji yazılar və s. xəbər verir.

Antik yunan mədəniyyəti

(Qədim Yunanıstan, qədim Roma mədəniyyətini antik mədəniyyət adlandırırlar.)

I. **Qədim Yunan mədəniyyəti.** Tarixi mərhələlər:

1) Ellinizm dövrü (e.ə IV əsrin sonu, e.ə I əsr);

2) Klassik dövr (II – IV əsrlər);

3) Arxaik dövr (e.ə VIII – VI əsrlər);

4) Homer dövrü (e.ə XI – IX əsrlər);

5) Kirit Miken (2- ci minillik, e.ə XIII əsr).

Qədim Yunanıstanda Avropa mədəniyyətinin ocağı yaranmışdır. Yunan mədəniyyətində üstünlük mənəviyyata məx-

susdur. Məhz bu səbəb başqa xalqlarda öz mədəniyyətlərini yunanların yaratdığı mədəniyyətə bənzətməyə həvəs oyatmışdır.

Krit – Miken mədəniyyəti

Bu mədəniyyət əsasən aşağıdakı iki sahəyə ayrılır:

1. Miken mədəniyyəti inkişafında mühüm irəliləyiş, peşəkar və kustar istehsal sahələrinin artması, su kəmərləri və kanalizasiya tikilişinə başlanması, güclü saray memarlığı komplekslərinin tikintisi, tunc qablar və sink istehsalı, rəngli saxsı qablar istehsalı, tuncdan heykəllər yaradılması;

2. Mənəvi mədəniyyətdə dinlə sıx bağlı olan mifoloji təsəvvürlərin formalaşması. Yunanların aləmi xəyal, uydurma, əfsanə, yəni mifologiya vasitəsilə dərk etmələri;

3. Fonetik yazının yaradılması.

Homer dövrü mədəniyyəti

Homer dövrü mədəniyyəti əsasən aşağıdakı dörd mərhələyə bölünür:

1. Qədim yunanların mifoloji təsəvvürlərinin formalaşması, aləm haqqında mofoloji və dini təsəvvürlərin dialektik vəhdət təşkil etməsi;

2. Finikiya əlifbasının əhəmiyyətli dərcədə təkmilləşdirilməsi, ilk fonetik sistemlərinin yaradılması, yunan əlifbasının meydana gəlməsi;

3. Olimpiya adlanan qədim yunan dininin meydana gəlməsi.

Qədim yunanların təsəvvürünə görə Allahları qarla örtülmüş Olimp dağının zirvəsində yaşayır və onun başında göy gurultusu və ildırım Allahı zevs durur;

4. Homerin “İliada” və “Odisseya” şifahi dastanlarının yazılışı.

Klassik dövr

Bu dövr əsasən aşağıdakı dörd mərhələyə bölünür:

1. Həmin bu dövr yunan mədəniyyətinin ölkədən xaricdə yayılmış dövrü oldu;

2. Müxtəlif mədəniyyətlərin fəal qarşılıqlı əlaqəsi və təsiri artdı;

3. Elm və texnika sahəsində nəzərəçarpan tərəqqi baş verdi. Müxtəlif elmi mərkəzlər və kitabxanalar yaradıldı;

4. Yunan dili və mədəniyyətinin klassik nümunələrinin əsaslı şəkildə öyrənilməsi filologiya elmlərinin yaranmasına gətirib çıxardı;

5. Elitar mədəniyyətin kitab formalarına üstünlük verildi.

Tamaşa üçün deyil, oxumaq üçün dram əsərləri meydana gəldi.

Qədim Roma mədəniyyəti

Qədim Roma mədəniyyəti bir çox xalqların, ilk növbədə etrüsklərin və yunanların mədəniyyətinin təsiri altında təşəkkül tapmış, inkişaf etmiş və müəyyən sahələrdə bilavasitə özünəməxsus əzəməti ilə fərqlənmişdi. Yad ölkələr və xalqların mədəniyyətlərinin nailiyyətlərindən səmərəli və məqsədyönlü istifadə etməklə, romalılar bir çox sahələrdə müəllimlərini geridə qoymuş, onları xeyli ötüb keçmiş, özlərinin mədəni inkişafını görünməmiş səviyyəyə qaldıra bilmişdi. Romalılar xüsusilə də mənəvi mədəniyyətin fəlsəfə, memarlıq, heykəltəraşlıq, elmi biliklər, teatr və musiqi mədəniyyəti, poetika sahələrində yunanlardan çox şey əxz edə bilmişlər. Öz növbəsində Roma milli mədəniyyətinin nailiyyətləri orta əsrlər dövrü Qərbi Avropanın texniki inkişafı, tərəqqisi əsasında dururdu. Roma mədəniyyəti özünün çiçəklənmə dövründə qonşu xalqların inkişafına çox böyük təsir göstərmişdi.

Qədim Roma bütün elm dünyası mədəniyyətinin mərkəzində dayanırdı.

Qədim Roma mədəniyyətinin inkişafının tarixi mərhələləri

Bu mərhələ əsasən üç yerə bölünür:

1. Etrüsk mədəniyyəti: e.ə. VIII – V əsrlər;
2. Respublika dövrü: e.ə. V- I əsrlər;
3. İmperiya dövrü: e.ə I əsr – e.ə. V əsrlər.

Etrüsk mədəniyyətinin əsas əlamətləri

Bu əlamətlər əsasən aşağıdakılardır:

1. Etrüsk İtaliya adlandırılmış Apenin yarımadasında təşəkkül tapmış ən qədim sivilizasiyadır. Etrüsklər e.ə. I minillikdə Orta və Şimali İtaliya ərazisində hələ romalılara qədər şəhər – dövlətləri federasiyasını yaratmışlar.

2. Arxeoloji qazıntılar etrüsklərin çoxlu miqdarda mədəniyyət abidələrinin (divarlara yazılmış sərdabələr, məqbərələr, mərasim qutuları, zərgərlk əşyaları, tuncdan düzəldilmiş heykəllər, gildən bişirilmiş və düzəldilmiş heykəllər və s.) olmasını müəyyən etmişdir. Etrüsklər memarlığın inkişafında daha çox irəliyə gedə bilmişlər.

3. Etrüsklər tarixə məşhur inqilabçılar kimi daxil olmuşlar. Yeni görüşlər əsasında tikilmiş amfiteatrlar, stadionlar, qladiator oyunları üçün sirk, zadəgan sarayları, Kapitoliya təpəsində tikilmiş Yupiter ibadətgahı, şəhərə daş hasarları və kanalizasiya çəkilməsi, düz bucaq altında kəsişən və müxtəlif tərəflərə istiqamətləndirilmiş yolların salınması və s. bütün bunlar etrüsk mədəniyyəti yüksəkliyinin göstəricisidir.

4. Etrüsklər rum rəqəmini kəşf etmişlər. Avropanın və dünyanın böyük əksəriyyətində yayılmış latın əlifbası da etrüsk mənşəlidir.

5. Etrüsk mədəniyyəti başqa mədəniyyətlərlə əlaqə şəraitində inkişaf etmişdir. Yunanlar çoxcəhətli mədəniyyətlərinin təsiri ilə etrüsk mədəniyyətinin inkişafında dönüş yaran-

mışdır. Yunan mifologiyası və Homer epopeyası obrazlarının mənimsənilməsi də etrüsk mədəniyyəti tarixində mühüm rol oynamışdır. Öz növbəsində etrüsklər qonşu İtaliya xalqlarının, xüsusilə də romalıların mədəniyyətinə güclü təsir göstərmişlər. onlardan birisi Apenniks yarımadasının mərkəzi hissəsinin ərazidə mövqe tutmuş laqeyd latınlar tayfası olmuşdur. Məhz burada gələcək böyük imperiyaların mərkəzi Roma şəhəri yarandı. Romalılar etrüsklərdən geyimi, memarlıq sənətinin bir sıra xüsusiyyətlərini götürmüşlər.

Respublika dövrü mədəniyyəti

Respublika dövrü mədəniyyəti on mərhələyə bölünür.

1. E.ə 510-cu ildə etrüsk hökmdarlığı dövrü başa çatdı və aristokratik quldarlıq respublikası yarandı. Cənubi İtaliya şəhərlərinin qəsb edilməsi və romalıların daha yüksək yunan mədəniyyətinə qoşulmalarının sürətlənməsi ilk respublika dövrü mədəniyyətinin inkişafını sürətləndirir.

2. E.ə II əsrdə Roma cəmiyyətinin yüksək təbəqələri arasında yunan dili geniş yayılmağa başladı. Etrüsk əlifbası latın dilindəki səslərə uyğun olan yunan əlifbası ilə əvəz olundu.

3. Animistik dinin inkişafı və onun sürətlənməsi, müxtəlif ruhların mövcudluğuna olan inamı daha da artırdı. Bununla yanaşı, totemizm ünsürləri öz varlığını davam etdirdi. Romalılar keçmişi, bu günü və gələcəyi haqqında arzularını ifadə edən miflər yaradırdı.

4. Ədəbiyyat və incəsənət sahəsi inkişaf etdi. Yunan dilindən latın dilinə çoxlu ədəbiyyatlar tərcümə olundu. İlk Roma şairi Levi Andronin yunan dram və komediyalarını, Homerin “Odisseya”sını latın dilinə çevirdi. Bu dövrün yazıçısı, 130 komediya müəllifi Alerti idi. Lükretsi Kar və Kabul poeziya sənəti zirvəsində dayanırdılar. Böyük Kabul ilk dəfə olaraq latın poetik nəsr əsərini yaratdı. Roma Respublikası

dövrü tarixini yazdı. Respublika dövrü ədəbi-bədii fikrinin yüksəlişində Baron və Sezar da mühüm yer tuturdular.

5. Roma aristokratik quldarlıq respublikası dövründə roman janrı meydana çıxdı, natiqlik sənəti inkişaf etdi. Roma siyasi xadimi Siseronun dövründə "Qızıl latın" ədəbiyyatda nəsr sahəsinin sürətli inkişafı başladı. Siseron poeziyası bütün gələn nəsr üçün əlçatmaz zirvə oldu.

6. Quldarlıq Respublikası Romasında fəlsəfi təlimlər mühüm yer tuturdu. Stoisizm fəlsəfi sistemi daha geniş yayılmışdı.

7. Romanın xarici və daxili siyasətini aydınlaşırmaq, Ona haqq qazandırmağa yönəldilən istorafiya yaradıldı. Hüquq haqqında elm – hüquqşünaslıq yarandı, hüquqa dair əsərlər meydana gəldi. Roma hüququ işlənib hazırlandı. 12 cədvəldən ibarət Roma qanunlarının təsbit edilməsi Roma Respublikası dövrünün ən böyük nailiyyəti idi. Bu dövrdə Yunan Fay Papian, Pavel kimi məşhur hüquqşünaslar yetişmişlər.

8. Eramızın III – I əsrlərində Roma təsviri sənətində də irəliləyişlər oldu. "Roma portreti" heykəllər, büstlər daha geniş yayıldı. E.ə. I əsrin ən möhtəşəm abidəsi Zəfər tacı, xarüqə kompleksi, qəbirüstü abidələr idi. Bu vaxt dekorativ bədii sənət, rəssamlıq, boyakarlıq, memarlıq ənənələri inkişaf etdirildi.

9. Araksizim, tətbiqi elmlərə yüksək münasibət və sivil romalıların təfəkkür tərzinin mühüm əlaməti olmuşdu.

10. Respublika dövrünün yaxın strus, əsl Roma, İtaliya mədəniyyətlərinin əsas əlamətlərinin bir-biri ilə birləşməsindən Roma mədəniyyəti yarandı.

İmperiya dövrü mədəniyyəti

Qeyd olunan dövrün mədəniyyətini aşağıdakı altı sahəyə bölürlər:

1. Eramıza qədərki 31-ci ildən Roma imperiyası tarixi dövrü başlayır. Bu dövrün fəlsəfi bilikləri Romanın mədəni in-

kişafında çox mühüm yer tutmuşdur. Klassik ellinizm və Yunanıstan dövründə olduğu kimi, imperiya dövründə də spikurçuluq və stensizm geniş yayılmışdı. Stensizmin ən görkəmli nümayəndələri Roma filosofu, siyasətçisi, şairi Seneka və filosof imperator Mark Alpeliy olmuşdur.

2. Romanın büyük şəhərləri elm mərkəzi oldu. Roma tarixşünaslığı böyük yksəlişə çatdı. Coğrafi biliklər, botanika, zoologiya, minerologiya sahələri inkişaf etdi. Tibb elmi sahəsində mühüm nailiyyətlər əldə edildi. Onurğa beyni və baş beyin fəaliyyətinin öyrənilməsi üçün məktəb yaradıldı. Nəfəsalma prosesi ilə əlaqədar təcrübələr aparıldı.

3. İlk imperiya dövrü ədəbiyyatı Roma mədəniyyətinin ən böyük nailiyyəti hesab olunurdu. İmperator başda olmaqla bütün təhlilli adamların ədəbiyyatla məşğul olması bu dövrün səciyyəvi xüsusiyyəti, cəhəti idi. Teatra xüsusi maraq göstərilirdi. Komediyalar,dramlar, xalq improvizasiyası, tamaşaları, amfiteatrlarda göstərilən qladiator döyüşü, pontomimlər hamı tərəfindən rəğbətlə qarşılanırdı.

4. İnşaat, tikinti sahəsində mühəndislik təfəkkürü əhalinin məişət tələbləri ilə yanaşı, ilk növbədə, zadəganların bədii – estetik dövrünün təmin edilməsinə yönəldilmişdir. İmperiya dövrü portret, heykəltaraşlıq geniş yayılmışdı.

5. İncəsənət sahəsində memarlıq aparıcı rolunu saxlayırdı. E.ə I – II əsrin iki ən məşhur Roma memarlıq abidəsi 650 min tamaşıçı tutan antik dünyanın ən böyük amfiteatrı Komfeya və bütün Allahlar naminə panteon tikildi.

6. Yeni dini ayinlərin müəyyən olunması, ölümündən sonra ilahiliyini elan etmiş imperatorlara pərəstişedilmə imperiya dövrünün xarakterik əlaməti olmuşdur. E.ə. II əsrin sonu Roma imperiyası, onun mədəniyyəti böhran dövrünü keçirirdi. İmperiya qeyri-məhdud monarxiya ilə əvəz olundu. Monarxiya dövrü xristian kilsəsinin antik mədəniyyətə mənfi, düşmənçəsinə münasibət şəraitində qədim Roma mədəniyyəti tənəzzülə uğradı.

Antik dövr mədəniyyətinin səciyyəvi əlamətləri və nailiyyətləri

Həmin əlamətlər və nailiyyətlər əsasən iki hissəyə - sahəyə bölünür. Qeyd olunan birinci bölmə belə adlanır:

1. Səmərəli, parlaq əlamətlər:

- Obyektivlik;
- Nizamlılıq;
- Ahəngdarlıq;
- Mütənasiblik;
- Nikbinlik;
- Tələbkarlıq – ciddilik;
- Əzəmətlilik;
- Möhtəşəmlilik;
- Tərki-dünyalıq;
- Müvazinətlilik;
- Tərəqqiyə inam;
- Aydınlıq;
- Bütövlük;
- Ümumi üstünlüyü.

Digər sahəyə aid olanların tərkib hissələri bunlardır:

- Subyektivlik;
- Nizamlılıq;
- Ziddiyyətsizlik;
- Qeyri-mütənasiblik;
- Məyusluq;
- Mürəkkəblilik – qəribəlik;
- Həcmcə kiçiklik – məhdudluq;
- Həyatdan zövq almaq üçün toparlanmaq;
- Dinalizm;
- Dünyanın qanuniliyi ideyası;
- Kinayəlilik;
- Natamamlıq;
- Şəxsiyyətin üstünlüyü.

Qeyd: Bu bölmələr arasında da əlaqələr vardır.

Bunlar da aşağıdakı ən mühüm əlamətlərə bölünür:
- Obyektivlik;
- Pantsizm;
- Qabarıqlıq.

Bunlar da ümumiləşdirilərək aşağıdakı mühüm əlamətlərə bölünür:

- **Estetik** – bədii mədəniyyət: epos, heykəltəraşlıq, zahiri ədəb, teatr, sirk.
- **Bayramlar:** olimpiya oyunları
- Təhsil, tərbiyə, elm;
- Dövlət: demokratik respublika, imperiya;
- Qanunlar;
- Roma hüququ.

Qədim Çin mədəniyyəti

"Yenilik unudulmuş ləyaqətli köhnəlikdir" kəlamı Çin mədəniyyətini çox gözəl ifadə edir.

Qədim Çin mədəniyyətinin inkişafı

Burada da əsas xüsusiyyətlər ayrıca göstərilir. Bu xüsusiyyətlər aşağıdakılardır:

1. Çin mədəniyyəti dünyanın ən qədim mədəniyyətlərindən biridir. Qədim Misir mədəniyyəti kimi Qədim Çin mədəniyyəti də böyük çay ərazisində yaranmışdır. E.ə XVII əsrdə ilk Çin dövləti, III əsrdə onu əvəz edən Çin dövləti yarandı. E.ə VI – V əsrlər mədəniyyətin "Qızıl dövrü" olmuşdur.

2. Çin mədəniyyəti əsaslı dağıntılar dövrü keçməyib. Bu səbəbdən öz kökləri ilə qədim dövrə gedən ənənələrin böyük əksəriyyətinin qorunub saxlanılması mümkün olmuşdur. Hər bir yenilik yalnız o halda Çin mədəniyyəti kontekstinə daxil ola bilmişdir ki, onun bərqərar olması, inkişafı üçün zəmin yaranmışdır.

3. Çin mədəniyyətində dövlətçiliyin və mənəvi mədəniyyətin ən müxtəlif tərəflərinin yığımı təmsil olunmuşdur. Burada fəlsəfə və siyasi baxışlar dialektik vəhdət təşkil edir. Mədəniyyətin bu qatları hər bir insanın gündəlik varlığına, həyatına daxil olmuşdur.

4. Qədim Çin mədəniyyətinin mühüm xüsusiyyətlərindən biri də dünyanın əsaslı, köklü, düşünülmüş surətdə dərk edilmiş cəhdləri, elmi idrakın inkişafındakı irəliləyişləridir.

5. Qədim Çin cəmiyyətinin mənəvi həyatının əsasını hər bir insanın doğulduğu gündən ölənə qədər, bütün fəaliyyətinin əsasını, onun cəmiyyətdəki əlahiddə yerini, onun xüsusi çəkisini nizama salan etik qaydalar təşkil edir.

6. Hökmdarlara, müdriklərə, rəssamlara, mifoloji qəhrəmanlara xüsusi hörmət, ehtiram münasibətləri formalaşmışdır.

Qədim Çin mədəniyyətində əsas cərəyanlar

Bu cərəyanlar əsasən aşağıdakı dörd yerə bölünür:

1. Daosizm – qədim Çin milli dini. Banisi Loatsi e.ə 604 – 552.

2. Konfutsiya. Banisi Konfutsiy. E.ə. 551 – 479.

3. Maizm. Banisi Mozi (Motei). E.ə. 475 – 395.

4. Leqizm. Banisi Şan Van. E.ə. 390 – 338.

a) Daosizm cərəyanı

Bu cərəyanın əsas təlimləri aşağıdakılardır:

1. Dao yol deməkdir. Müdriklər və filosoflar Daonu təbiəti özünəməxsus əbədi, dəyişməyən, həyatın mənbəyi, bütün varlığın əsası, mövcud olanların və baş verənlərin tamamlayıcısı hesab etmişlər.

2. Dao Çinin mənəvi həyatında çox mühüm rol oynamışdır. Daoya görə insanların həyatı təbii qanunlara uyğun baş verir. Hər şey təbii olaraq dəyişir və nəticədə öz əksinə çevrilir və haqq iş mütləq qələbə çalır.

3. Dünyada baş verən dəyişikliklər səbəbindən ən zəiflər müəyyən vaxtdan sonra güclənir və özündən güclüləri geridə qoyur.

4. İnsanlar öz fəaliyyətlərində təbiiliyə əməl etməyə borcludurlar. Maneəçilik göstərilməsi yolundakı hər bir cəhd mütləq uğursuzluqla nəticələnir.

5. Daosizm təlimində dünyanın ahəngdarlığına diqqət yetirilir, insanla təbiətin qovuşması insanın və hökmdarın məqsədi hesab olunur.

b) Konfutsiya cərəyanı

Bu təlimin əsas cərəyanları aşağıdakılardır:

1. Cəmiyyətin bütün problemləri və onların həlli mədəniyyətin vəziyyəti, insanların bir-birinə və keçmişinə münasibətləri ilə əlaqədardır.

2. Konfutsiya təlimində etik-əxlaqi-siyasi istiqamət əsas yer tutur. Belə hesab edilir ki, insanın xoşbəxtliyi daonun (doğru yol) əməl etməsindən asılıdır.

Bunun üçün başlıca prinsip humanistlik, insanpərvərlikdir.

3. İctimai-sosial əmin-amanlığın, xoşbəxtliyin iki söykənəcək dayağı var: insanpərvərlik və əxlaq qaydaları. Buna nail olmaq yolu insanın öz daxili aləminin zənginləşdirilməsindədir. Bu isə yalnız təmiz, saf ürək, düzlük, sağlam düşüncə, insanın öz-özünü dərk edə bilməsi yolu ilə mümkün ola bilər.

4. Tərbiyə "qarşılıqlı məhəbbət, insanlar haqqında qayğı" mahiyyətini təşkil edir. İnsanlar təbiətinə görə bir-birinə yaxındırlar. Lakin tədbir zamanı onlar bir-birindən uzaqlaşırlar.

5. İnsan ümumi xoşbəxtliyə can atmalıdırlar. Hər bir insan yalnız yaxınları deyil, yaxın olmayanları, uzaqları da sevməlidir. Hər kəs hamının xoşbəxt olması üçün çalışmalıdır.

c) Moizm cərəyanı

Bu cərəyanın əsas təlimləri aşağıdakılardır:

1. Moizm cərəyanının əsas ideyasını ümumi sevgi, müdrikliyə hörmət, mənəvi borc, qarşılıqlı fayda, insanların bəra-

bərliyi təşkil edir. Ümumi sevgi və insanlıq hamı üçün məcburidir. Bu prinsipə əməl etməmişdən asılı olaraq ilahi iradə insanı ya mükafatlandırır, ya da cəzalandırır. İnsanın taleyi "ümumi məhəbbət" prinsiplərinin necə həyata keçirilməsi ilə bağlıdır.

2. Moizmə görə "Səma" arzusu ilə insanlar bir-birinə kömək etməli, güclülər zəiflərə əl uzatmalı, onları bir-birini öyrətməli, əşyalarını öz aralarında bölüşdürməlidirlər.

3. Səma istəmir ki, böyük dövlətlər kiçik dövlətlərə basqın etsin, güclü ilə kiçik ailəni sıxışdırsın, güclü zəifi soysun, hiyləgər sadəlövhü aldatsın, nüfuzlu adam sadə adam qarşısında lovğalansın.

d) Ledizm cərəyanı

Bu cərəyanın da təlimləri mövcuddur. Onlar aşağıdakılardır:

1. Ledizm məktəblinin adı latınca "yox" sözündən götürülmüşdür. Məktəb çincə "qanun məktəbi" və ya "qanunla" adlanır.

2. Bütün qəbahətli işlərin səbəbi insanpərvərlikdir, siyasət mənəviyyatla bir yerə sığa bilməz, inam əvəzinə məcburiyyət sistemi tətbiq edilməlidir.

3. Bütün insanların imkanları bərabərləşdirilməlidir.

4. Konfutsiyamızın mədəniyyəti təbliğ etməklə qanunları nüfuzdan salmaları tənqid olunur, əzəldən insan təbiətində pis niyyət olduğundan cəmiyyətdə cəza təsirlərinin vacibliyi əsaslandırılır. Dövlətin iqtisadiyyatın idarəçiliyi, əhali məşğulluğu, rütbə sistemi haqqında təlimatları hazırlanmalıdır.

İncəsənət və elmi biliklər

Mədəniyyətin mühüm sahələrindən biri olan incəsənət öz mahiyyətinə görə, əsasən aşağıdakı tərkib hissələrinə bölünür:

1. Ədəbiyyat. 2. Rəssamlıq. 3. Memarlıq. 4. Tətbiqi sənət. 5. Musiqi. 6. Teatr.

Bunlar da öz təyinatlarına və tarixiliyinə görə aşağıdakı bölmələrə ayrılır:

1. Bizim eradan əvvəl III – I minillikdə folklor ənənələrindən poeziyaya keçid başlamış, qədim gözəlliyi, imperatorun tərənnümü.

2. B.e.ə. III – I minilliklərdə nəqqaşlıq, rəssamlıq, heykəltəraşlıq, tətbiqi incəsənət. Bu sahədə tərəqqi baş vermişdir. Bu dövrün göstəriciləri arasında kağızın kətan, ipək üzərində yazı incə naxışla bəzədilmiş tunc güzgülərin hazırlanması, qızıl və gümüş rolunu oynayan göy nifrit daşının hazırlanması və s. qeyd oluna bilər.

3. Bədii saxsı qabların istehsalı təkmilləşdirilmiş, müxtəlif laklar, məmulatlar meydana çıxmış, inək o vaxt üçün ən yaxşı hesab edilən ixtirası olmuşdur.

4. Qədim Çində memarlıq da inkişaf etmişdir. E.ə. ilk əsrlərdə iki, üç və daha artıq mərtəbəli çox dözümlü olan evlər tikilmişdi.

6. Qədim Çində teatr sənəti də inkişaf etmişdir. Teatr tamaşaları növlərinə sirk tamaşaları, akrobatik oyunlar, musiqili drammatik proqramlı tamaşalar, kukla teatrları daxil idi.

Elmi biliklərə isə aşağıdakıları göstərmək olar:

1. Qədim Çində astronomiya və riyaziyyat sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Çin (intibah) dövründə ulduzların müşahidəsi nəticəsində ilk təqvimlər yaradılmışdı. İlin uzunluğu 365, 25 gün hesablanmışdı. Ulduzlu göyün xəritəsi tərtib olunmuşdu.

2. E.ə. I minillikdə Qədim Çində riyazi elmi əsər yazılmışdır. Zəruri riyazi biliklərin olması texniki biliklərin də inkişafına təkan vermişdi.

3. E.ə. I minillikdə tunc alətlər, hərbi texnika (qılınc, qundaxlı ox – yay və s.) mövcud idi. Dəbdəbəli saraylar, məqbərələr tikilmiş, hidrotexniki tikintilər meydana gəlmişdi. Də-

mir əmək alətləri yaradılmışdır ki, bu da əkinçiliyin təkmilləşdirilməsinə səbəb olmuşdu. Sikkə pul kəsilmişdi.

Qədim Hindistan mədəniyyəti

Qədim hind mədəniyyətinin tarixi inkişaf mərhələləri. Bu mərhələlər aşağıdakı dövrləri əhatə edir:

1. İnduist dövrü. E.ə. II əsrin başlanğıcı: e.ə. I əsr.
2. Veda dövrü II əsrin başlanğıcı: E.ə. I əsr.
3. Doari dövrü – VI əsr – E.ə. II əsr.
4. Caynizm və buddizm dövrü: E.ə. VI – I əsr.
5. Brahman dövrü: E.ə. XI – VI əsr.

Hindistan bənzərsiz, nadir, fenomenal xarakterli, mahiyyətli mədəniyyətə malik ölkədir. Hind mədəniyyətinin bilavasitə özünəməxsus orijinallığı, ilk növbədə, onun dünyanın digər ölkələrindən təcrid olunması və təbii coğrafi şəraitilə əlaqədardır.

Hind sivilizasiyası, adətən Xararr mədəniyyəti adlandırılır. E.ə. III əzrin axırları II əsrin əvvələrində Hindistanın müasir Xararr (Pəncab) rayonu əraziləri sərhədlərində bənzərsiz mədəniyyət formalaşmışdır.

Şərq ölkələrinin çoxunda olduğu kimi, hind mədəniyyətinin inkişafında da əkinçilik mədəniyyəti ilk və mühüm yer tutmuşdu. Bu mədəniyyət məhsuldarlıq mədəniyyəti adını daşıyırdı. Hələ qədimdən Hindistan düyü, şəkər qamışı, pambıq kimi kənd təsərrüfatı birkilərinin becərilməsi ilə məşhur olmuşdu.

İnduizm dövrü mədəniyyəti

Bu dövr iki yerə bölünür.

1. İnduizm dövrü mədəniyyəti buddizm mədəniyyəti ilə bir vaxtda, eyni dövrdə yaranmışdı. İnduizm mədəniyyətinə

Allahların ciddi iyerarxiyası xasdır. Onun mətnlərini veda mətnləri təşkil edir.

2. İudaizmdə bir sıra cərəyanlar vardır. Bu cərəyanlar insanı müdafiə etmək, ona kömək göstərməyin vacibliyi əsaslandırılır.

İnduizm – adət və ənənələri, etiqadı, əxlaq və davranış normalarını, müxtəlif xalqların ən qədim dövrlərindən formalaşmış ictimai – sosial təsisatlarını özündə birləşdirir.

Caynizm – Hindistanda qədim milli din

Caynizm mədəniyyəti aşağıdakı mərhələlərə bölünür:

1. Caynizm mədəniyyəti də buddizm mədəniyyəti ilə eyni dövrdə yaranmışdı. Çaynizm qədim hind cəmiyyətinin mütərəqqi təbəqələrinin mövqeyini ifadə edirdi.

2. Çaynizm etik mədəniyyətinin əsasını insanın ehtiraslardan, əzablardan azad olması, bunun üçün vasitə və yollar axtarılması, düzgün əxlaq və hərəkət-davranış tərzi təşkil edir.

3. Çaynizmdə 5 həqiqət təbliğ olunur: adam öldürmə; yalan danışma; oğurluqetmə; dünyəvi şeylərə bağlanma; bakirəliyini saxla (rahiblər üçün).

4. Çaynizmdə biliyə geniş mənada böyük əhəmiyyət verilir. Belə hesab olunur ki, bilik, mənbə müəllimin öyrətməsi ilə bitmir, bu həm də düzgün əxlaq, davranış və hərəkət tərzidi.

5. Çaynizmdə Braxmanizmə məxsus bir sıra ünsürləri: ruhların şəkildən şəklə düşməsinə etiqadı, korma haqqında Peyğəmbərlərin vaxtaşırı zühur etmələri haqqında təlim saxlanılmışdı.

Buddizm
Buddizm – həm mədəniyyətdir, həm də dindir

Buddizm aşağıdakı spesfik məziyyətlərə malikdir.

1. Budda buddizmdə mütləq kamilliyə çatmış və başqalarına dini xilas yolu göstərməyə qadir şəxsdi.

2. Buddizm ehkamlarında insanların gündəlik həyati ehtiyacları və tələbatlarına cavab verilməsi, onlara əzablardan qurtarmağın yollarının göstərilməsi əsas cəhətdi.

3. Buddizmdə insanların anadangəlmə bərabərliyi ideyası əsaslandırılır, yaranması və ölümü haqqında, insanların arzularına çata bilməməsi yolları haqqında məlumatlar verilir.

4. Buddizmdə 4 müqəddəs həqiqətə əməl olunması tövsiyə olunur, "yaşamaq əzab çəkməkdir", "əzabların səbəbləri arzulardır", "əzablardan qurtarmaq üçün arzulardan çəkinmək lazımdır". Arzulardan xilas olmağın çarəsi Buddanın təliminə riayət etməkdir. Bütün bunlara "doğru bilik" və "düzgün davranış" nəticəsində nail olmaq mümkündü.

5. İztirablardan azad olmaq insanın özündən asılıdır. Bunun üçün hər bir adamda həqiqi inam olmalıdı. O, doğru qərar qəbul etməli, doğru danışmalı, doğru – düz, həqiqi iş görməlidi.

Brahman dövrü

Bu dövr əsasən iki mərhələyə bölünür. Bunlar aşağıdakılardı:

1. Brahmanın mövcudatı, mənəvi başlanğıcı və əsası, onun gedişini və sonunu müəyyən edən, Allahın hər yerdə olan ruhunun daşıyıcısı kimi təsvir olunur. Hesab olunur ki, Brahman mütləqdir, hər şey onun özündədi, ondan başqa, savayı heç bir şey yoxdu.

2. Brahman dini-mifoloji irsində mənəviyyat məsələləri, xüsusi davranış qaydalarına əməl olunması, vətəndaşlıq, dini və hüquqi vəzifələr, hakimiyyətin ilahiləşdirilməsi, insanların sağlığındakı əməli işlərinin rolu məsələləri əsas yer tutur.

Veda dövrü

Bu dövr aşağıdakı məziyyətlərə malikdi. Vedalar (hərfi mənası bilmək) yazılı şəkildə tərtib olunmuş dörd külliyyatdan ibarətdi. Dini etiqad və ayinlərin toplusu olan bu küliyyatda dünya haqqında, insan və əxlaq haqqında, insan və əxlaq haqqında dünya baxışları əks olunmuşdu, bir sıra dini – fəlsəfi fikirlər zənginləşdirilmişdi. Vedalarda təbiət, ictimai – sosial qüvvələr təcəssüm edilir, ictimai bərabərsizliyə haqq qazandırılır və həqiqi idrak vasitəsi ilə iztirablardan fərdi surətdə xilas olmağın yolu göstərilir.

Qədim Hindistanda elmi biliklər, incəsənət və ədəbiyyat

Elmi biliklər, incəsənət və ədəbiyyat barədə bilgilər dörddür.

1. Elmi biliklərin təşəkkülü və inkişafı sahəsindəki nailiyyətlər hind mədəniyyətinin mühüm göstəricilərindəndi. Qədim hindlilər astronomik müşahidələrin aparılmasında, riyazi biliklərin inkişafında mühüm nailiyyətlər əldə etmişlər.

2. Hind riyaziyyatçıları cəbrin əsaslarını kəşf etmişlər, onluq hesablama sistemi də onlara aiddir. Riyaziyyatçılara təkcə müsbət deyil, həm də mənfi ədədlərin, qeyri-müəyyən tənliklərin, kəşflərin bəzi nümunələri məlum idi. Onlar çevrənin, onun diametrinin nisbətini dəqiqliklə hesablamışlar. Bu hesablamalarda “sıfır”, “sonsuzluqla” anlayışlarından istifadə olunmuşdu. Qədim hind alimləri həmçinin maddənin “atom” quruluşunu kəşf etmişlər.

3. Riyazi və həndəsi biliklər inşaat-tikintinin inkişafına səbəb olmuşdu. Hindlilər iki-üçmərtəbəli kərpic binalar, böyük hovuzlar və anbarlar tikə bilirdilər. Tuncdan məmulatlar hazırlanması, 1000-dən artıq yazılı möhürlərin tapılması, elmi biliklərin inkişafından xəbər verir.

4. Qədim Hindistan sənətkarları metal emalını bacarırdılar, misdən heykəllər, silah düzəldirdilər, müxtəlif rəngli parçalar toxuyurdular, daşlara, o cümlədən bahalı daşlar üzərinə oyma naxışlar vururdular. Qədim hindlilər çay, dəniz gəmiləri düzəldə bilirdilər.

Qədim Hindistanda incəsənət və ədəbiyyat

Qədim Hindistanda incəsənət və ədəbiyyatın aşağıdakı növləri olmuşdu:

1. Qədim Hindistan incəsənəti özünün mənəviliyi, duyulma qabiliyyəti, xüsusiyyətləri və simvolikliyi ilə səciyyələnir. Hind incəsənətində onun tarixi, təşəkkül tapdığı inkişaf mərhələləri təzahür olunmuşdu.

2. Qədim Hindistanda mifoloji ədəbi-fəlsəfi biliklər də yaranmışdı. Hələ e.ə. I minillikdə ədəbi-fəlsəfi təlimlər meydana gəlmişdi. Ədəbi-etik əsərlərdə Hindistan ərazisində yaranmış qədim dövlətlərin apardıqları müharibələr, oradakı qəhrəmanlar, müdriklər tərəfindən edilirdi.

3. Qədim Şərq mütəfəkkirləri Şərq tarixində birinci olaraq öz formasına görə müxtəlif, məzmununa görə dərin, müqayisədə nisbətən bitkin dini istiqamətli fəlsəfi baxışlar sistemi yaratmışlar.

4. Onlar fəlsəfənin əsas kateqoriyalarını hazırlamaqda çox iş görmüşlər. Mədəniyyət tarixində ilk dəfə olaraq Qədim Hindistanda dünyaya həm idealist, həm materialist baxışlar təsəvvür olunur.

Qərb mədəniyyəti

Qərb mədəniyyəti Egey dənizinin hövzəsində dağılmış Krit – Miken mədəniyyəti əsasında yaranan, klassik ellin, ellin – Roma, roman – alman, orta əsrlərin xristian və Yeni Avropa mədəniyyəti daxil edən mədəni – tarixi ənənədir.

“Qərb mədəniyyəti” termini özünü Qərbi Avropadan Cənuba və Şərqə doğru yerləşən Şərqə - köhnə qitənin sivilizasiyalarına (latınca Oriens – ellinləşdirilmiş Şərq) qarşı qoyan Qərbi Avropa mədəni ümumiliyindən (latınca Occidens – latınlaşdırılmış Qərb) yarandı.

Qərb mədəniyyəti ilə yanaşı, “xristian dünyası” və “Avropa mədəniyyəti” terminləri də işlədilir. Ayrı-ayrı dövlət və xalqlar kompleksi kimi inkişaf edən Qərb mədəniyyəti etnik vəhdəti nəzərdə tutmur. Ekspansiv niyyətlər (səlib yürüşləri, böyük coğrafi kəşflər zamanı yeni torpaqların zəbt edilməsi, amansız müstəmləkə müharibələri) onun coğrafi sərhədlərinin çevikliyinə səbəb olurdu.

Müasir kulturoloji fikirdə ənənəvi avropasentrizm konsepsiyası ilə yanaşı Qərb mədəniyyəti çoxsaylı lokal mədəni ümumiliklərdən biri (O.Şpenqler, N.Y.Danilevski), ümumi insan normalarından sapma – sivilizasiyalar (R.Qenon, Y.Romeyn), “bədbəxt hadisə” nəticəsində ilk dəfə yaranan, fikir, söz və hərəkətlərdə sərbəst olan bütöv insan – dövlət kimi (M.K.Petrov) şərh olunur.

Semiotik planda Qərb mədəniyyətinin yaranmasına sosio – kod adlı strukturların universal anlayış və kateqoriyalarla əvəz edilməsi səbəb oldu. Bunun nəticəsi əlaqədar universalilərlə elmi-tədqiqat işləri aparan, mühüm düşüncə tərzi sayılan fəlsəfənin, anlayış-kateqoriyalar universalizmin və elmin ixtirası oldu.

Sosial planda Qərb sivilizasiyası kapitalist istehsal – iqtisadi münasibətlərinin və burjua-demokratik idarə üsullarının formalaşması və inkişaf dövrü ilə, vətəndaş cəmiyyətinin və hüququnun hökmranlığının bərqərar olması ilə, texnoloji planda isə - sənaye və postsənaye səmiyyəti ilə eyniləşdirilir.

Filosof və sosioloqlar mədəniyyətin dünyagörüşü, sosial və texnoloji aspektlərini vahid tam kimi nəzərdən keçirirlər. Belə ki, alman filosofu və sosioloqu M.Veber özünün məşhur “Protestantizm etikası və kapitalizmin ruhu” adlı əsərində

protestantizm reformasiyasının və kalvinizm dini təliminin kapitalizm rassionalsit ruhunun və digər dəyərlərinin təşəkkülündə rolunu göstərmişdi. M.Veberin fikirlərinə görə, rassionallaşdırma son bir neçə yüzillikdə Avropanın inkişafını şərtləndirən bir sıra tarixi amillərin birləşməsinin nəticəsi olmuşdu. Alim bu amillərin kəsişməsini qabaqcadan bəlli olan bir hadisə kimi nəzərdən keçirmir. Tale belə gətirmişdir ki, müəyyən zamanda dünyanın bəlli regionunda özündə antik elm, xüsusən də İntibah dövründə eksperimentlə tamamlanan və Qaliley dövründə eksperimental elm xarakterini alan riyaziyyat, rasional Roma hüququ, təsərrüfatın rasional aparılması üsulu kimi bir neçə fenomenlə rastlaşmışdır. Bu elementləri sintezləşdirən amil isə protestantizm olmuşdur.

Uzun müddət Qərb cəmiyyətində xristian dəyərləri ilə insanların həyat fəaliyyətinin ən müxtəlif formaları arasında kifayət qədər yetkin bir harmoniya mövcud olmuşdu. Lakin XIII əsrin axırlarından etibarən baş verən bir sıra hadisələr xristianlıqdan qaynaqlanan mənəvi enerjinin əhəmiyyətli dərəcədə zəifləməsinə səbəb oldu. “Səlib yürüşləri” avropalıların zəngin islam mədəniyyəti ilə təmaslarını daha da artırdı. Bu təmaslar Avropada Qərb mədəniyyətinə və onun dünyagörüşünün əsası olan xristoanlığa qarşı tənqidi münasibətlərin formalaşmasında az rol oynamadı.

Sənaye sivilizasiyasının inkişafı nəticəsində Qərb ölkələri insanın təbiətinə layiq şəraiti yaratmaqda çox irəli getmiş, bu ölkələrin xalqları qarşısında duran sosial problemlərin xüsusi çəkisi aşağı düşmüşdü. Eyni zamanda istehsal üsulunun komponentləri arasındakı münasibətlərin kəskinləşməsi bəşəriyyət qarşısında duran ümumi problemlərin balansında qlobal problemlərin də xüsusi çəkisini artırmışdı.

Qeyd edildiyi kimi, Qərb mədəniyyətinin ilkin şərtləri hələ antik dövrdə və orta əsrlərdə qoyulmuşdu. Bunlar antik polisin demokratiya təcrübəsi, onun mədəniyyəti çərçivəsində müxtəlif fəlsəfi sistemlərin və nəzəri elmin ilk nümunələrinin

formalaşması, daha sonra da Avropa orta əsrləri dövründə insan fərdiyyəti, əxlaqı, insanın "Allaha bənzər şəkildə yaradılması" və buna görə də onun varlığın mənasını rasional anlamağa qabil olması haqqında təsəvvürləri inkişaf etdirmiş xristian ənənəsidir.

İntibah dövründə bu iki ənənənin sintezi texnogen sivilizasiya dəyərlərinin mənbələrindən biri oldu. Avropa İntibahı Qərb mədəniyyətinin mənəvi enerji mərkəzi olan xristianlığın mütləq başlanğıcını (xristian Allahını) əlçatmazlıq zirvəsindən endirərək, faktiki olaraq onu sıravi bir dünyəvi hadisəyə çevirdi.

Yeni dövrdə Qərbi Avropada insan və təbiət haqqında müasir elmi biliklərin əsasları formalaşmışdır ki, bu da F.Bekon, R.Dekart, İ.Nyutonun adı ilə bağlı olmuşdu. Maarifçilik dövründə texnoqen sivilizasiyanın sonrakı inkişafını müəyyən etmiş dünyagörüşünün formalaşması başa çatdı. Bu dünyagörüşü sistemində elm və texnikanın tərəqqisinin xüsusi dəyər olduğu, həmçinin sosial münasibətlərin rasional təşkilinin prinsipial mümkünlüyü haqqında təsəvvürlər formalaşdı. Fransız maarifçiləri və onların ingilis, alman həmfikirləri belə hesab edirdilər ki, vətəndaş cəmiyyətində ədalət, azadlıq, bərabərlik, qardaşlıq prinsipləri nəinki ayrı-ayrı fərdlərin, eləcə də ölkələr, xalqlar, dövlətlərin də qarşılıqlı münasibətlərini tənzimləyən prinsiplərə çevriləcəkdi. Maarifçilərin bu ideyaları avropalıların kütləvi şüurunda dərin kök salmışdı. Birinci Dünya müharibəsinə qədər bir çox siyasi partiya və ictimai təşkilatlar öz fəaliyyətində bu ideyaları rəhbər tuturdu.

Qərb mədəniyyətinin əsas xüsusiyyətləri arasında dərrakənin, rasional olanın prioritetliyi, stiyentizm, dünyanın fəal şəkildə texniki-texnoloji baxımdan dəyişdirilməsi, dinamizm, innovativlik, insanın əsrlərlə müəyyən edilmiş sərhədlərin (sosial, siyasi, bilik) hüdudlarından kənara çıxmağa cəhd göstərməsi, individualizm, azadlıq, bərabərlik idealları, şəxsi mülkiyyətə hörməti göstərmək olar. Qərb mədəniyyəti öz ma-

hiyyətinə uyğun olaraq daha çox praktik, proqmatik dəyərlərə üstünlük verir.

Qərb mədəniyyətində zəkanın, məntiqi təfəkkürün üstünlük təşkil etməsi bütün sahələrdə (elmdə, fəlsəfədə, incəsənətdə) özünü büruzə verirdi. Məsələn, XVII əsrdə Avropa incəsənətində meydana gələn klassisizmin əsasını Dekartın rasionalizmi təşkil edirdi. Klassisizmdə sistemlilik, nizamlılıq, mütənasiblik hökm sürür. Mədəniyyətin müxtəlif formaları (elm, fəlsəfə, din) təcrid olunmuş vəziyyətdə mövcud idi. Burada güclü materialist, rasionalist ənənə formalaşmışdı. Materialist və insanı əsas götürən bu ideologiya insanlara həyatın bu dünyadan ibarət olduğunu, insanın özündən başqa heç kimə qarşı məsul olmadığını, hətta həyatın və bütün kainatın təsadüfən meydana gəldiyini təlqin edirdi. Fəlsəfə, sosiologiya, iqtisadiyyat, psixologiya kimi müxtəlif elmi sahələrdə materialist və atesit inanca sahib olan nəzəriyyəçilər ortaya çıxırdı. Tədqiqatçılar fiziki hadisələr aləminə üstünlük verirdi. Elm ilk növbədə texniki tərəqqi, istehsalın inkişaf etdirilməsi vasitəsi kimi nəzərdən keçirilirdi. XVI əsrdə yaşamış italyan siyasətçisi Nikkolo Makiavellinin (1469 – 1527) "Məqsədə çatmaq üçün istənilən addım məqbuldur!" ideyası sürətlə bütün Qərb aləminin iliyinə, sümüyünə yeriməyə, bu mədəniyyətin xarakterini müəyyənləşdirməyə başladı. Utilitarlıq (öz mənafeyini güdmə), bazar münasibətləri həlledici amillər kimi ortaya çıxdı. XVII əsrdən başlayaraq Qərbdə (C.Lokk, A.Simit, Ş.Monteskye və s. alimlərin təlimləri ilə) liberalizm ideyaları geniş yayılmağa başladı.

Şərqə münasibətdə Avropa şüurunda uzun illər avropasentrizm ideyası hökm sürürdü. Avropasentrizm ideyasına görə, Avropa, ona məxsus olan mənəvi həyat tərzi dünya mədəniyyəti və sivilizasiyasının mərkəzi, yerdə qalan bütün dünya üçün etalondur. Bu etalona, Avropa insanının həyat tərzi və təfəkkürünə uyğun gəlməyən hər bir şey vəhşilik hesab olunurdu. Tərəqqi Avropa sivilizasiyasının dünyanın digər regionlarına

nüfuz etməsi kimi başa düşülürdü. Səlib yürüşləri, coğrafi kəşflər, yeni torpaqların zəbt edilməsi, müstəmləkə müharibələri – bütün bunlar avropasentrizmin təzahürlərindəndi.

XX əsrdə Qərb sivilizasiyası bir çox problemlərlə (dünya müharibələri, ekoloji böhran) üzləşdi. Bu gün avropasentrizm yerdə qalan bütün dünya üçün artıq şəksiz dəyər hesab edilmir. Bu gün mədəniyyətə yeni baxış formalaşmaqdadır. Həmin baxışa görə, mədəniyyətlərin hər biri özünəməxsus olmaqla, bərabərhüquqludur ki, bu da kultursentrizmi (avropasentrizmi və ya şərqsentirizmi) istisna edir.

Müasir Qərb mədəniyyəti sahibkarlığa, biznesə, işgüzarlığa əsaslanan mədəniyyətdi. Onun simasını iqtisadiyyat formalaşdırır ki, o da öz növbəsində texnologiya mədəniyyətinin inkişafı ilə şərtlənir. Sonuncu müasir Qərbin mədəni inkişafında ön plana çıxır. Sosial və mənəvi mədəniyyətlər ondan asılı vəziyyətə düşür. Burada baş verən proseslər iqtisadiyyat və texnologiyanın tələblərinə cavab reaksiyasına çevrilir. Qərb mədəniyyətinin praqmatik ruhu insanları həyatın maddi və mənəvi nemətləri uğrunda mübarizəyə köklendirir. Maddi rifaha, rahatlığa və s. canatma Qərb insanını səciyyələndirən əsas cəhətə çevrilir. Müasir Qərb cəmiyyətində istehlak kultu yayılır. Buna görə də indiki Qərb dünyası istehlak cəmiyyəti adlandırılır. İnsanlar öz rifahını o qədər yüksək qiymətləndirməyə başlamışlar ki, ona hər şeyi, hətta azadlığı da qurban verməyə hazırdırlar. Bununla da mədəniyyətdə müəyyən mənada gedonizm fəlsəfəsi üstünlük təşkil etməyə başlayır. Qərb inkişaf etməkdə olan ölkələrin resurslarına maraq göstərirsə, bu ölkələr Qərbin gedonizm inkişaf mərhələsinə maraq göstərir. Qərbin bütün böyük nailiyyətlərinə biganə qalsalar da, kütləvi mədəniyyəti qavramağa qadirdirlər.

Qərb ədəbiyyatı istehlakçılıq ideallarından imtina etmək çağırışları ilə doludu. Xristian kilsəsi, pedaqoqlar, psixoloqlar, sosioloqlar altruizmi təbliğ edir, həyata istehlakçı münasibətin günah olduğunu vurğulayırlar. Qərb mədəniyyətinin əmək as-

kezası ilə asudə və istehlak gedonizmi arasında balans yaratmaqdan ibarət olan zərif daxili oyunu uzaqdan hiss edilmir. Yad mədəniyyət başqalarına öz aksezasını çatdıra bilmir, amma onun istehlak, komfort, asudə və əyləncə sənayesinin yeksək səviyyəsi kimi görünən bəhrələri gözə tez çarpır. Markuze də çox gözəl yazmışdı ki, insanlar istehlak cəmiyyətinin onlara nəyin bahasına əmələ gəldiyini yaxşı anlasalar da, komfortdan imtina etmək iqtidarında deyildirlər.

Müasir Qərb mədəniyyəti misilsiz dərəcədə dinamikdir. Burada həyat şəraiti, texnika, dəb sürətlə dəyişir. Yenilik uğrunda mübarizə gedir. A.Tofflerin qeyd etdiyi kimi, müasir Qərb dünyası "birdəfəlik" mədəniyyət dünyasıdı. Dinamizm mədəniyyətin bütün sferalarını əhatə edir. Bu, incəsənət sahəsində xüsusilə gözə çarpır. XX əsrdə onun əsas cərəyanlarından birinə çevrilən modernizm üçün sürətlə dəbə minən və elə həmin sürətlə də dəbdən düşən ideya, cərəyan və məktəblərin bir-birini əvəz etməsi səciyyəvidir. Modernizm Qərb mədəniyyəti və bu mədəniyyətə aid dəyərlərə sinonim olaraq qəbul edilir. Modernizm Avropada, yəni Qərb dünyasında formalaşan, əsasını Maarifçilik dövründən götürən ideologiya və hərəkatların meydana gətirdiyi sistemdir. Bu sistem "modern", "müasir" adlandırılması isə bu sistemlə birlikdə Avropanın öz ənənələrinə və keçmişinə aid hər şeyi bir kənara qoyaraq yeni dünya görüşünü mənimsəməsidir. Modernizmi tənqid edən, "modernizmdən sonrakı dövr" olaraq adlandırılan postmodernizm isə modernizm tərəfindən əsası qoyulan dəyər, meyar və hədəflərin mənasızlığını dərk edən, ancaq bu doğru diaqnozdan yola çıxaraq heç bir mütləq dəyər, meyar və hədəfin olmadığını iddia edən bir düşüncədir.

Dinamizm insanların psixologiyasına da nüfuz edir. İnsanların arasında əlaqələr ötəri xarakter alır.

Müasir Qərb mədəniyyəti daxilən münaqişəlidir. Qərb mədəniyyətinin bu cəhəti önda özünü büruzə verir ki, onun yuxarıda göstərilən bütün xüsusiyyətləri tənqid atəşinə tutulur

və onlara qarşı alternativlər irəli sürülür. Etiraz hərəkatları mədəniyyətdə hökmranlıq iddiasında olan istənilən tendensiyaya bir "əlavə"dir. "Yaşılla" hərəkatı texniki tərəqqinin dağıdıcı təsirindən təbiəti xilas etməyə çalışır. Liberalizmin, demokratiyanin, humanizmin antipodlari olan cinayətkarliq və terrorun baş almasi da müəyyən mənada deyilənlərin nəticəsidir.

D.De Rujmon Qərb mədəniyyəti üçün səciyyəvi olan iki əsas ideyanı vurğulayır. Bu, şəxsiyyət və maşındır. Bu, çox əhəmiyyətli məsələlərdəndir, çünki şəxsiyyət və maşın qarşı – qarşıya duran hadisələrdi. Buna görə də Qərb nəhəng psixoloji gərginlik keçirir. Şəxsiyyət fərdiliyi, şəxsi məsuliyyəti nəzərdə tutursa, maşın intellektin, abstraksiyanın, ümumiləşdirmənin, totallaşmanın, qrup həyatının məhsuludu.

XX əsr boyunca filosoflar, yazıçılar, rəssamlar Qərb mədəniyyətinin dağılmasından yazıb onun məhvə doğru getdiyini qeyd edirdilər. Dediklərimizlə bağlı F.Nitsşenin K.Yaspersin ifadəsində verdiyi proqnoz maraqlıdır: "Müasir dünyanın qorxunc mənzərəsini ilk olaraq Nitsşe göstərmişdi. Mədəniyyətdə savad boş biliklə əvəz olunur, darıxmaq narkotik və iti hisslərlə söndürülür, . . . hamı danışır, amma heç kim eşitmir . . . maşın və əməyin mexanikləşdirilməsini, yaranmaqda olan kütlə fenomeninin mənasını məhz Nitsşe belə göstərmişdi". Bununla belə, bütün qüsurlarına baxmayaraq, Qərb mədəniyyətinin prinsip və iddialları dünyada yayılmaqdadı və bu hazırkı qloballaşma proseslərində mühüm rol oynayır. Avropasentrizmin "Nəzəri təfəkkür və praktiki fəaliyyətin imperativi" statusunu dirçəldən qloballaşma, ideoloji baxımdan Qərb sivilizasiyasının dünyada liderlik etmək, mədəni ekspansiyanı həyata keçirmək, başqa xalqların "mədəni kodlarını" zorla dəyişdirmək və s. kimi iddialarının "hüquqiliyini" əsaslandırır. Bu baxımdan neoliberalizm və korporativ kapitalizmin tənqidi, antiamerikanizm və mövcud dünya nizamına qarşı çıxmaq prinsipinə əsaslanan antiqlobalizm ideologiyası

əhalinin əhəmiyyətli bir hissəsi, xüsusən də gənclər üçün çox cəlb edirdi.

Qeyd edək ki, bəzi tədqiqatçılar qloballaşmanı geniş vesternləşmə, Qərb kapitalizmi və Qərb institutlarının yayılması kimi başa düşür. Məsələn, N.Qleyzer yazır: "Qloballaşma ümumdünya miqyasında Qərbin tənzimlədiyi informasiya və əyləncə vasitələrinin yayılması deməkdi. Daxil olduğu bütün yerlərin dəyərlərinə bu vasitələr müvafiq təsir göstərir".

Eyni zamanda bütün dünyanın qərbləşdirilməsi və amerikanlaşdırımasının zəifləməsi barədə danışmaq üçün də çoxlu faktiki materiallar vardı. Bir sıra Asiya ölkələrində, xüsusən Şərqi Asiyada (Malayziya, İndoneziya, Sinqapur, Çin, Yaponiya, Hindistan və s.) vahid inkişaf modelinin qəbulu haqqında təsəvvürlər şübhə altına alındı. Samuel Hantinqton yazır: "Qərb ideologiyasının hakim mövqe tutduğu proqressiv eranın sonunun şahidləri oluruq və çoxsaylı, müxtəlif sivilizasiyaların qarşılıqlı təsirdə olacaqları, rəqabət aparacaqları, yanaşı mövcud olduqları və bir-birinə uyğunlaşacağı eraya daxil oluruq. Bu qlobal indigenizasiya prosesi Yer kürəsinin bir çox regionlarında dinin dirçəlməsində geniş təzahür edərək, özünün ən qabarıq ifadəsini Asiya və islam dövlətlərinin iqtisadi və demoqrafik dinamizmi ilə şərtlənən mədəni dirçəlişlərində tapır".[5]

Ərəb – müsəlman (İslam) mədəniyyəti

İslam monoteist (təkallahlılıq), universal dünya dinlərindən biridir. Bu din özündən əvvəl yaranan buddizmdən, iudaizmdən, xristianlıqdan, onların nə kimi müsbət məziyyətlərindən bəhrələnərək inkişaf edib, formalaşmışdı. İslam adi deyil, fenpmenal dindi. İslam bütöv sivilizasiya və mədəniyyətdir. İslam həyat tərzidir. İslam təfəkkür tərzidir. İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir.

---

[5] Хантингтон С. Столкновение цивилизаций. М.:2006, с. 136

İslam iki əsas cərəyana bölünür: Sünnilik və Şiəlik.

İslamda xaricilər və sufilik kimi məziyyətlər də vardır.

İslama görə Allah ("İllah" – səcdəgah) pak mənəviyyatdır, vahiddir, şəriksizdir, əbədigah, bənzərsizdir, yaradıcıdır, muxtardır.

Məhəmməd Peyğəmbər (570 – 632) paklıq, təmizlik, kamillik, düzlük, əmanətə sadiqlik, Allahın buyruqlarını təbliğ etmək kimi sifətlərə, xüsusiyyətlərə, məziyyətlərə malikdi.

İslamda iyerarxiya sərvətləri zəngindir. Aşağıdakıları onlara misal göstərmək olar.

- Bilavasitə şüur varlığındakı mövcud ruh, əqidələr.
- Danışıqda ifadə olunan və yazının köməyi ilə sabitlik və universallıq təşkil edən əqidələr.
- Şifahi danışığın köməyilə ifadə olunan əqidələr.

İslam təyinatları:

1. Quran və sünnə islam dininin mənbələridir.
2. Quran təkcə müsəlmanların deyil, o, dinindən, dilindən, irqindən, cinsindən, milliyyətindən, habelə digər sosial mənsubiyyətlərindən asılı olmayaraq, bütövlükdə bəşər övladının müqəddəs stolüstü kitabıdır (tərif və kursiv kitabın müəllifi Əsədulla Qurbanov). Quran mütərəqqi bəşəriyyətin müqayisəsiz mənəvi abidəsidir.
3. Quran dini təlimatlar, mənəviyyat, qanunçuluq əsasları, ayinlər, dini adət - ənənələr, nəsihətlər toplusudur.
4. Sünnə Qurana mühüm əlavədir. Burada müsəlmanın mənəviyyat təlimi təfsilatı ilə şərh olunur.

İslam mədəniyyətində əxlaqi məziyyətlər

Bu məziyyətlər aşağıdakılardan ibarətdir:

I. İlahi əxlaq normaları İslam mədəniyyətində dini əxlaqi – mənəvi təlimatların mərkəzi nöqtəsidir.

II. Vahid Allaha sədaqət İslam əxlaqında, mənəviyyatında başlıca prinsipdir. Bu beş tələblərin yerinə yetirilməsində ifadə olunur. Bunlara İslamın vacib şərtləri, ehkamları deyilir.

Birincisi, hər bir təmiz müsəlman vahid Allaha şəksiz – şübhəsiz, qeydsiz – şərtsiz etiqad etməyə bilavasitə borcludur.

İkincisi, hər bir təmiz müsəlman sutka ərzində ən azı beş rükət namaz qılmağa bilavasitə borcludur.

Üçüncüsü, hər bir təmiz müsəlman ildə otuz gün, yəni bir ay oruc tutmağa bilavasitə borcludur.

Dördüncüsü, hər bir təmiz müsəlman yoxsullara, maddi ehtiyacı olanlara, möminlərə nəzir – niyaz, fitrə - zəkat, xüms verməyə bilavasitə borcludur.

Beşincisi, hər bir təmiz müsəlman ömründə heç olmasa bir dəfə imkanı daxilində müqəddəs Məkkəyə və Mədinəyə Həcc ziyarətinə getməyə bilavasitə borcludur.

III. Qurani – Kərimdə İslam əxlaqının ümumbəşəri mənəvi dəyərləri: - ədalətli, xeyirxah, səxavətli olmaq, yoxsullara yardım etmək, valideynlərə, yaşlılara hörmət və ehtiram bəsləmək, məğrur, təvazökar, dözümlü və cəsur olmaq və s. xüsusiyyətlər ifadə, ehtiva olunur. Burada oğurluq, tənbəllik, tüfeylilik, sərxoşluq, əyrilik, təkəbbürlülük, ər – arvad sədaqətsizliyi və s. pislənir.

İslam mədəniyyətinin əsas göstəriciləri

Həmin göstəricilər aşağıdakılardır:

1. Bədii ədəbiyyatın əsaslarını təşkil edən dini – mifoloji poeziyanın, rübai, qəzəl, qəsidə, poema və musiqinin inkişafı.

2. Bədii – tətbiqi sənət – xalçaçılıq, parça toxuculuğu və silah istehsalı.

3. Spesifik müsəlman ornamentinin, dekorativ sənətin geniş yayılması.

4. Memarlıq sənətinin (məscidlər, minarələr, mədrəsələr, bazarlar, muzeylər, saraylar) zirvəyə qalxması.

5. Məscidlərin dini və dünyəvi elmləri öyrədən mərkəzlərə çevrilməsi (Dəməşq, Əl – Əhzar və s.)

6. Kalliqrafiya – xəttatlıq, miniatür rəssamlığın inkişafı.

7. İslam dini – fəlsəfi fikrinin bütpərəstlik, atəşpərəstlik, xristianlıq zəminində, antik, qədim mənbələr əsasında inkişafı. Dini-fəlsəfi fikrin ən gözəl, yaxşı, önəmli nümunələrinin artıq X əsrdən ərəb dilində yayılmağa başlaması.

8. IX – X əsrlərdə İslamın təkmilləşərək teoloji-ilahiyyatın fəlsəfi sistem ilə qovuşması, müsəlman hüquq normalarının (şəriətin) işlənib hazırlanması.

İslam dini eramızın VII əsrində Ərəbistan yarımadasında meydana gəlməsi, mənəvi mədəniyyətlə paralel, yanaşı yaşamış, onun mühüm, ayrılmaz tərkib hissəsi kimi çıxış etmişdi. İslamın meydana gəlməsi pərakəndə ərəb tayfalarının birləşməsində başlıca rol oynamışdı. On üç il (əslində 23 il) Məhəmməd Peyğəmbərin (570 – 632) Məkkədə hazırladığı və ilahi tərbiyə verdiyi kiçik qrupla Yəsribə (Mədinəyə) köçərək, burada sahəsi kiçik bir kənddə bərabər və əhalisinin sayı 6 – 7 min olan İslam cəmiyyəti – dövləti yaratması tarixdə təəccüb doğuracaq bir möcüzə idi. Ucsuz-bucaqsız Ərəbistan yarmadasında islamdan əvvəlki (cahillər) cəmiyyətindən mahiyyət etibarilə tam fərqlənən və öz dövrü üçün yüksək mədəniyyət nümunəsi sayılan bir dövlət yaratmaqla və bu nümunəni bütün ərəb aləminə təqdim etməklə Məhəmməd (əleyhissəlam) İslamın mahiyyətinin bu məqsədini, İslam dəyərlərinin rolunu nümayiş etdirdi. Bu isə adamların təfəkkür tərzində, mənəviyyatında mühüm bir inqilabi çevrilişə səbəb oldu.

Dini xəlifəliklər dövrü İslamın sürətlə yaradılmış başlanğıc, pərvəriş, təşəkkül dövrü idi. Cəmi bir neçə il müddətində islam hərəkatına qoşulan ərazi Əfqanıstan və Türküstana, Qərbə isə Şimali Afrikaya qədər uzandı. İslamın təsir dairəsinin belə sürətlə artması heç də tarixdə yanlış qələmə verildiyi

kimi, əsasən qılınc gücünə ola bilməzdi. Bunun əsl səbəbini İslam mənəviyyatı təşkil edir. İslamın mənəvi çirkablardan azad olmaq, haqq-ədalət, təmizlik, düzgünlük, təmənnasızlıq, sülh, qardaşlıq, bərabərlik çağırışları, başqa xalqlara və ölkələrə yaxşı sağlam obyektiv münasibət tövsiyələri, Məhəmməd Peyğəmbərin şəxsi, nümunəvi əxlaqi və ictimai ədəb qaydalarını gözləmək nümunəsi, örnəyi və s. İslam mənəviyyatının insanların ürəklərini fəth etməsini, onun sürətlə yayılmasını şərtləndirirdi.

İslam tarixinin, İslam dövlətinin, İslam mədəniyyətinin əsasını qoyduğu ilk mərhələ, İslam mədəniyyətinin sürətlə və geniş ərazilərdə yayılmasında mühüm mərhələ olmuşdu. İslam hərəkatının sonrakı monarxiya, müstəmləkələşdirmə, İslam dövlətlərinin öz müstəqilliyini əldə etmədiyi mərhələlərində onun qarşısına ciddi maneələr çıxmışdırsa da, İslama olan güclü meylin və məhəbbətin qarşısını almaq mümkün olmamışdı. İslam öz mövqeyini möhkəm saxlamışdı.

Müasir dövrdə islamın təsir dairəsi daha da genişlənməkdədir. Hazırda dünyada demək olar, elə bir region, bölgə, ölkə, dövlət tapmaq olmaz ki, orada İslam dini yayılmamış olsun. Hazırda İslama etiqad edən insanların sayı 2 milyarda yaxındır. Başlıcası desək, bütövlükdə dünya üzərində olan 6 milyarddan artıq insanın 2,5 milyonu xristianlığa etiqad edir. Yerdə qalan miqdarda insan digər dinlərə etiqad edir. Deməli, dinə etiqad edən insanların xristianlardan sonra birinci İslama etiqad müsəlmanlar təşkil edir. Hazırda 28 ölkənin, dövlət adında "İslam" sözü vardır. Hazırda İslam dünya miqyasında çiçəklənmə dövrünü yaşayır. İndi, xüsusilə Şərq xalqlarının iqtisadi, siyasi, mədəni, mənəvi həyatında islamın rolu daha kəskin şəkildə yüksəlməkdədi. Bunu müstəqil Azərbaycanın timsalında görmək olar. İslam dünya dinidr. Bu dində ümumbəşəri mənəvi dəyərlər zəngindir.

Elə bir Avropa ölkəsi yoxdur ki, orada İslam təminatları olmasın. İslam Amerikaya da əl-ayaq açmışdı. Hazırda ABŞ-da

8 milyona yaxın müsəlman yaşayır. Son illərdə Rusiya Federasiyasında İslama meyillərin daha da güclənməsi müşahidə olunur.

İslamın müasir intibahı onun mahiyyəti ilə xarakterizə olunur. Quran İslam mədəniyyəti əqidəsidi. **Quran təkcə müsəlmanların deyil, o, dinindən, dilindən, irqindən, cinsindən, milliyyətindən, habelə digər sosial mənsubiyyətlərindən asılı olmayaraq, bütövlükdə bəşər övladının müqəddəs stolüstü kitabıdır.** İslamın əsasını təşkil edən Quran 114 surədən, 6336 ayədən ibarətdir. Quran müsəlman, ümumiyyətlə bəşər mədəniyyətinin kodeksidir. Sünnə Qurana mühüm əlavədir. Sünnə Məhəməd Peyğəmbərin hərəkətlərini, davranışını təsvir edən qısa rəvayətlərə - hədislərə və onun kəlamlarının məcmusundan ibarətdir. Quran və sünnədə yüksək insani keyfiyyətlər əks olunmuş, ehtiva edilmişdir. Bu mənəvi keyfiyyətlər sırasında: İslam (Allaha) ədalətli olmaq, düzgünlük, mərhəmətlilik və bağışlanma (günahlardan keçmək), səmimilik, mərdanəlik, dözümlülük, cəsarətlilik, qüdrətlilik, təvazökarlıq, uşaqların tərbiyəsi haqqında qayğıkeşlik, qonşulara hörmətlə yanaşmaq və s. daxildi. Quran və sünnədə mənəviyyata zidd olan riyakarlıq, kələkbazlıq, yalançılıq, sərxoşluq, xudpəsəndlik, naqislik, dedi-qodu, qeyri-səmimilik, iztirabçılıq, qəzəblilik və digər qeyri-insani sifətlər qətiyyətlə işlənir.

İslam mədəniyyətində bütün müsəlmanların qardaşlığı ideyası da mühüm yer tutur. İslama görə bütün müsəlmanlar harada yaşamasından asılı olmayaraq bir-biriləri ilə qardaşdırlar, dostdurlar. Odur ki, onların qarşısında sülh və yekdillik olmalıdı. İslamda millətindən, dərinin rəngindən, dilindən asılı olmayaraq bərabərliyə çağırış yalnız Allaha, onun rəqabət, böyük sevgi və qayğı, sədaqətli olmaqla əlaqələndirilir.

Digər dünya dinlərində olduğu kimi, İslam dinində də haqsızlığa, zorakılığa çağırış yoxdur. Əksinə, başqa adamların, millətlərin həyatına qəsd edilməsi ağır günah sayılır. İslam

insan yaşayan bütün planeti adamların müvəqqəti yaşayış yeri kimi nəzərdən keçirir, bununla da insanlar arasında süni sərhədləri dağıdır. İslam mənəviyyatında məcburiyyət, zorakılıq qəbul edilmir. Quranda "sülh" sözü 20 dəfədən çox işlədilir. Müharibələrdə mücahidlərin nəcib əxlaq nümayiş etdirməsi tövsiyə edilir, həm də onlar haqq işi yolunda əbədi ruhu, qəhrəmanlıq və dözümlülük ilə silahlandırılır.

İslamda mədəniyyətin ən vacib sahələrindən olan, çox məhsuldar qüvvə sayılan elmə, onun insan həyatındakı yeri və rolu məsələsinə xüsusi diqqət yetirilir, əhəmiyyət verilir. İslam dünyasına qarşı səlib yürüşünün artdığı bir vaxtda İslam sivilizasiyasının inkişafında elm sahəsindəki yüksək nailiyyətləri də qeyd etmək vacibdir. "İntibahımızın ilk müəllimləri müsəlmanlar olmuşlar". Bu sözlərin müəllifi məşhur Qərbi avropalı alim, professor Tak Risler olmuşdu. O, düz, həqiqəti deyir. Müsəlman alimləri bir çox ixtiraçıları və kəşfləri ilə avropalıları əsrlərlə qabaqlamışlar. Məşhur ensiklopedik, dünya şöhrətli alim İbn-Sina tibb aləminə bir çox töhfələr vermişdi. Onun "Əl Qasim" adlı əsəri nəinki islam dünyasında, həm də Avropada tibbə aid dərslik sayılmışdı. İbn-Sina tibb də daxil olmaqla 29 müxtəlif sahələrdən ixtiraları ilə avropalılara məlum olmuşdu.

Riyaziyyat sahəsində müsəlmanların qazandığı nailiyyətlər, hətta müasir Avropanı da heyran qoymuşdu. Fransa alimi, professor E.F.Fotye yazır: "Avropanın mədəni dairələri yalnız cəbri deyil, digər riyaziyyat elmlərinin də müsəlmanlardan almışlar. Həqiqətən də bugünkü Qərb riyaziyyatı İslam riyaziyyatından başqa bir şey deyildir". Sıfır (0), sinus anlayışları, triqonometriyada tangens, kotangens anlayışları, diferensial tənliklər, hesab, onluq kəsr və s. tapılması müsəlmanlara məxsusdu.

Müsəlman alimləri astronomiya, kimya, coğrafiya, botanika, zoologiya, tarix, memarlıq sahələrində də avropalılardan əvvəl bir sıra mühüm kəşflər edə bilmişlər. Bu sahədə

Azərbaycan mütəfəkkirləri – Nizami Gəncəvi (XXI əsr), M.F.Axundzadə (XIX əsr), Ələskər Müftizadə (XX – XXI əsr), Yusif Məmmədəliyev (XX əsr) din, o cümlədən, xüsusilə İslam dini onun əsasını təşkil edən müqəddəs Quran imkanları bütün başqa monoteist dinlərdən daha artıq idraka, ixtiralara, tədqiqatlara sövqləndirilmişdi.

Ərəb – müsəlman mədəniyyətində insan – təbiət münasibətləri sahəsinə də aid məsləhətlər vardı. İslam dini və müqəddəs Quran ümumbəşəri mənəvi dəyərlərlə zəngindi. Burada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin din, o cümlədən İslam dini, Quran və İslamşünaslıq barədə aşağıdakı kəlam xarakterli, mahiyyətli fikirlərini yada salmaq, xatırlamaq, zənnimizcə, yerinə düşərdi.

"İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir."[6]

***

"İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir."[7]

***

"Qurani – Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir.

Biz azərbaycanlılar – bu, sonradan gələcək bütün nəsillərə də tövsiyə olunur – heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq."[8]

***

---

[6] Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1999, səh. 77 - 78
[7] Yenə orada. səh. 93
[8] Yenə orda, səh. 93 - 94

“Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir.”[9]

***

“. . . Azərbaycanda islamşünaslıq sahəsində XX əsr demək olar tamam itirilibdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Azərbaycan Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi tədqiqat institutları . . . bu elm üçün xüsusi təşkilatlar, orqanlar, elmi mərkəzlər yaradılmalıdır... Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün şərait də yaradacağam. Buna arxayın olun.”[10]

Göründüyü kimi, ulu öndər Heydər Əliyevin din, o cümlədən İslam dini, onun əslini təşkil edən müqəddəs Quran, habelə dinin, İslamın, müqəddəs Quranın mənşəyini, mahiyyətini, fəlsəfəsini, sosiologiyasını, psixologiyasını və fenomenologiyasını elmilik, obyektivlik, məntiqilik və dünyəvilik baxımından öyrənən, şərh edən, izahlayan, dəyərləndirən, səciyyələndirən və qiymətləndirən dinşünaslıq, islamşünaslıq, eyni zamanda İslam mədəniyyətinin çox yüksək, məna, məzmun və mündərəcəyə malik olduğu xüsusi qeyd olunmuşdu.

“İslam dini ümumbəşəri mənəvi dəyərlərin mühüm tərkib hissələrindən olan, Şərqdə sivilizasiyanın inkişafının, insan təfəkkürü və onun təkamülünün bəlli bir mərhələsində, gerçək bir məkanda (VII əsrdə, Ərəbistan yarımadasında, Məhəmməd Peyğəmbər, 570 – 632) tərəfindən meydana gələn, planetar miqyaslı ictimai şüurun bilavasitə

---

[9] Yenə orda, səh. 81- 82

[10] Heydər Əliyev. Dinimiz xalqımızın milli – mənəvi sərvətidir. Bakı, 1999, səh. 47

özünəməxsus spesfik formalarından sayılan sosial, tarixi hadisə və fenomendir" (tərif və kursiv bizimdir; Ə.Q.)

****

"İslam dininin əsasını təşkil edən Quran təkcə müsəlmanların deyil, dinindən, dilindən, milliyyətindən, irqindən, cinsindən, habelə digər sosial mənsubiyyətlərindən asılı olmayaraq bütövlükdə bəşər övladının müqəddəs stolüstü kitabıdır" (tərif və kursiv bizimdir; Ə.Q).

Burada yeri gəlmişkən, qarşıya çox haqlı və təbii sual çıxır. İslam dini şüuru Azərbaycana nə kimi qiymətli töhfələr vermişdi? Həmin töhfələr əsasən aşağıdakılardan ibarətdir.

Birincisi, İslam dini və onun şüuru əsasən VIII əsrdən sonra xalqımızın qədim və zəngin mifoloji, bədii-estetik, əxlaqi – mənəvi, fəlsəfi, hüquqi, iqtisadi, habelə hərbi şüuru ilə bir kontekstdə təkamül yolu ilə formalaşaraq inkişaf etməyə başlamışdı.

İkinicisi, İslam şüuru qeyd olunan zamandan etibarən xalqımızın tarixi yaddaşının bərpa olunmasında aparıcı istiqamətlərdən birini təşkil edir.

Üçüncüsü, İslam şüuru qeyd olunan dövrdən sonra xalqımızın milli – mənəvi şüurunun təkrar istehsalında mühüm rola malikdir.

Dördüncüsü, İslam şüuru göstərilən zamandan bəri xalqımızın milli mentalitetinin zənginləşməsində aparıcı istiqamətlərdən birini təşkil edir.

Beşincisi, İslam şüuru ölkəmizdə, hətta sovet dönəmində xalqımızın zəngin milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və onların ümumbəşəri mənəvi dəyərlərə çevrilməsində müstəsna dərəcədə əhəmiyyət kəsb etmişdi.

Orta əsrlərin sonlarında mədəniyyət sahəsində əldə edilən nailiyyətlər

Qeyd olunan dövrün dəyərlər sistemi

Bu sistemin mühüm tərkib hissələri aşağıdakılardan ibarətdir:

1. Katolisizm
2. Universitetlər
3. Bədii dəyərlər
4. Kübar mənəvi-estetik ideal

Bədii dəyərlər özləri aşağıdakı bölmələrə ayrılır.

1. Epos
2. Roman üslubu
3. Arxitektura stili
4. Xalq poeziyası
5. Karnaval
6. Kurtuaz (Lütfkar roman). Universitetlərdə profillərinə görə aşağıdakı bölmələrə, növlərə, tiplərə ayrılmışdır:

1. Cəngavərlik
2. Fədakarlıq
3. Sevgi

Orta əsrlər dövründə təhsil və elmin təkamüldə olması dürüst təzahür etməsinə baxmayaraq, cəmiyyətin təsərrüfat quruculuğu sahəsində toplanmış biliklərə müvafiq olaraq, təcrübi, tətbiqi elmlərin, yeni ideologiyanın, elmi idrakın gələcək inkişafı üçün zəmin hazırlaya bildi.

Maarifçilik mədəniyyətində dünyagörüşü konsepsiyalarının tipləri

Dünyagörüşü formalarının istiqamətləri

Bu istiqamətlər əsasən aşağıdakılardır:

1. Kübar maarifçilik mədəniyyəti, dünyagörüşü (Fransız, mütəfəkkir, marifçi Volter).

2. Demokratik maarifçilik mədəniyyəti (dünyagörüşü). Yenə fransız maarifçiliyi, dünyagörüşü, mədəniyyəti (Deni Didro).

3. Xalq maarifçiliyi – mədəniyyəti (Jan Jak Russo).

Qeyd olunan dövrün ümumi əlamətləri. Bunlar aşağıdakılardan ibarətdir:

1. Tarixi nikbinlik
2. İdraka inam
3. Başqalarına qarşı dözümlülük (tolerantlıq)
4. Xəyalilik
5. Ensiklopedizm (elmin müxtəlif sahələrində məlumat almaq, hərtərəfli təhsil, məlumat)
6. Elmi skeptisizm (hər şeyə şübhə ilə yanaşma)

Maarifçilik mədəniyyəti ideologiyasının mahiyyətini təşkil edən əsas çağırışlar

1. Azadlıq
2. Dostluq
3. Qardaşlıq
4. Sosial-ictimai etiraz.

XIX əsr Qərb fəlsəfəsi və incəsənətində əsas istiqamətlər

Fəlsəfə. Fəlsəfənin əsas istiqamətləri bunlar olmuşdur:

1. Klassik alman fəlsəfəsi
2. Dini şüur fəlsəfəsi. Yəni, din fəlsəfəsi
3. Marksizm fəlsəfəsi
4. Pozitivizm
6. Dinşünaslıq – islamşünaslıq

İncəsənət. Yuxarıda qeyd olunan incəsənətin növləri aşağıdakılardır:

1.Romantizm
2.Simvolizm
3.Realizm
4. Naturalizm
5. İmperializm

XIX əsrin elmi-texniki nailiyyətləri və onların mədəniyyətin inkişafına müsbət təsiri

Bədii mədəniyyətin texniki təchizatının genişlənməsi. Bu genişlənmənin aşağıdakı mənzərəsi diqqəti cəlb edir. Onları aşağıdakı sahələrə bölmək olar:

1. Kimya sənayesinin inkişafı
2. Səsyazma aparatlarının meydana gəlməsi
3. Kinoaparat. Kinomatoqrafiyanın meydana çıxması (1898-ci il)
4. Şəkilçəkmənin ixtirası (1884 – 1937)
5. Linotin mətbəə maşını (1884-cü il)

XX əsr mədəniyyəti

XX əsr mədəniyyəti ənənəvi, həm də yeni, olduqca çox müxtəlifliyə malik mədəniyyətdir. XX əsr mədəniyyəti bir çox nəsillərin, xalqların çox böyük yaradıcı əməyinin nəticəsidir. Və o, XIX əsr mədəniyyətində təşəkkül tapmış bir sıra əlamətlərin daha aşkar şəkildə özünü göstərməsi ilə xarakterizə olunur.

XX əsr dünya mədəniyyətinin inkişafı mexanizminin çoxsaylı ümumi cəhətləri və üsulları vardı. Bu mədəniyyətdə ilk növbədə iki bir-biri ilə qarşılıqlı əlaqədə olan inkişaf meyili diqqəti cəlb edir: milli dövlət mədəniyyətlərinin lokallaşdırılması (ölkənin xarici mədəniyyətinin bilavasitə özünəməxsuslaşdırılması) meyli və müxtəlif birləşməsi meyli.

XX əsr dünya maddi və mənəvi mədəniyyətinə məxsus spesifik əlamətlər, cəhətlər, xüsusiyyətlər

a) Maddi mədəniyyət (ən əsas əlamətlər)

Bu əlamətlər aşağıdakılardan ibarətdir:

1. Maddi istehsalda elmi-texniki tərəqqinin sabitləşməsi və sürətlə inkişafı.

Yeni texniki və texnoloji proseslərin istehsalatı, tətbiqi, qüdrətli atom sənayesi və energetika yaradılması, dərin qatların nəhəng sərvətlərinə nail olmaq, kosmosun fəthi və s.

2. Maddi mədəniyyətin inkişafında qeyri-bərabərlik, inkişaf etmiş, zəif inkişaf etmiş olan və inkişaf etməmiş ölkələrə məxsus ənənəvi bölgünün XX əsrdə saxlanması;

3. Təbiətdən əsasən vəhşicəsinə istifadə olunmasının nümayiş etdirilməsi və bunun dünya mədəniyyətinin gələcək inkişafının təbiətdən necə istifadə edilməsindən asılılığının artması;

4. İstehlak malları istehsalının düzgün müəyyənləşdirilməsindəki uyğunsuzluqların artması, keyfiyyət və kəmiyyətcə zəruri, ekoloji təmiz malların istehsalının zəruriliyi.

b) mənəvi mədəniyyət

XX əsrin başlıca əlamətləri. Bu əlamətlər aşağıdakılardan ibarətdir:

1. Elmi biliklər sisteminin yüksək səviyyədə mükəmməlləşdirilməsi, təkmilləşdirilməsi. Cəmiyyət tarixi və onun mədəniyyətinin, insan fəaliyyətinin çoxsaylı yeni istiqamətlərinin yaranması dünya - bəşər sivilizasiyasında müasir tələblərə cavab verən savadlılığın geniş yayılması, vətəndaşların şüurlarındakı yüksəliş;

2. Mütərəqqi bəşəriyyətin gələcəyinin anlamına xas, həlledici dünyagörüşü meyillərinin, seçim azadlığı imkanlarının çoxalması, mənəvi mədəniyyətin mühüm ünsürü kimi pozitiv dünyəvi təhsil prosesinin əhəmiyyətinin artması;

3. İctimai münasibətlərdə hüquqi nizamlanmanın gücləndirilməsi, vətəndaşlarda hüquqi münasibətlərin həyata keçirilməsində dünyagörüşü mövqeyinin artması;

4. Müasir dövrün dəyişkən cəmiyyət həyatına uyğun olaraq mədəniyyətlərin ciddi dəyişikliklərə uğramaq və ictimai münasibətlər sistemində mənəviyyatın aşağı düşməsi, ictimai qayğılar və mənəviyyat normalarının açıq-aşkar və rəsmən

hesablaşmamaq hallarının çoxalmasının bir çox peşələr üçün xarakterik hal alması;

5. Bədii-estetik mədəniyyətin çox böyük dəyişikliklərə uğraması. Qədim nəsr və nəzmdə, musiqidə, tətbiqi incəsənətdə, estrada sənətində və s. yeni əhəmiyyətli dəyişikliklər baş verməsi. İncəsənətin kino, televiziya növlərinin, kompyuter sənətinin yaranması. Memarlıq, dizayn, bədii fotoqrafiya, xoreoqrafiya sahəsində nəhəng addımlar atılması. İncəsənət sahəsində modernizm və postmodernizmin meydana gəlməsi;

6. Dünya birliyində müasir incəsənətin xalq bədii yaradıcılığı ilə daha sıx qarşılıqlı dialektik əlaqə formalarının yaranması və inkişafı.

7. Kütləvi mədəniyyətin XX əsrin mühüm hissəsi olması, bədii-estetik xidmət bazarı tələb və təklifinin mədəniyyətin bu sahəsinin hərəkətverici amili rolunu oynaması. Kütləvi elitar mədəniyyətlərin əlaqələrinin yaranması və inkişafı;

8. Məlumat mədəniyyətinin geniş təşəkkül tapması. Texniki sistemlərin əldə edilməsi, məlumatların hazırlanması, mühafizə, tələb olunub alınması nəticəsi olaraq məlumat mədəniyyətinin cəmiyyətdə müstəqil statusa malik olması və müəyyənedici rol oynaması.

Sovet sosialist mədəniyyəti

Bu mədəniyyətin aşağıdakı dəyərləri olmuşdur:

1. Əhalinin əksər çoxluğunun xoşbəxt gələcəyə inamı, sosializm quruculuğunun ilk illərində əməyə böyük həvəs və şövq.

2. Güclü sənaye, xüsusilə də nəhəng ağır sənayenin, müasir və nüfuzlu ordunun yaradılması.

3. Ölkənin yüksək elmi-texniki potensiala malik olması; əsaslı, fundamental elmlərdə dünya miqyaslı nailiyyətlərin kosmosa çıxışı;

4. Əhalinin ümumi savadlılığı; azlıqda qalan xalqların yazısı və milli ədəbiyyatın təşəkkülü, onların dünya mədəniy-

yəti nailiyyətlərinə qovuşması, geniş milli ziyalı təbəqələrinin formalaşması.

5. Sosial müdafiə, təhsil və səhiyyə sahəsində sabitlik.

6. Ölkə əhalisinin əksər hissəsində humanizm və xalqlar dostluğunun real təzahürləri; mühüm sosial dəyərlər kimi kollektivçiliyin, ictimai mənafelərin, beynəlmiləlçiliyin dərk edilməsi, mühüm və dəyərli ədəbiyyat və incəsənət əsərlərinin yaranması.

İtkilər. İtkilərə aid göstəricilər aşağıdakılardan ibarətdi:

1. İnqilab, vətəndaş müharibəsi dövründə milyonlarla insanların məhv olması, ölkənin əqli, zehni, mənəvi potensialına əvəzsiz, saysız-hesabsız zərər, ziyan dəymişdi;

2. İqtisadi qanunların pozulması ölkəni dərin siyasi və iqtisadi böhrana gətirib çıxarmışdı;

3. İctimai istehsalın qeyri-səmərəliliyi, adamlarda əmək məhsuldarlığının səviyyəsinin aşağı düşməsi;

4. İqtisadiyyatın hərbiləşdirilməsi;

5. Təbii sərvətlərə vəhşicəsinə münasibət, ekoloji tarazlığın pozulması;

6. Totalitarizmin tüğyan etməsi, hüquqi dövlətin olmaması, şəxsiyyətə pərəstiş, insan hüquqlarının kobudcasına pozulması;

7. Keçmiş Sov.İKP və sovet dövlətinin rəhbərlərinin xeyli hissəsində ümumi və siyasi mədəniyyətin aşağı olması və bu səbəblərdən onların ictimai inkişafın obyektiv qanunları ilə hesablaşmaları, dünya təcrübəsinə biganəlik;

8. İctimai-sosial və mənəvi həyatın kəskin siyasiləşdirilməsi, şəxsiyyətə, alimlərin, mədəniyyət xadimlərinin yaradıcılığına laqeyd münasibət, təzyiqlərin göstərilməsi;

9. Mühacir dalğalarının artması meyilləri;

10. Dinlə, o cümlədən xüsusilə İslam dini ilə mübarizə, kütləvi ateizm sindromu.

SSRİ-nin süqutu, iflası və sonrakı müasir mədəniyyət

Təzahürlər: müsbət və mənfi mənada

Əvvəlcə müsbət təzahürlərə diqqət yetirək.

Həmin təzahürlər aşağıdakılardan ibarətdir:

1. Xalqın tarixi yaddaşının bərpası;
2. Dini-islami mədəniyyətin qayıdışı;
3. Mədəniyyətin sovet dövrünün, kommunist rejiminin "ehkamlarından" sırf siyasətləşdirilməsindən xilas olması;
4. Aşkarlığın (pluralizmin) inkişafı, dövlət və ictimai təşkilatlar səviyyəsində xalqın şüurunun zülmdən, təhkimçilikdən azad olması;
5. Ədəbiyyat və incəsənət xadimlərinin əvvəllər yasaq, qadağan olunmuş yaradıcılığı ilə tanışlıq, mühacir mədəniyyətinə qovuşmaq;
6. Mədəni özünütəcridetmənin qarşısının alınması.

Mənfi təzahürlər. Onlar aşağıdakılardır:

1. Dövlətin mədəniyyətə münasibətində zəifləmə meyilləri. Mədəniyyətin özünü ifadəetmə vəziyyəti və onun həyat fəaliyyəti sahəsinin azalması;
2. Sovet dövrü mədəniyyətinin real mövcud olmuş bir çox sərvətlərinin düşünülmədən dağıdılması, məhv edilməsi, milli-mənəvi dəyərlərin, kollektivçiliyin, qarşılıqlı yardımın, təmənnasız dostluğun unudulması təzahürləri;
3. "Vəhşi" bazar iqtisadiyyatı şəraitində mədəniyyətin deformasiyası;
4. Aşağı keyfiyyətli kütləvi mədəniyyətin insanların şüuruna təsiri, humanizm ideyalarına biganəlik, laqeydlik;
5. Mədəniyyət sahəsində kriminallaşma;
6. Mövcud təsisatların (partiya, həmkarlar ittifaqları və s.) fəaliyyətlərinin demək olar ki, dayandırılması və ya fəaliyyət istiqamətinin dəyişdirilməsi ilə əlaqədar əmək kollektivləri

üzvlərinin rəhbərlərlə qarşılıqlı münasibətlərinin əks-əlaqə sistemi və bir sıra demokratik ünsürlərin, meyillərin, prinsiplərin aradan qaldırılması.

Mədəni insanın tarixi modelinin sxemi – forması

Bunlar əsasən dörd yerə bölünür, ayrılır:

I. Qədim tarix. Alaqon modeli.

Təhsil, öz-özünü təhsil, biliyini artırma, mənəviyyat.

II. İntibah dövrü. XIX – XXI əsrlər humanizm modelləri.

III. Yeni dövr. XXI əsr. Biliklərin ümumi sahəsində ixtisaslaşması.

IV. Müasir anlayış, XX – XXI əsrlər.

Geniş, hərtərəfli təhsil, planetar, şüur, idrak, təfəkkür, mədəni pluralizm. Multikulturalizm (çoxmədəniyyətlilik). Materialist monizmə zidd olaraq, kainatın və hadisələrin əsasını bir çox müstəqil mənəvi əsaslar təşkil etdiyini iddia edən idealist fəlsəfi cərəyanlar.

Mədəniyyətlərarası, sivilizasiyalararası, dinlərarası dialoq. Tolerantlıq. Azərbaycanın dini tolerantlıq ənənələri, təcrübəsi (bu barədə son zamanlar Heydər Əliyev Fondunun rəhbərliyi tərəfindən Bakıda keçirilən simpoziumlar, konfranslar, dəyirmi masalar, dialoqlar, forumlar).

IV BÖLMƏ

AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

Azərbaycan mədəniyyəti çox qədim və zəngin tarixə malikdir. Bu mədəniyyət yüzillər boyu inkişaf yolu keçmişdir. O, bilavasitə özünəməxsus müxtəlifliyi ilə səciyyələnən, bənzərsiz cəhətlərə malikdir. Bu mədəniyyət, əsasən VIII əsrdən sonra İslam mədəniyyəti ilə bir kontekstdə təşəkkül tapıb, formalaşmışdır. Azərbaycan mədəniyyəti dünya, bəşər mədəniyyətinin mühüm tərkib hissəsidir. Azərbaycan mədəniyyəti milli olduğu qədər də ümumbəşəridir.

Yeri gəlmişkən, ümumi mədəniyyət anlayışına aşağıdakı tərifi vermək olar:

"Mədəniyyət yer üzünün əşrəfi, ən qiymətli kapital, ictimai münasibətlərin məcmusu olan insanın düşünən beyninin və onun yaradan əlinin nailiyyətlərinin məcmusudur deyilir".

İndi bizə silahdan daha çox mədəniyyət lazımdır.

Bəşəriyyəti mübtəla ola biləcək hər hansı çətinlikdən qurtarmağın yeganə vasitəsi, üsulu mədəniyyətdir.

XXI əsrdə - qloballaşma, inteqrasiya, informasiya və kommunikasiya texnologiyaları proseslərinin geniş vüsət aldığı indiki dövrdə, xüsusən ən son illərdə ölkəmizdə sözügedən sahədə həyata keçirilən demokratikləşmə prosesi gedişində humanist istiqamətli mədəniyyət inkişaf etmiş, ümumbəşəri mədəniyyət sistemində bilavasitə özünəməxsus yüksək səviyyəli mövqe tuta bilmişdir.

Azərbaycan mədəniyyətinin inkişafında başlıca istiqamətlər

a) Maarif və elm

Azərbaycanda maarifçiliyin qədim və zəngin ənənələri vardır. Artıq beşinci yüzilliyin əvvəllərində Azərbaycanda ilk

xristian məktəbləri yaranmışdı. VII əsrdə ərəblərin Azərbaycana da yürüşləri nəticəsində müsəlman məktəbləri – mədrəsələr açıldı. XI əsrdə ali tipli müsəlman məktəbləri – mədrəsələr meydana gəlmişdi.

XII yüzillikdə Azərbaycan şəhərlərində məscidlər yanında mədrəsələr və məhəllə məktəbləri fəaliyyət göstərirdi. Bu mollaxana məktəblərində dini – islami elmlərlə yanaşı, ərəb dilinin sərf-nəhvi, nücüm (astronomiya), riyaziyyat, təbabət, məntiq, fəlsəfə, Şərq dilləri, ədəbiyyat və başqa fənlər tədris olunurdu.

XII əsrdə Şamaxıda böyük şair Ə.Xaqaninin dayısı tərəfindən tibb məktəbi yaradılmışdı. XIV əsrin əvvəllərində Təbrizdə yaradılan "Şəfa evi" ("Dar - əş – Şəfa") elmi mərkəzi, həm də böyük tədris müəssisəsi idi. Burada 67 min tələbə təhsil alırdı.

XI – XVIII əsrlərdə Azərbaycanda məktəb və mədrəsə şəbəkələri əsasən şəhər əhalisi arasında yayılmağa başladı. Azərbaycan şəhərlərinin hər məhəlləsində bir neçə məktəb olduğu halda, kənd yerlərində bir məktəb bir neçə kəndə xidmət göstərirdi. XVII əsrdə təkcə Şamaxıda 40 ibtidai, 7 orta məktəb vardı. Bir qayda olaraq təhsil Yaxın və Orta Şərq ölkələrində olduğu kimi fanatizm, fatalizm, asketizm, mistika, mövhumat, xurafat ruhunda verilirdi, aşılanırdı. XIX əsr Azərbaycanda maarif işi sahəsində çox mühüm dövr olmuşdu. Bu dövrdə xalqın maariflənməsi, təhsilə, elmə qoşulması dərinləşdi.

Təhsil sistemində dünyəviliyə meyil gücləndi. Azərbaycanın mütərəqqi, qabaqcıl ziyalıları xalq maarifinin yüksəlişinə, xalqın savadlanması, yeni mahiyyətli, məzmunlu və mündərəcəli təhsil alması üçün əllərindən gələn mümkün təşəbbüsləri edirdilər. Azərbaycanın ictimai-sosial inkişafının zəruri tələbatı kimi XIX əsrin ortalarında maarifçilik ideyaları formalaşmağa başladı. Ümumi demokratik şərti fonunda maarifçilik təşəkkül tapdı.

XIX əsrin ikinci yarısında Azərbaycan maarifçiliyinin inkişafında xüsusi dönüş başladı. Azərbaycanda tədris ocaqlarının sayı 500-dən 700-ə çatdı. Azərbaycan maarifçilərinin sayı ilə ana dilinin – Azərbaycan dilinin tədrisinin həyata keçirilməsində mühüm irəliləyişlər oldu. Azərbaycan Rusiyaya ilhaq olunduqdan sonra Azərbaycanda rus məktəbləri yaradıldı. Bu tipli məktəblər Şəki, Şuşa, Bakı, Gəncə, Şamaxı, Naxçıvanda açılmışdı. Məktəblərin açılmasında çar hökumətinin əsas məqsədi özünə etibarlı kadrlar-mütərcimlər, mirzələr hazırlamaq idi. Qeyd olunan yüzilliyin ikinci yarısı Bakıda texniki məktəb, Gəncədə sənət məktəbi açıldı. Bakı və Gəncədə realnı məktəblər fəaliyyətə başladı. Bakının neft rayonlarının bəzisində ibtidai məktəblər açıldı. 1896-cı ildə Bakıda Azərbaycan xalqının, millətinin böyük xeyirxahı, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev Qızlar məktəbini açdı.

Azərbaycan xalq maarifinin inkişafında milli maarifçiliyimizin rolu, xidmətləri çox böyük olmuşdu. Maarifçiliyin ilk mərhələsini zadəgan maarifçiləri təşkil edirdi. Həmin mərhələnin görkəmli nümayəndələrindən biri A.A.Bakıxanov idi. Onun "Kəşf - əl – Qəraib", "Əsrar - əl – Mələkut", "Təkzubil - əxlaq" (Əxlaq tərbiyəsi) və "Eynəl mizan" (Tərəzinin mahiyyəti) əsərlərində maarifçilik fikirləri ifadə olunmuş, mənəviyyatın, əxlaqın tərbiyə vasitəsilə formalaşması əsaslandırılmışdı və əsrin 60–70-ci illərində özünü bariz şəkildə göstərmişdi. Bu dövrdə maarifçi realist ədəbiyyatı yarandı. Maarifçiliyi M.F.Axundzadə, H.B.Zərdabi, S.Ə.Şirvani, N.B.Vəzirov, C.Məmmədquluzadə, Ə.B.Haqverdiyev, N.Nərimanov və başqalarından ibarət bütöv bir nəsil formalaşmışdı. Onların sırasında görkəmli mütəfəkkir, filosof kimi M.F.Axundzadə xüsusi yer tutur. Onun ictimai, siyasi fəlsəfi, əxlaqi görüşləri Azərbaycanda maarifçilik mədəniyyətinin inkişafında mühüm rol oynamışdı. Milli maarifçilərimizin çox böyük yüksəlişi ilə XIX əsrin ikinci yarısında Azərbaycanda ilk kütləvi kitabxana və qiraətxana açıldı. Belə kitabxana, qiraətxanalardan birini

1894-cü ildə Bakıda N.Nərimanov açmışdı. Bu və başqa kitabxanaların açılışı xalqın maariflənməsi yolunda mühüm irəliləyiş idi. Maarif işinin yüksəlişində mətbuatın da mühüm rolu olmuşdu. Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabi idi. O, 1875-ci ildə "Əkinçi" qəzetinin nəşrinə başladı. H.B.Zərdabi qəzetə S.Ə.Şirvani, K.Mehmandarov, A.Adıgözəlov, Ə.Gorani və dövrünün başqa böyük ziyalılarını cəlb edə bilmişdi. 1879-cu ildən Tiflisdə "Ziya" qəzeti nəşr olunmağa başladı. 1880-ci ildən Tiflisdə "Kəşkül" qəzeti dərc edildi. XIX əsrin 80-90-cı illərində Bakıda "Kaspi", "Bakinskaya isvestiya", "Baku" və başqa rusdilli qəzetlər çıxmağa başladı. Burada burjua ideya istiqamətləri səciyyələnsə də Azərbaycanda maarif və mədəniyyətin inkişafında müəyyən rol oynaya bilmişdir.

XX əsr Azərbaycan maarifinin inkişafında köklü dəyişikliklər dövrü olmuşdu. Azərbaycanın yeni ictimai-iqtisadi formasiyaya keçdiyi bu dövrün başlanğıcında 9 yaşından 49 yaşına qədər əhalinin 90,8 faizi savadsız idi. Savadsızlıq Azərbaycanda mədəniyyətə, tərəqqiyə çox böyük əngəl olmuşdu.

XX əsrin 20-ci illərindən başlayaraq elliklə savadlanma birincidərəcəli vəzifə kimi qarşıya qoyulmuşdu. Yaşlıların savadsızlığının ləğvi üçün minlərlə kurslar açıldı. Xüsusi fəhlə fakültələri yaradıldı. Maarif-mədəniyyət quruculuğu sahəsində qanunvericilik aktları qəbul edildi. Ümumtəhsil və xüsusi təhsil məktəblərinin sayı əhəmiyyətli dərəcədə artırıldı. Müəllim kadrlarının hazırlanması üçün pedaqoji texnikumlar və təhsil müəssisələri yaradıldı.

Mürəkkəb və çətin ərəb əlifbasından imtina edildi. Latınlaşdırılmış, sonra isə rus qrafikası əsasında yeni əlifbaya keçid təhsilin inkişafında mühüm əhəmiyyət kəsb etdi. Azərbaycan dilində dərsliklər, bədii ədəbiyyat nəşr edildi. Məcburi ibtidai təhsilə keçid, sonra isə kənd yerlərində yeddiilliklə, şəhərlərdə və fəhlə qəsəbələrində onillik təhsilə keçid Azərbaycanda təhsil sisteminin yüksəlişində mühüm irəliləyişə səbəb

oldu. Siyasi maarif şəbəkələrinin sayı sürətlə artdı, kitabxanalar, oxu zalları son dərəcə inkişaf etdi. Qısa müddətdə ölkənin başdan-başa maariflənməsi həyata keçirildi.

XX əsrin ikinci yarısında təhsil müəssisələrinin, orada hazırlanan kadrların sayı öz inkişaf sürətinə görə inkişaf etmiş bir sıra kapitalist ölkələrini üstələdi. 1919-cu ildə açılmış Bakı Universiteti və sonrakı onilliklərdə yaradılmış Müəllimlər institutları xalq maarifinin yüksəlişində müstəsna rol oynamışdı. Bakı Universitetinin ilk rektoru görkəmli alim-cərrah V.T.Razumovskinin sözləri ilə desək, "Universitetin təlimi ilə Azərbaycan özünün ali maarif ocağını əldə etdi. Türk xalqının tarixində Asiyanın hüdudunda yeni parlaq səhifə yazıldı, yeni məşəl şəfəqləndi." 60-70-ci illərdən başlayaraq milli maraqlar və ümumi inkişaf strategiyası nəzərə alınmaqla yeni şəraitə uyğun dövlət sisteminin formalaşmasına başlandı. Son on illikdə təhsil sistemində müxtəlifyönümlü islahatlar aparıldı, dəyişiklər həyata keçirildi. Azərbaycanda özəl təhsil ocaqları peyda oldu, yeni-yeni ixtisaslar üzrə kadrlar hazırlanmağa başlandı. Əhalinin müxtəlif sosial təbəqələrinin geniş miqyasda kompyuter savadına yiyələnməsi, onların peşə mədəniyyəti və ümumi mədəni səviyyəsinin yüksəlişi sosial vəzifələrin həll edilməsində mühüm rol oynamaqdadı.

Azərbaycan qədim elm ocaqlarından biridir. Hələ IX – XII əsrlərdə Azərbaycanda elm o dövr üçün yüksək inkişaf etmişdi. Azərbaycanda yaşayıb-yaradan, şöhrət tapmış onlarla alimlər fəaliyyət göstərmişlər. Onlar Şərqin bir sıra böyük mütəfəkkirlərinin, o cümlədən Əbu Əli İbn Sina, Biruni, Məsudi, Rusəvi, İbn Rüşd, qədim yunan filosoflarından Aristotel, Platon və başqalarının yaradıcılığından faydalanmaqla elmin inkişafında çox dəyərli işlər görə bilmişdilər. IX – XII əsrlərdə astronomiya elmi sahəsində daha çox irəliləyişlər olmuşdu. Dövrünün ən görkəmli astronomlarından biri Fazil Şirvani olmuşdu. O, otuz illik elmi fəaliyyəti müddətində bir sıra ulduz cədvəllərini tərtib etmişdi. Arxeoloji qazıntılar nəticəsində

tapılmış gil lövhənin üzərində şəkil çəkilmiş göy qübbəsinin və planetlərin yerlərini dəyişmə yollarının qeyd olunması astronomiya elmindəki yüksəlişi ifadə edirdi.

XIII əsrin ortalarında o dövrün elmi fikrinin ən böyük görkəmli nümayəndəsi təbiət, həndəsə, etika və s. elmi sahələrinə dair bir sıra əsərlərin müəllifi Nəsirəddin Tusi Marağa ətrafında dağ zirvəsində rəsədxananın əsasını qoymuşdu (1259). Orada traktlar, səma ulduzlarının xəritəsi, astronomik cədvəllər və s. yaradılmışdı.

XIV əsrin əvvəllərində Şamaxıda da rəsədxana tikilmişdi. Bu rəsədxana Şərq astronomiya elminin mərkəzinə çevrilmişdi. Burada bir çox ölkələrdən, hətta uzaq Çindən görkəmli alimlər çalışırdılar. Riyaziyyat və tibb elmi sahəsində də şöhrət qazanmış onlarla alim olmuşdu. Bunlardan xüsusilə riyaziyyat elmi "Risalət ul- hesabi" əsərinin müəllifi Q.Təbrizi və tibb elmi sahəsində "Elmi tibb" kitabının müəllifi Mahmud ibn Heyas məşhur idilər.

XIII – XIV əsrlərdə tarix elmi sahəsində Şərqdə və o cümlədən Azərbaycanda böyük nailiyyətlər qazanılmışdı. Azərbaycan "Şərq tarixşünaslığının qızıl əsrləri" hesab olunan həmin dövrdə tarix elminin mərkəzinə çevrilmişdi. Bu dövrdə digər elm sahələrində də çox böyük irəliləyişlər olmuşdu. Əli ibn Sinanın tələbəsi və davamçısı, böyük Azərbaycan alimi – mütəfəkkiri Bəhmənyarın "Təhsil", "Mövcudatın mərtəbələri", "Gözəllik və səadət" və b. kitabları, X.Təbrizinin fəlsəfə, məntiq və ədəbiyyatşünaslığa dair əsərləri, Bərdədə doğulmuş və sonra Bağdadda yaşamış Məhəmməd İbn Abdullanın "Muxalifətlərə cavab", "Müsəlman hüququnun əsaslarına dair məsələ" əsərləri, M.A.Şirvaninin hüquqşünaslıq sahəsindəki bir sıra əsərləri və başqaları bu dövrün mədəniyyətinin inkişafında mühüm səhifələr təşkil edir.

XV – XVI əsrlərdə Azərbaycanda müxtəlif elm sahələrinin inkişafı davam etmişdi. Azərbaycanda tarix, coğrafiya, fəlsəfə, məntiq, dilçilik, o cümlədən qrammatika və ədəbiyyata

aid bir sıra elmi əsərlər yaradıldı. Tarixi yazılara görə təkcə Ağqoyunlu hökmdarının şəxsi kitabxanasında 58 alim çalışardı. Bu dövrün ən məşhur tarixçisi I Təhmasibin, sarayında qulluq edən Həsən bəy Rumlu 12 cildlik "Tarixlərin ən yaxşısı" əsərini yazmışdı. Azərbaycanlı Oruc bəy Səfəvi dövlətinə həsr olunmuş tarix-coğrafi əsəri, Şərəf bəyin bitməmiş ikicildlik "Şərəfnamə" əsəri, naməlum müəllifin yazdığı "Şah İsmayıl Səfəvi tarixi" Azərbaycan tarixi haqqında dəyərli məlumatlar verir. XVII əsrdə Azərbaycan elmi Səfəvi imperiyasına daxil olan başqa xalqlarla qarşılıqlı əlaqədə daha da zənginləşə bildi. XVIII əsrin sonu XIX əsrin əvvəllərində səyyah və coğrafiyaşünas Zeynalabdin Şirvani, tarixçi Abdürrıza bəy Dümbumi məşhur alimlər olmuşlar. XIX əsrin birinci yarısı bir çox elm sahələri inkişaf etdi. Bu dövrdə A.A.Bakıxanov "Gülüstani – İrəm" əsərində qədim dövrdən başlayaraq XIX əsrin əvvəllərinədək Şirvan tarixini tədqiq etmişdir. Məşhur səyyah-alim H.Z.Şirvani Şərq ölkələri iqtisadi – mədəni həyatını təsvir edən XIX əsrin ikinci yarısında Azərbaycanın sosial-iqtisadi həyatındakı dəyişikliklərlə əlaqədar elm sahələrində mühüm irəliləyişlər baş verdi. Təbii sərvət yataqlarının kəşfi və buradakı sərvətlərin tədqiq edilməsi geologiya elminin inkişafına şərait yaratdı. Şərqlə bağlı olan elm sahələri daha sürətlə inkişaf etdi. D.İ.Mendeleyev və başqa rus alimləri (onların içərisində azərbaycanlı, Almaniyada təhsil almış Möhsüm bəy Xanlarov da var idi) neft sahəsində nəzəri və əməli əhəmiyyətli sanballı tədqiqatlar aparıblar və öz təkliflərini veriblər.

H.B.Zərdabi, N.B.Vəzirov və başqa azərbaycanlı alim və maarifçilərinin səyləri ilə biologiya, kənd təsərrüfatı elmləri sahəsində də müəyyən irəliləyişlər oldu. Bu dövrdə Azərbaycan tarixininin mühüm məsələləri üzrə M.U.Qarabağlı, Əhməd bəy Cavanşir, M.M.Xaqani kimi görkəmli alimlər əsərlər yazmışlar. Azərbaycan tarixinin bəzi məsələləri M.F.Axundzadə, N.Nərimanov, N.B.Vəzirov, H.B.Zərdabi, S.M.Qənizadə, M.Mahmudbəyov və başqalarının əsərlərində öz əksini tapdı.

XX əsrdə Azərbaycan elminin inkişafı üçün geniş imkanlar yarandı, ölkədə onlarla elmi-tədqiqat müəssisələri yaradıldı. Keçmiş SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı, sonra isə elmi-tədqiqat institutlarını özündə birləşdirən müstəqil Azərbaycan SSR Elmlər Akademiyası (1945) yaradıldı. Akademiyanın yaradılması Azərbaycanda elm və mədəniyyətin inkişafında çox mühüm hadisə oldu. Təbii sərvətləri öyrənmək, iqtisadiyyat və mədəniyyətin çox mühüm problemlərini araşdırmaq üçün Akademiyanın institutları dəyərli işlər gördülər. Azərbaycanda geologiya elmi sürətlə inkişaf etdi, kimyaçı, fizik və riyaziyyatçı, alim-bioloq, zooloq, selleksiyaçı, torpaqşünas, aqrokimyaçı alimlərin böyük bir nəsli yetişdi. Geologiya, kimya, biologiya və tibb, fizika və riyaziyyat elmləri sürətlə inkişaf etdi. Neft və neft emalı elmin aparıcı istiqamətlərini təşkil edirdi. Azərbaycan Sovetlər İttifaqı məkanında "Neft Akademiyası" adına layiq görüldü. Azərbaycanın nefçi alimləri dünyanın müxtəlif ölkələrində öz elmi-tədqiqat işləri ilə səmərəli fəaliyyət göstərirlər. Neft – kimya və bir sıra digər sahələrdə elmi işlərin tədqiqi sahəsində respublikamızın alimləri birincilər sırasına çıxa bildilər.

Azərbaycanda sosiologiya, ictimai elmlər sahəsində də görkəmli alimlər nəsli yetişdi. Tarix, fəlsəfə, arxeologiya, etnoqrafiya, iqtisadiyyat, hüquq, dil, ədəbiyyat, incəsənət sahələri, memarlıq və b. elmlər üzrə sanballı, ümumiləşdirilmiş əsərlər, monoqrafiyalar, 10 cildlik Azərbaycan Ensiklopediyası, Naxçıvan Ensiklopediyası, Qarabağ Ensiklopediyası, İrəvan Xanlığı və s. ensiklopediyaları nəşr olundu.

Azərbaycan alimlərinin əsərlərində qədim dövrlərdən indiyə qədərki inkişaf yolu öz əksini tapa bildi, respublikanın ictimai və mədəni həyatı geniş işıqlandırıldı. Sanballı tətbiqi araşdırmaların, elmi nailiyyətlərin praktikaya tətbiqinin miqyası və dinamizmi artdı, alimlərimizin keçmiş sovetlər ittifaqı məkanındakı və digər xarici ölkələrdəki elmi mərkəzlər, akademiyalar və elmi müəssisələrlə əlaqələri gücləndi.

Azərbaycan elmin, texnikanın və mədəniyyətin aktual məsələləri üzrə beynəlxalq konqres, konfrans, simpoziumların keçirildiyi mərkəzlərdən birinə çevrilmiş, bir sıra Azərbaycan alimləri dünya şöhrəti qazanmışlar. İndi Azərbaycan dünya ölkələri sırasında ən qabaqcıl elm mərkəzlərindən biridir. Respublika elminin bugünkü inkişaf səviyyəsi Azərbaycan xalqının mənəvi yüksəlişində böyük rol oynamaqdadır.

b) Ədəbiyyat

Azərbaycanın ədəbi fikir tarixi də qədimdir. Onun çoxəsrlik tarixində baş vermiş hadisələr öz bədii əksini, bu və ya digər dərəcədə şifahi və yazılı ədəbiyyat sahəsində tapmışdı. Ədəbi-bədii fikrin inkişaf tarixi göstərir ki, əvvəlki dövrlərdə əhali arasında ən çox sehirli nağıllar, bayatılar yaranmış, aşıq yaradıcılığı inkişaf etmişdi. Şifahi xalq ədəbiyyatında əsatirlər də güclü olmuşdu. Yazılı ədəbiyyatda isə bədii yaradıcılığın mövzusu gerçəklikdən alınmış və xalqın həyatı real inikas, tərənnüm etdirilmişdi. X-XI əsrlərin yadigarı olan "Kitabi Dədə-Qorqud" Azərbaycan xalqının istedadını, onun yaradıcılıq dühasını əks etdirir. Bu dastan Azərbaycan ədəbiyyatı tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış ən böyük ədəbi abidədir və bu abidə bütün sonrakı həm şifahi, həm də yazılı ədəbiyyatımızda dərin izlər buraxa bilmişdi.

X-XII əsrlərdə yazılı ədəbiyyatın geniş yayılmış formalarından biri saray ədəbiyyatı olmuşdu. Saray ədəbiyyatı Şamaxı və xüsusilə Təbrizdə geniş yayılmışdı. Saray ədəbiyyatından kənarda yetişən demokratik ədəbiyyat da inkişaf edirdi. Bunun ən istedadlı nümayəndəsi Məhsəti Gəncəvi olmuşdu. Onun ictimai-əxlaqi mövzuda yazılmış rübailəri yalnız Azərbaycanda deyil, Şərq ölkələrində də çox geniş yayılmış, müəllifinə böyük şan-şöhrət gətirmişdi. XII əsr milli mədəniyyətimizə böyük ədiblər nəsli vermişdi. Bu dövrün ədiblər nəslinin ən görkəmli nümayəndələri Şərq poeziyasının günəşi Nizami Gəncəvi və sevgi, mərhəmətlə dolu poemaları ilə xalq

rəğbətini qazanmış Ə.Xaqani olmuşdu. Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" poemaları və qəzəlləri dünya poetik fikrinin inkişafında misilsiz yer tutmuşdu. Dahi Azərbaycan şairi Əfzələddin Xaqaninin yüksək fəlsəfi məna, məzmun və mündərəcə daşıyan "Mədain xərabələri" və zəmanəsinin acı reallığının ifadəsi olan "Töhvətül İqrari" əsərləri, "Həbsiyyə" adlı şeirləri ona xalq içərisində böyük nüfuz qazandırmışdı. Dünya şöhrətli Nizami Gəncəvini və böyük şair Əfzələddin Xaqaninin zəngin yaradıcılıq irsi mənəvi mədəniyyətimizin sonrakı yaradıcıları üçün gözəl sənətkarlıq məktəbi olmuşdu.

Azərbaycan ədəbi fikrinin görkəmli nümayəndələri bütün sonrakı əsrlərdə də yetişmişdi. XIV əsrin sonu XV əsrin əvvəllərində fəlsəfi lirikanın ən görkəmli nümayəndəsi İmadəddin Nəsimi olmuşdu. Yaradıcılığa aşiqanə şair kimi başlayan İ.Nəsimi sonralar dövrünün ictimai, siyasi, əxlaqi mövzularında əsərlər yazmışdı. O, çox böyük cəsarətlə hakim təbəqənin zülm və ədalətsizliyinə qarşı çıxmış, zəmanəsinin haqsızlıqlarını qamçılamışdı. İ.Nəsiminin yaradıcılığında insan qiblə adlandırılır, yaradıcı, yer üzünün əşrəfi, ən qiymətli kapital, ictimai münasibətlərin toplusu, məcmusu kimi yüksəklərə qaldırılır. "Məndə sığar iki cahan, mən bu cahana sığmazam", yaxud da "Həqtala adam oğlu özüdür" deyərək, insanı Allahla eyniləşdirirdi. O, insanın özünü həqiqəti dərk etməyə çağırırdı. İ.Nəsiminin ana dilində - Azərbaycan dilində yazdığı əsərlər xalqın maariflənməsində, onun ümumbəşər mədəniyyətinə qovuşmasında çox böyük əhəmiyyət kəsb etməklə yanaşı, dünya Şərqin – Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm mərhələni təşkil edir.

XVI əsrdə Azərbaycan ədəbi-mədəni fikri öz inkişafını davam etdirmişdi. Bu dövrdə dünya poeziyasının parlaq ulduzu Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Həbibi kimi şairlər yaşayıb-yaratmışlar. Məhəmməd Füzulinin həyat eşqi, dostluq

və səadəti, insanın müdrikliyinin bütləri Azərbaycan ədəbi fikrinin, mədəniyyətinin çox zəngin xəzinələrindəndi. Eşq, məhəbbət şairi Məhəmməd Füzuli "Leyli və Məcnun", "Şikayətnamə", "Bəngü – Badə" və s. əsərləri ilə müsəlman Şərqində çox böyük nüfuz sahibi olmuşdu.

XVII əsr Azərbaycan ədəbiyyatı tarixində Qövsi Təbrizi, Sahib Təbrizi, Qərzi Əfşari və başqaları ən parlaq simalardan olmuşlar. İstedadlı şair Qövsi Təbrizi poeziyasında azadlıq və vətənə məhəbbət ideyaları çox böyük sənətkarlıqla verilmişdi. Sahib Təbrizi 120 min beytlik poeziya nümunələrinin müəllifi olmuşdu. Böyük ədəbiyyatşünas və şərqşünas U.E.Borbens onu XVII əsrin Hafizi adlandırmışdı. Qərzi Əfşar "Səfa hiral bulağı" adlı toplusu ilə çox böyük nüfuz qazanmışdı. Onun bədii yaradıcılığı XVII əsr Azərbaycan və bütün Səfəvi dövlətinin iqtisadi, siyasi və mədəni həyatını öyrənmək baxımından çox faydalıdı. XVII əsrdə öz bədii yaradıcılıqları ilə xalqın dərin məhəbbətini qazanmış sənətkarlardan Tufarqanlı, Aşıq Abbas, Aşıq Xəstə Qasım, Sarı Aşıq və başqaları xüsusi fərqlənmişlər.

XVII əsr Azərbaycan mədəniyyətini səciyyələndirən cəhətlər sırasında xalq həyatının reallıqlarını əks etdirən dastanların yaranması olmuşdu. "Abbas və Gülgəz", "Şəhriyar və Sənubər", "Molla Qasım" və digər dastanlar Azərbaycan ədəbiyyatının ən gözəl nümunələri hesab olunur. XVII – XVIII yüzillikdə yaradılmış dastanlar içərisində xalqın qəhrəmanlıq və mütərəqqi ideyalarının əks olunduğu "Koroğlu" dastanı xüsusi yer tutur.

Azərbaycanın zəngin mədəniyyət tarixinin XVIII əsrində Molla Pənah Vaqif və Molla Vəli Vidadi kimi böyük ədiblər yetişmişdi. M.P.Vaqifin dünyəvi ideyaları, nikbinlik və həyatsevərlik poeziyası, M.V.Vidadinin vətənə, xalqa sonsuz məhəbbət, humanizm ifadə edən yaradıcılığı Azərbaycan ədəbi fikrinin yüksəlişini, dirçəlişini əks etdirir.

XIX əsrin birinci yarısında Azərbaycan ədəbiyyatında romantik, humanist və realist cərəyanlar formalaşmağa və inkişaf etməyə başladı. Bu cərəyanların ulu nümayəndəsi M.Ş.Vazeh, A.A.Bakıxanov, İ.B.Qutqaşınlı, Q.B.Zakir, M.F.Axundzadə Azərbaycan ədəbiyyatını öz ölməz ədəbi əsərləri ilə zənginləşdirmişlər. M.F.Axundzadə realist Azərbaycan dramaturgiyasının əsasını qoymuşdu. Onun XIX əsrin 50-ci illərində yazmış olduğu komediyaları o dövrün güzgüsü adlandırıla bilər. Onun realist ənənələri S.Ə.Şirvani, M.Ə.Sabir, C.Məmmədquluzadə, N.Nərimanov, N.B.Vəzirov, Ə.B.Haqverdiyev və başqalarının əsərlərində öz inkişafını tapdı.

XIX əsrin görkəmli nümayəndələrindən xalq arasında "Xan qızı" adı ilə şöhrət tapmış Xurşudbanu Natəvan, M.R.Fəna, Şirvani, M.Cümə və başqaları yaşayıb-yaratmışlar. O dövrün başlıca xüsusiyyətlərindən biri də ədəbiyyatda aşıq poeziyasının mühüm yer tutması, Molla Cümə, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Nəcəfqulu, Hüseyn Bozalqanlı kimi qüdrətli xalq açıqlarının yetişməsi olmuşdu.

XX əsr Azərbaycan ədəbiyyatında xalqın azadlıq və xoşbəxtlik arzuları ifadə olunmuş və bununla da məmləkətimizdə demokratik mədəniyyətin mənəvi əsasları və mütərəqqi istiqamətləri müəyyən edilmişdi. Bu dövrün ədəbiyyatında nəcib, saf, humanist ideyalar, fəlsəfi axtarışlar mühüm rol oynamışdı. XX əsr Azərbaycan milli və dünya ədəbiyyatının nailiyyətləri əsasında yeni tipli, xalqın həyatı ilə bağlı, gerçəkliyi real əks etdirən ədəbiyyat yarandı. Mövzu və bədii dəyər etibarilə çox müxtəlif olmasına baxmayaraq, bu dövrün ədəbiyyatını bütövlükdə səciyyələndirən ümumi cəhət zəhmət adamlarının nəcib əməllərinin, humanizm, vətənpərvərlik və beynəlmiləlçilik hisslərinin, sosial ədalət uğrunda mübarizənin və s. inikası idi. XIX əsrin ilk onilliyi Azərbaycan ədəbiyyatının inkişaf tarixində ən qiymətli illər hesab oluna bilər. Bu dövr ədəbiyyatını C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, N.Nərimanov, Ə.Cavad, A.Səhhət, M.Hadi, H.Cavid

kimi görkəmli sənətkarlar təmsil edirdilər. Onlar dövrün ədəbiyyat qarşısında irəli sürdüyü mühüm vəzifələrə layiq cavab verə bilmişlər.

Ədalət və həqiqət naminə qeyd etmək lazımdır ki, Azərbaycanda sovet dönəmində də ədəbiyyatın inkişafı sahəsində çox böyük nailiyyətlər qazanılmışdı. Bu illər poeziya və nəsr sahəsində çox dəyərli əsərlər yaradıldı, çoxsahəliliyi ilə fərqlənən hekayə, povest, roman, şeir, poema və publisistik oçerklər, dram əsərləri, pyeslər yazıldı. Ədəbiyyatımızın bütün sahələrində beynəlmiləlçiliyin və milliliyin qarşılıqlı təsiri artdı, humanist, əxlaqi, vətənə məhəbbət hisslərinin tərbiyəvi istiqaməti gücləndi.

XX əsrin 50-ci illərinin əvvəllərindən etibarən Azərbaycan şeirində poetik təfəkkürün inkişafında yeni bir dövr formalaşmağa başladı. Poeziyada insanların hiss, həyəcan və təəssüratlarını, sevinc və kədərini, onların mənəvi intellektual potensialını və mənəvi dünyasını bütün əzəməti ilə əks etdirən yeni lirik-etik formalar yaradıldı. Dahi xalq şairləri Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Bəxtiyar Vahabzadə və başqalarının poetik nümunələrini xatırlamaq kifayətdir.

Azərbaycan poeziyasının inkişafında S.Vurğunun, S.Rüstəmin, R.Rzanın, M.Rahimin, O.Sarıvəllinin, N.Rəfibəylinin, M.Dilbazinin, Z.Xəlilin, Ə.Cəmilin, B.Vahabzadənin, N.Xəzrinin, Ə.Əlibəyevin, A.Babayevanın, Q.Qasımzadənin, Z.Cabbarzadənin, B.Azəroğlunun, H.Hüseynzadənin, C.Novruzovun, X.Rza Ulutürkün, Ə.Kərimlinin, İ.Tapdığın, F.Mehdinin və başqalarının çox böyük rolu, xidmətləri olmuşdu. Onların yaradıcılığında insanın daxili zənginliyinin, həyat eşqinin real ifadəsi əsas əlamət kimi nəzəri cəlb edir. Bədii nəsr sahəsində öz yaradıcılığı ilə şanlı, qədim, zəngin tariximizi, mənalı həyat tərzini, xalqlar dostluğunu, humanist ideyaları, mənəvi-etik problemləri və s. ifadə, tərənnüm edən böyük yazıçılar nəsli yetişdi. Azərbaycan nəsrinin M.S.Ordubadi, S.Rəhimov, M.Hüseyn, M.İbrahimov, Əbdulhəsən

Ələkbərzadə, M.Cəlal, Ə.Vəliyev, İ.Şıxlı, Anar, S.Əhmədov, Elçin və başqa bu kimi böyük yazıçılar həmin nəslin nümayəndələridir. Onlar Azərbaycan ədəbiyyatını daha yüksək zirvələrə qaldırmışlar.

Azərbaycanda bədii ədəbiyyatın inkişafı ilə ədəbi-bədii dilimizin təşəkkülü və inkişafı paralel getmişdi. Qaynaqlar göstərir ki, ədəbi-bədii dilimizin formalaşması XIII əsrə qədər olan dövrü əhatə edir. XIII əsrdə şair Əlinin "Qüsseyi-Yusif" (Yusif dastanı) əsəri, XIII-XIV əsrlər astanasında isə İzzəddin Həsənoğlunun "Divani" türk dilində yazılmış, Şərqdə böyük şöhrət tapa bilmişdi. Həmin dövrdə "Yusif və Zuleyxa" kimi poemalar meydana gəldi. Türk dilində izahlı lüğət tərtib olundu.

XV-XVII əsrlərdə Azərbaycan ədəbi dili milli ümumxalq dili əsasında formalaşdı, geniş yayıldı və inkişaf etdi. XIX-XX əsrlərdə isə həmin proses davam etmiş və bu günə qədər gəlib çatmışdı. Azərbaycan milli ədəbi dilinin təşəkkülü mədəniyyətin və bütövlükdə millətin təşəkkülü ilə müşayiət olunur. XX əsrin 30-cu illərindən başlayaraq ədəbi dilin demokratikləşməsi, normativləşməsi canlandı. Azərbaycan ədəbi dilinin inkişafı, onun ictimai-siyasi-ideoloji təsirinin saxlanılmasının sovet dövrü ədəbi dilinin mərhələləri içərisində çox mühüm əhəmiyyət dövrüdü. Bu dövr ərzində zəngin ənənələr qazanmış ədəbi-bədii üslubla yanaşı, ədəbi dilin publisistik, elmi üzlubları cəmiyyətin inkişafı ilə əlaqədar daha da aparıcı mövqeyə çıxmağa başlamışdı. Dilimiz onun qrammatik quruluşu və əsas lüğət fondu müsbət dəyişikliklər ərz edir, daha da təkmilləşir, öz dayaqlarını möhkəmləndirir, zəginləşdirir.

c) İncəsənət və memarlıq

Azərbaycan xalqı ta qədimdən bilavasitə özünəməxsus orjinal milli memarlığı, ümumiyyətlə, incəsənəti ilə ölkədə və onun hüdudlarından kənarda məşhur olmuşdu. Xalqımızın qədim və zəngin mədəni irsinin parlaq nümunələri insanı valehedici zəngin musiqi melodiyalarında, əzəmətli, möhtəşəm

memarlıq abidələrində - minarəli, günbəzli məscidlərində, əsərlərində, dam, ağac, sümük, dəri naxışlarında, məişətdəki müxtəlif bəzək əşyalarında indiyə qədər qalmışdı. Azərbaycan hələ çox qədim zamanlardan özünün əlvan, müxtəlif rəngli, müxtəlif sujetli xalçaları ilə şöhrət qazanmışdı. Azərbaycan musiqi sənəti formasına görə çoxşaxəlidi, heyranedici, melodik nəğmələri, ciddi, ahəngdar rəqsləri vardı. Başda muğam sənəti olmaqla bu musiqi sənəti əsərlərlə büllurlaşmış, mədəniləşmiş, təkamül inkişaf yolu keçmişdi. Hələ IX-XII əsrlərdə saraylarda muğamatlar ifa olunurdu, rəqqaslar gözəl rəqslər ifa edirdilər. Dəbdəbəli saray həyatı istedadlı musiqişünaslar yetişdirmişdi. Hazırda ifa olunan muğamların bir hissəsi hələ XII əsrdə Azərbaycan sənətkarları tərəfindən ifa olunmuşdu. Simli, nəfəsli, zərb musiqi alətlərindən istifadə olunurdu. XIV-XV əsrlərdən Azərbaycanda xalqın arzularını ifadə edən, dövrün mənəviyyat normaları əks olunan çoxsaylı mahnılar yarandı, musiqişünaslar yetişdilər. XV əsrdə Azərbaycanda, Yaxın və Orta Şərq ölkələrində geniş yayılmış muğamları, mahnı və rəqsləri ilə şöhrət qazanmış Əbdülqadir Marağayı kimi sənətkarlar yetişmişdi. Bu dövrün melodiyalarının ən məşhurları irani, təbil, təsnif və segah olmuşdu. Bir sıra qəzəllərə musiqi bəstələnmişdi. Dövrünün ən mahir, məşhur xanəndəsi Hafiz Lələ idi. Təbil, tütək, saz və kamança məşhur musiqi alətləri idi.

Azərbaycanda musiqinin inkişafı əsasən XIX əsrdən başlayır. Həmin dövrdə, xüsusilə aşıq yaradıcılığı xalqın daha böyük rəğbətini qazanır. Azərbaycanın gözəl, dilbər guşəsi, Musiqi Akademiyası hesab olunan Qarabağ xanəndələr məskəninə, məkanına çevrilir. Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdı oğlu, Sadıqcan bu dövrdə xalq tərəfindən sevilən məşhur xanəndələr olmuşlar. XIX əsrdə Aşıq sənəti ilə bağlı musiqili folklor da inkişaf etmiş, teatr sahəsində ilk addımlar atılmışdı.

XX əsrdə Azərbaycanda musiqi sənətinin-mədəniyyətinin misilsiz inkişafı dövrü başlandı. Və o, öz inkişafının yüksək zirvəsinə qalxdı. Azərbaycan xalqı özünün milli musiqi

xüsusiyyətlərini üzə çıxarmaq və inkiaş etdirmək, eyni zamanda, onu peşəkar sənət səviyyəsinə qaldırmaq, opera, balet, simfoniya kimi janrları mənimsəmək imkanı qazandı. Azərbaycan musiqisinin klassik irsə məxsus formaları genişləndirildi, milli musiqi mədəniyyətinin məzmuna görə (lirik, epik, drammatik və s.), ifaçılıq istiqamətinə görə (vokal, instrumental və s.) incəsənətin digər növləri ilə sintez təşkil etdi, klassik irsi təşkil edən çox qiymətli musiqi əsərləri yaradıcılıq ənənəsi kimi sonrakı dövrlərə də yerləşdirildi. Və müasir mövzuların təsiri ilə yeni məna, məzmun və mündərəcə kəsb etdi. Artıq 30-40-cı illərdə Azərbaycan Respublikasında və ondan çox-çox uzaqlarda öz yaradıcılıqları ilə geniş, böyük nüfuz qazanmış bəstəkarlar nəsli yetişdi.

XX əsrin birinci yarısında müstəqil janr kimi səhnə əsərləri təşəkkül tapdı. Musiqili komediya teatrının həqiqi, ilk müəllifi Üzeyir Hacıbəylinin "Ər və arvad", "O olmasın, bu olsun", Soltan Hacıbəylinin "50 yaşında cavan", "Evliykən subay", Səid Rüstəmovun "Beş manatlıq gəlin", "Durna", "Rəisin arvadı", Fikrət Əmirovun "Gözün aydın", Ağası Məşədibəyovun "Toy kimindir", Süleyman Ələsgərovun "Ulduz", Rauf Hacıyevin "Romeo mənim qonşumdur", Zakir Bağırovun "Qaynana" və s. milli komediyaları Azərbaycan musiqi mədəniyyətinin yüksəlişinin mühüm nümunələri oldu.

Azərbaycan milli opera musiqisinin banisi, görkəmli musiqi nəzəriyyəçisi Üzeyir Hacıbəylinin "Koroğlu", Müslüm Maqomayevin "Nərgiz", Fikrət Əmirovun "Yeddi gözəl", Qara Qarayevin "İldırımlı yollarla", Əfrasiyab Bədəlbəylinin "Qız qalası", Soltan Hacıbəylinin "Gülçin" baletləri və başqaları musiqi mədəniyyətimizin inkişafında əvəzsiz yer tutdu.

Azərbaycanda simfonik musiqi sahəsində çox ciddi irəliləyiş, dönüş baş verdi. Azərbaycan bəstəkarlarının ən yaxşı simfonik əsərləri "Rast" (Niyazi Tağızadə), "Leyli Məcnun" (Cövdət Hacıyev), "Kürd ovşarı", "Karvan" (Fikrət Əmirov) və başqaları yarandı. Azərbaycan bəstəkarlarından Səid Rüstə-

mov, Ağabacı Rzayeva, Cahangir Cahangirov, Qəmbər Hüseynli, Tofiq Quliyev və başqalarının geniş yayılmış nəğmələri, suita, vals və digər əsərləri xalqımız tərəfindən və respublikamızın coğrafiyasından, hüdudlarından çox-çox uzaqlarda ən yüksək qiymətə layiq görüldü.

Azərbaycan bəstəkarlarının yüksək ideyası, məzmunlu yaradıcılığı islam-müsəlman Şərqinin – dünyasının, aləminin, habelə dünya coğrafiyasında yaşayan xalqların dərin rəğbətini qazandı. Üzeyir Hacıbəylinin "Arşın mal alan" operası, türk, fars, bolqar, ingilis, fransız, ərəb və s. dillərdə tamaşaya qoyuldu. Dünya şöhrətli Qara Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla", Arif Məlikovun "Sevgi haqqında əfsanə" baleti dünyanın 60-dan çox teatrlarında səhnəyə qoyuldu. Fikrət Əmirovun "Şur" və "Kürd ovşarı" – simfonik muğamları Amerika Birləşmiş Ştatlarının Boston şəhərində simfonik orkestr vasitəsilə ifa edildi.

XX əsr Azərbaycan musiqi mədəniyyətinin inkişafını səciyyələndirən cəhətlər sırasında məşhur ifaçıların (çalan və oxuyanlar) yetişməsi xüsusi qeyd olunmalıdır. Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestri, Radio verilişləri xalq çalğı alətləri orkestri, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs ansamblı, həmçinin xalq artistləri Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Ağa Baba Bünyadzadə, Rəşid Behbudov, Hüseynağa Hacıbəyov, Şövkət Ələkbərova, Rübabə Muradova, Firəngiz Əhmədova, Sara Qədimova, Fidan və Xuraman Qasımova bacıları və başqaları yüksək ifaçılıq qabiliyyətləri ilə musiqi mədəniyyətimizin parlaq ulduzları sırasındadırlar.

Musiqi mədəniyyətinin inkişafına dair mühüm göstəricilərdən biri də onun maddi-texniki və tədris bazasının genişləndirilməsidir. Bakı, Gəncə, Naxçıvan, Şəki, Ağdam, Şuşa, Lənkəran və rezpublikamızın digər rayon və şəhərlərində onlarla musiqi məktəbləri açıldı. Azərbaycanda ilk Musiqili teatr, Dövlət Konservatoriyası fəaliyyət göstərməyə başladı.

Respublikamızda yaradılmış Opera və Balet Teatrı, Xoreoqrafiya məktəbi öz inkişafının məhsuldar dövrünü yaşamaqdadır. Azərbaycan Dövlət Milli Dram Teatrı, Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrlarının inkişafı üçün zəruri olan maddi-texniki baza yaradılmışdır. Bu teatrlar böyük mədəniyyət ocaqlarına çevrilmişdir. Burada xalqımızın fəxri olan yüzlərlə çox istedadlı peşəkar, yüksəkixtisaslı milli mütəxəssis kadrlar yetişmişdir. Onların içərisində Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mirzə Ağa Əliyev, Sidqi Ruhulla, Mərziyə Davudova, Mövsüm Sənani, Lütvəli Abdullayev, Nəsibə Zeynalova və onlarla başqalarının adlarını fəxrlə çəkmək olar.

Azərbaycanda kütləvi incəsənət növü olan kino sənəti də inkişaf etmişdir. "Arşın mal alan", "O olmasın, bu olsun", "Uzaq sahillərdə", "Yeddi oğul istərəm", "Babək", "Nəsimi", "Ad günü", "İstintaq", "Koroğlu" və başqaları kino sənətimizin inkişafı yolunda böyük bir dövr açmışdır.

Azərbaycan mədəniyyətinin mühüm tərkib hissəsi olan teatrın da yüz ildən çox inkişaf tarixi vardır. Hər yerdə olduğu kimi, Azərbaycanda da memarlıq ən qədim dövrlərdən insanın yaşamaq məskəninə təbii məkanlardan – məskənlərdən həyat tərzi üçün istifadə olunması formasında təzahür etmişdi. Sonralar cəmiyyətin inkişafı ilə əlaqədar insanların əmək alətlərinə yiyələnməsi nəticəsində yeni ibtidai məskənlər meydana gəlmişdi. Qədim Azərbaycanda meqolit və siklon tikintiləri geniş yayılmışdı. Manna və Midiya dövlətləri ərazisində müdafiə qurğuları tikilir, şəhərsalma inkişaf edirdi. Qaya məbədlər, atəşgahlar yaradılırdı. Torpaqlardan məlum olmuşdur ki, erkən orta əsrlərdə mütəxəssis memarlar yetişdi. Şimali Azərbaycan ərazisində Torpaqqala (Alazan çayı sahili), Gövürqala (Ağdam rayonu) və Şabranda (Dəvəçi rayonu) erkən orta əsr yaşayış kompleksləri aşkar edilmişdi. Bu dövr məbədləri – Qəbələ, Qax, Qarabağ, Şəki, Zaqatala, Mingəçevir, Ağdam, Kəlbəcər, Laçın, Qubadlı və s. bölgələrdə salınmışdı. Azərbaycanın xalq

içərisindən çıxmış məşhur sənətkar – peşəkar memarların IX – XII əsrlərdə Təbrizdə, Bakıda, Ərdəbildə, Bərdədə, Beylə-qanda, Şamaxıda, Gəncədə, Şuşada və digər şəhərlərdə yaratdıqları abidələr öz gözəlliyi, orijinallığı ilə seçilir və dün-ya memarlarının inkişafında yüksək yer tutur. Azərbaycançılıq memarlıq məktəbinin nümayəndələri Buxara, Herat, Urkən, Məşhəd, İsfahan, Bağdad kimi zəngin və qədim abidələrin tikintisində iştirak etmişlər. XIII əsrdə Azərbaycanın müxtəlif şəhərlərində möhtəşəm memarlıq abidələri yaradıldı. Abşe-ronda Mərdəkan, Ramana, Nardaran, Qoşa Qala, Muğanda Mahmudabad şəhəri, Marağada, Zəngilanda, Naxçıvanın Qara bağlar kəndində görkəmli, möhtəşəm məqbərələr, bir çox əzəmətli məscidlər, mədrəsələr, xanəganlar inşa olundu.

XII-XV əsrlər Azərbaycan memarlığının inkişafının mühüm mərhələləridir. XX əsrdə Bakıda Qız Qalası, Şirvan-şahlar Saray kompleksinin ən gözəl binalarından olan Divan-xana tikildi. Burada əyanlar məclis qururdular, məhkəmə işlə-rinə baxılırdı. Bu dövr Təbrizdə "Nəşt behşiti" adlanan böyük saray kompleksləri, Əlişah Məscidi, Göy Məscid, Naxşıvanda Möminə xatun türbəsi, Marağada olan məbədlər və başqaları yaradıldı. XVI əsrdə Azərbaycanda sosial məqsədlər üçün xeyli bina – karvansaraylar tikildi. Bakının Şərq bazarları, Gəncə şəhərindəki bir çox abidələr, Qubada (Ağbül kəndi), Qusarda (Həcrə kəndi), Samurçayı sahilində Şeyx Cüneyd məqbərələri, Naxçıvanda Əlincə çayı üzərində tikilmiş körpü bu dövrün abidələridir.

Azərbaycanın bütün rayonlarında nəzərə çarpan memar-lıq abidələri vardır. Bu abidələr sırasına qala divarları, qüllələr, təmtəraqlı saraylar, möhtəşəm məqbərələr və s. daxildir. Bunlar Azərbaycanın orta əsrlərdə bütün Şərqdə məşhurlaşmış mahir Əmirəddin, Məsud, Əbu Mənsur ibn Musa, Əzəli Əbu Bəkr oğlu, Cəmaləddin Aşur İbrahim oğlu, Mövsüm, Əhməd Əyyub oğlu, Məhəmməd Əbu Bəkir oğlu Neymətulla və başqaları tərəfindən yaradılmışdır.

XIX əsrdə Azərbaycanda memarlıq sənətində nəzərə çarpan yüksəliş dövrü oldu. Bir sıra nailiyyətlər əldə edildi. Xüsusilə də memarlıq abidələrinin bərpası sahəsində mühüm işlər görüldü. Şəki (Nuxa) Xan sarayı bu dövrdə bərpa olundu. XX əsr Azərbaycan memarlığı tarixində demək olar ki, ən yüksək mərhələ hesab oluna bilər. Bu dövrdə Azərbaycanda çox böyük memarlıq kompleksləri və nadir abidələr yaradıldı. Milli mütərəqqi memarlıq ənənələrindən səmərəli istifadə etməklə Soltan Dadaşov, akademik Mikayıl Hüseynov hələ 1935 – 1939-cu illərdə Azərbaycanda memarlığın milli əlamətlərinin müəyyən edilməsində çox böyük rol oynamış, müstəsna dərəcədə xidmət göstərmişlər. Onların layihələri əsasında Azərbaycan Dövlət Konservatoriyası, Moskvada, respublikamızda və keçmiş Sovet İttifaqına daxil olan ölkələrdə pavilyonlar tikildi.

Sovetlər dönəmində Bakı və rezpublikanın başqa şəhərlərində əhalinin mənzil şəraitini yaxşılaşdırmaq üçün boş sahələrdə binalar ucaldıldı; iripanelli evlərdən ibarət mikrorayonlar salındı. Köhnə şəhərlər yenidən quruldu, milli memarlıq ənənələrinə uyğun binalar tikildi.

Geniş vüsətli tikintilərlə yanaşı, respublikada xeyli miqdarda böyük ictimai binalar, o cümlədən Azərbaycan Dövlət Dram Teatrı, M.F.Axundzadə adına Milli Dövlət Kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyası Kompleksi, Respublika Mədəniyyət Sarayı, muzeylər və başqa mədəni-məişət binaları tikildi, görkəmli ədəbiyyat və incəsənət xadimlərinin xatirə abidələri – Nizami Gəncəvinin, Səməd Vurğunun, Cəfər Cabbarlının, Nəriman Nərimanovun, Hüseyn Cavidin, Nəsiminin, Füzulinin və başqalarının heykəlləri ucaldıldı, Bakı Metropoliteni Azərbaycan memarlığının qiymətli əsərlərindəndir.

Azərbaycan mədəniyyətinin tətbiqi sənət-rəssamlıq, xalçaçılıq, toxuculuq, zərgərlik və bütün başqa sahələrində də köklü, milli-mütərəqqi dəyişikliklər getdi. Respublikada rəssamlıq və qrafikanın inkişafında yaşlı sənətkarlar Əzim Əzim-

zadə, Salam Salamzadə, Şərif Şərifzadə, Qəzənfər Xalıqov, Rüstəm Mustafayev və başqalarının Azərbaycan xalqının tarixi keçmişini, onun nailiyyətlərini əks etdirən fəaliyyətlərinin çox böyük rolu olmuşdur. Azərbaycanın istedadlı xalq rəssamı Mikayıl Abdullayevin janr və sənaye rəsmləri, Səttar Bəhlulzadənin, Elmira Şaxtaxtlının və başqalarının xalqımızın həyat tərzinə, doğma vətənimizin – Azərbaycanın füsunkar təbiətinə həsr etdikləri sənət nümunələri ölkəmizin, xalqımızın zəngin mədəniyyət xəzinəsini daha da zənginləşdirmişdir.

Azərbaycanın tətbiqi sənətinin ən gözəl nümunələri ölkəmizin bir çox yerlərində geniş inkişaf etmiş xalçaçılıqda, tikmələrdə, işləmələrdə və başqa sahələrdə öz əksini tapmışdı. Tətbiqi incəsənət sahəsində rəssam Lətif Kərimov özünün orijinal (naxışlı) və qiymətli xalçalarında, həmçinin başqa əsərlərində qədim və zəngin milli-mütərəqqi adət-ənənələrimizi yenidən canlandırmışdır. Artıq respublikamızda öz orijinal yaradıcılıq məharətləri ilə məşhur olan onlarla gənc istedadlı xalçaçılar nəsli yetişmişdir.

Azərbaycan mədəniyyətinin bugünkü yüksəlişi onun bütün sahələrində ifadə olunur. Xalqımızın milli müstəqilliyinə nail olunduqdan sonrakı dövrdə ölkəmizdə həyata keçirilən makrotipləşmə prosesi bütün başqa sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də yaradıcılıq üçün geniş imkanlar, daha əlverişli şərait yaradılmışdı. Məhz bunun nəticəsidir ki, bu işdə ulu öndər Heydər Əliyevin, onun sözügedən sahədə siyasətini çox böyük uğurla davam etdirən ölkə başçımız İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın çox böyük xidmətləri vardı. Xüsusilə Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü, Butanın təşkilatçılığı ilə həyata keçirilən mədəni-kütləvi tədbirlər ölkəmizdə milli-mütərəqqi və ümumbəşəri səpkili, mahiyyətli, xarakterli mədəniyyətin inkişafına yeni-yeni töhfələr vermişdi. Bəli, bu möhtəşəm, qiymətli töhfələrə aid çoxsaylı misallar gətirmək olar,

onlardan birinə aid nümunə: 2009-cu ildə müstəqil Azərbaycanın paytaxtı Bakı şəhəri, "İslam mədəniyyəti paytaxtı" statusunu almışdı.

Mədəniyyətimizin parlaq gələcəyi

"Mədəniyyət yolunda atılan hər bir addım azadlığa doğru atılan addımdır".

"Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir və onların mədəniyyəti bu yolla inkişaf edir".

"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlətdən ən yüksəyi, ən böyüyü, dəyərlisi mədəniyyətdir".

"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, daim yaşayacaq, həmişə inkişaf edəcək".

Heydər Əliyev

Mədəniyyət sahəsində əsas xüsusiyyətlər

Bunlar əsasən aşağıdakılardan ibarətdir:

1. Humanizm və mərhəmətlilik;
2. Kompromis (qarşılıqlı güzəçt əsasında razılaşmaların əldə edilməsi);
3. Anatəbiəti qiymətləndirmək bacarığı;
4. Bilavasitə özünəməxsus təcavüzkarlığın, nəfsin boğulması;
5. Ümumbəşəri hiss və duyğuların əldə edilməsi;
6. İnsanların bərabər hüquq əsasında yaşamağı öyrənməsi bacarığı;
7. Mənəviyyatımıza yad, mənfi hallara qarşı qətiyyətli mübarizə.

Mənəviyyatımızın gələcəyi mütərəqqi bəşəriyyətin, insaniyyətliliyin, mərhəmətliliyin qorunmasını bacarmaq

sualına necə cavab verə biləcəyindən, xalqımızın öz maddi və mənəvi dəyərlərini mühafizə və inkişaf etdirə bilməsi bacarığından, qabiliyyətindən çox asılı olacaqdır.

Mənəviyyatın müxtəlif sahələrində mədəniyyət

Mənəviyyatda mədəniyyət mərkəzi yer tutur. Həmin mədəniyyətin müxtəlif sahələri aşağıdakılardır:

1. Çox məhsuldar qüvvə olan elm;
2. Ümumxalq, ümumdövlət və mühüm strateji əhəmiyyət daşıyan təhsil;
3. Söz sənəti olan bədii ədəbiyyat;
4. İnsan biliklərini maarifçilik yolu ilə işıqlandıran kütləvi informasiya vasitələri: mətbuat, radio, televiziya və İnternet;
5. İctimai varlığı bədii-estetik obrazları əks etdirən incəsənət;
6. İctimai şüurun bilavasitə özünəmxsus spesifik formalarından olan din, o cümlədən xüsusilə islam dini.

Əlbəttə, siyahını artırmaq da olardı. Mədəniyyətə daxil olan həmin tərkib hissələrindən biri olan, çox məhsuldar qüvvə sayılan elmlə mədəniyyətin qarşılıqlı münasibətləri barədə bir neçə kəlmə qeyd etmək istərdik. Bura aşağıdakıları daxil etmək olar.

- Mədəniyyət cəmiyyətin inkişafını çox mühüm və parlaq göstəricilərdən biri kimi bir neçə elmlər tərəfindən öyrənir. Məsələn, arxeologiya, etnoqrafiya, linqvistika, tarix, sosiologiya, fəlsəfə, psixologiya, incəsənət, estetika, əxlaq və s.
- Əməli-praktiki-təcrübi olaraq bütün ictimai, humanitar və sosial, iqtisadi elmlər mədəniyyətin öyrənilməsinə cəhd edir, səy göstərir. Sadalanan hər bir elm sahəsi sosial, mədəni prosesləri öz aspektində, müstəvisində öyrənir. Mədəniyyətin öyrənilməsində fəlsəfi aspekt daha üstünlük təşkil edir.

NƏTİCƏ

Dərs vəsaitində belə bir çox vacib problemin həll olunması onun elmləşməsinə, zəruri təhsilə, izaha və şərhə cəlb edilməsi müasir dövrün durmadan artan tələblərindən irəli gəlir. Əlbəttə, istər mədəniyyətşünaslıq, dinşünaslıq, islamşünaslıq, multikulturalizm və tolerantlıq, istərsə də dünyəvi problemlərə aid olan məsələləri gənc nəslə elmlik, obyektivlik, məntiqlilik və dünyəvilik mövqeyindən şərh etmək çox vacibdir. Məhz buna görə də sözü gedən sahədə Azərbaycanda, xüsusilə müstəqil ölkəmizdən son zamanlar həyata keçirilən və ənənə şəkli olan kompleks tədbirlər, orada irəli sürülmüş elmi, nəzəri və əməli mahiyyətli mülahizələr tövsiyə xarakterlidir. Dərs vəsaitində məntiqi qənaətə gələn başlıca nəticələrdən biri də bundan ibarətdir ki, "Mədəniyyət cəmiyyətin sivil qaydalarına, normalarla idarə olunmasının başlıca baza prinsiplərinin ən mühümlərindəndir. Müstəqil Azərbaycanda bərqərar olan bütün idarəçilik norma, qayda və prinsipləri, siyasi, fəlsəfi konsepsiyalar mədəniyyətin ölkəmizin konstitusiyasına əsaslanan qanunvericiliyinə uyğun fəaliyyət göstərməlidir. Kitabda qeyd olunduğu kimi, əsas orta əsrlərdə meydana gələn və mütərəqqi bəşəriyyətin inkişafına güclü və önəmli təsir göstərən cərəyanlar və hərəkatlar: intibah, islahat və maarifçilik bəşər mədəniyyətini, daha da inkişaf etdirilməsinə, mahiyyətcə yeni məna, məzmun və mündərəc kəsb etməsinə çox tövhələr vermiş və verməkdədir. Müasir dünyada, xüsusilə hazırkı qloballaşma şəraitində siyasi və humanitar katakalizmlərin tüğyan etdiyi, geniş vüsət aldığı dövrlərdə multikulturalizm və çoxmədəniyyətlilik, dözümlü ideyaların geniş əhali kütləsi, o cümlədən xüsusilə tələbə-gənclər arasında tədris və təblığinə çox böyük ehtiyac vardır. Məhz buna görə də heç də təsadüfi deyildir ki, ideyaların geniş vüsət almasına təkan verən, cəhd göstərən, bu önəmli ideyaların elmi-nəzəri, siyasi, ideoloji və əməli əsaslarının toplanmasına çox dəyərli töhfələr verən, dünya mədə-

niyyətinin mühüm tərkib hissələrindən olan multikulturalizm, tolerantlıq, dinşünaslıq və islamşünaslıq haqqında gənc nəslə elmi biliklər aşılanır. Məlum olduğu kimi yuxarıda qeyd edilənlərdən dünyəvi-elmi ölkələrin bu sahəsi də gənclərə çatdırılmalı, onların həmin sahələrdə yüksəkixtisaslı milli mütəxəssiz kadrlar kimi yetişməsində mühüm rol oynamalıdır. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, sözügedən sahə respublikamızda ilk təşəbbüs və təcrübədir.

Kitabda konkret mövzular üzrə elmi-nəzəri cəhətdən şərh olunan, sözügedən sahə müstəqil Azərbaycanın həyatından götürülmüş inandırıcı faktlara əsaslandırılmışdır. Kitab sözügedən sahədə müvafiq elmi məktəblərdə dərs deyən müəllimlər və həmin sferada təhsil alan tələbələr, o cümlədən təhsilin bakalavr, magistratura və doktorantura mərhələsində dünyəvi bilikləri olanlar üçün nəzərdə tutulmuşdur. Mədəniyyət insanların mənalı həyatı və onların yaradıcı fəaliyyətinə sıx bağlı olan dialektik vəhdət təşkil etmiş, yer üzünün əşrəfi, ən qiymətli ictimai münasibətlərin məzmunu və toplusu olan İNSANIN düşünən beyni və onun yaradan əllərinin nailliyyətləridir.

Əlbəttə, dərslikdə bu qəbildən olan elmi mülahizələr geniş yer tutur. Həmin mülahizələrin sayını artırmaq da olar. Nəhayət, yekun olaraq nəticəni belə bir sonluqla yekunlaşdırmaq istərdim. Beləliklə, mədəniyyət mütərəqqi bəşəriyyətin ictimai, tarixi inkişaf prosesində yaranmış sərvətlərin toplusudur. Elmi baxımdan heç bir səhvə yol verməyən mədəniyyət bu gün bizə həmişəkindən daha çox lazımdır. Dərs vəsaitində əldə olunmuş elmi-nəzəri və əməli cəhətdən vacib nəticələrdən biri də bundan ibarətdir ki, təbliğ edilən problemlərdə, irəli sürülən tövsiyələrdə məhz müstəqil Azərbaycanın bu gün təhsil sahəsində apardığı düzgün siyasətin həyata keçirilməsinə xidmət göstərir.

ƏDƏBİYYAT

1. K.Marks və F.Engels. Seçilmiş əsərləri, c.1. M; 1957.
2. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1999.
3. Heydər Əliyev. Dinimiz milli-mənəvi sərvətimizdir.
4. Heydər Əliyev. Allahın yolunda hamımız bir olaq. Bakı, 1993.
5. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996.
6. Məmmədov Fuad. Kulturologiya. Bakı, 2002.
7. Qəniyev Məmməd, Məmmədov Elman. Mədəniyyət-şünaslıq (dərs vəsaiti). Bakı, 2003
8. Mədəniyyətşünaslıq (ali məktəblər üçün dərs vəsaiti). Bakı, 2010.
9. Qloballaşan dünyada İslam. Bakı, 2005.
10. Qurbanov Babək, Üzeyr Hacıbəyli sənətinin aktual nəzəri-estetik məsələləri. Bakı, 2012.
11. Pedaqoji universitet və institutlarda bakalavr hazırlığı üçün proqram. Mədəniyyətşünaslıq. Bakı, 1998.
12. Hacıyev Zeynəddin. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, 2012.
13 Şükürov Ağayar. Qloballaşan cəmiyyətlər dünən, bu gün və sabah. Bakı, 2006.
14. Mürsəlov Ramiz. İslam və müasir dövrün qlobal hadisələri. Bakı, 2008.
15. Rüstəmov Yusif. Sivilizasiyaların qarşılıqlı münasibəti. Bakı, 2007.
16. Cəfərov Nizami. Azərbaycan mədəniyyəti məsələləri. Bakı, 2000.
17. Mədəniyyətlər dialoqu. Bakı, 2011.
18. Azərbaycan tarixi. C. 1. Bakı, 1961
19. Əfəndiyev Oktay. XVI əsrdə Azərbaycan Səfəvilər dövləti. Bakı, 1981
20. Kərimov K., Sadiq bəy Əfşar. Bakı, 1987
21. Рахманин А.А. Азербайджан в конце в XVI и в XVII веке. Баку, 1981

22. Salamzadə Ə.B. Azərbaycan memarlıq abidələri. Bakı, 1958
23. Qurbanov Ə.C. Beynəlxalq münasibətlərdə din – İslam amili. Bakı, 2000
24. Zeynalov Fərhad. Qədim türk yazılı abidələri. Bakı, 2011
25. Əkbərov Nazim, Bayırlı Adil, Qubalı Ehsan. Mənəviyyat. Bakı, 2004
26. İmran Rafiq. Muğam fəlsəfəsi. Bakı, 1912
27. Şükürov A.M. Fəlsəfə. Bakı, 1997
28. Həkimov M. Aşıq sənətinin poetikası. Bakı, 2004
29. Hacıbəyli Üzeyir. Əsərləri, 2- ci cild. Bakı, 1965
30. Həbiboğlu Vəli. Qədim türklərin dünyagörüşü. Bakı, 1996
31. Fəxrəddin Yadigar. Fonetika və filologiya məsələləri. Bakı, 1993
32. Axundov A. Azərbaycan dilinin fenomenlər sistemi. Bakı, 1973
33. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1968
34. Fərzəli Əjdər. Dədə Qorqud yurdu. Bakı, 1989
35. Mazel L.A. Musiqi əsərlərinin quruluşu. Bakı, 1988
36. Bakıxanov Ə. Ömrün sarı simi. Bakı, 1995
37. Bülbül. Seçilmiş məaqlə və məruzələri. Bakı, 1968
38. Şərifzadə V., Zərdüşt. Avesta. Azərbaycan. Bakı, 1996
39. Əlibəyzadə E. Avestanın mənəvi dünyası. Bakı, 1991
40. Абдуллаева Г. Философская сущность музеев искусства. Баку, 1989
41. Грубер Р. История музыкальной культуры. Том, 1. М,Л, 1941
42. Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi. Bakı, 1978
43. Məmmədov Ə. Bülbül. Bakı, 1964
44. İmrani R.N. Muğam janrının yaranması və inkişaf tarixi. Bakı, 1994
45. İmrani R.N. Muğam Şumer dövründən başlayır. Bakı, 1999
46. İmrani R.N. Azərbaycan musiqi tarixi. Bakı, 1999

47. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı, 2007
48. Əfəndiyev A. Müdriklik səlahiyyəti. Bakı, 2007
49. Vahabzadə B. Açıq söhbət. Bakı, 1977
50. Azərbaycan tarixi. Üçcildlik. Bakı, 1961 – 1964, 1974
51. Azərbaycanın maddi mədəniyyəti. Bakı, I – X, Bakı, 1947 – 1987
52. Azərbaycan tarixi (Z.Bünyadov və Y.Yusifzadənin red. ilə) Bakı, 1995.
53. Azərbaycan tarixi (İ.Əliyev red. ilə). Bakı, 1993
54. Гуревич А.С. Культурология. Москва, 1996
55. Древний Восток и мировая культура. Москва, 1981
56. Əhmədov Q.M. Bu günə necə gəlib çıxmışıq. Bakı, 1989
57. Yusifzadə Q. Marksizmədək fəlsəfənin əsas inkişaf mərhələləri. Bakı, 1962
58. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, 1993
59. Yusifov X. Şərqdə intibah və Nizami Gəncəvi. Bakı, 1982
60. İsmayılov Mahmud. Культура и история. Баку, 1992
61. Межуев В.М. Культура и история. Москва, 1977
62. Меди Адам. Мусульманский ренессанс. Москва, 1973
63. Соколов Э.В. Понятие и сущность и основные функции культуры. Л. 1984
64. Тейлор Э. Первобытная культура. Москва, 1989
65. Tağıyev Ə. Əliyev Q. Kulturologiya. Bakı, 1997
66. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı, 1994
67. Həsənov U. Qədim Roma tarixi. Bakı, 1975
68. Həsənov Y. İbtidai icma tarixi. Bakı, 1963
69. Hüseynov M.M. Azərbaycan arxeologiyası (daş dövrü). Bakı, 1975
70. Şükürov A.M. Kulturologiya. Bakı, 1998.

MÜNDƏRİCAT

Ön söz..... 3

Giriş..... 5

I BÖLMƏ. MƏDƏNİYYƏTŞÜNASLIQ, MULTİ-KULTURALİZM, İSLAMŞÜNASLIQ, DİNŞÜ-NASLIQ, TOLERANTLIQ, ONLARIN PRED-METİ, VƏZİFƏLƏRI VƏ ƏHƏMİYYƏTİ..... 8

Mədəniyyət anlayışı..... **8**

Mədəniyyətşünaslığın predmeti..... **9**

Mədəniyyət, sivilizasiyalar və multikulturalizm..... **9**

Mədəniyyət, sivilizasiya, dinşünaslıq, islamşünas-lıq, multikulturalizm anlayışlarının qarşılıqlı əlaqəsi..... **9**

Mədəniyyətşünaslıq elminin təkamülü..... **10**

Mədəniyyətşünaslığın tarixi inkişaf mərhələləri..... **10**

Mədəniyyətşünaslığın öyrənilməsinin başlıca və köklü vəzifələri..... **11**

Mədəniyyət varlıq sistemində..... **13**

Mədəniyyətin struktur ünsürləri..... **13**

Mədəniyyətin başlıca funksiyaları..... **15**

Mədəniyyətin formaları, normaları və tipləri..... **16**

Fəlsəfə, mədəniyyət və tolerantlıq..... **17**

Sosial mədəni təhlilin funksiyaları..... **19**

İqtisadi mədəniyyətin strukturunun əsas əlamətləri və təzahürləri..... **21**

İqtisadi mədəniyyətin aparıcı istiqamətləri..... **21**

Cəmiyyətin hüquqi mədəniyyəti..... **23**

Siyasi mədəniyyət və onun ünsürləri..... **25**

Siyasi mədəniyyətin funksiyaları..... **25**
Din, islam və mədəniyyət..... **28**
Dini şüurun strukturu..... **29**
Ekoloji mədəniyyət və mədəniyyətin ekologiyası... **30**
Mədəniyyətin inkişafının əsas qanunauyğunluq-
ları..... **31**
Multikullturalizm və dini müxtəliflik..... **32**

II BÖLMƏ. MULTİKULTURALİZM İNCƏSƏNƏT VƏ MƏDƏNİYYƏT SİSTEMİNDƏ..... 35
Şəxsiyyət mədəniyyətin mühüm göstəricisidir..... **35**
Fiziki mədəniyyət..... **36**
Danışıq-nitq mədəniyyəti..... **37**

III BÖLMƏ. DÜNYA MƏDƏNİYYƏTİNİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ..... 38
Mədəniyyətin genezisi, mənşəyi və mahiyyəti..... **38**
İbtidai dövrlərin mədəniyyəti..... **39**
İlk dini təsəvvürlər..... **39**
İbtidai incəsənət..... **40**
Babil mədəniyyəti..... **40**
2 çayarası ərazidə elm..... **41**
Texniki biliklərdə də mədəniyyət..... **42**
İncəsənət və yazılı mədəniyyət..... **42**
Mifologiya və ədəbiyyat..... **43**
Qədim Misir mədəniyyəti..... **44**
İncəsənət və məişət..... **45**
Qədim Misir mədəniyyətinin bədii əsasları..... **46**
Antik Yunan mədəniyyəti..... **46**
Homer dövrü mədəniyyəti..... **47**

Qədim Roma mədəniyyəti..... **48**
Respublika dövrü mədəniyyəti..... **50**
İmperiya dövrü mədəniyyəti..... **51**
Qədim Çin mədəniyyəti..... **54**
Qədim Hind mədəniyyəti..... **59**
Ərəb mədəniyyəti..... **71**
İslam mədəniyyətində əxlaqi məziyyətlər..... **72**
Maarifçilik mədəniyyəti..... **81**

IV BÖLMƏ. AZƏRBAYCAN MƏDƏNİYYƏTİ. 89
Azərbaycan mədəniyyətinin inkişafında başlıca istiqamətlər..... **89**
İncəsənət və memarlıq..... **102**
Mənəviyyatın müxtəlif sahələrində mədəniyyət..... **111**

Ədəbiyyat..... 114

Nəşriyyatın müdiri *Kamil Hüseynov*

Baş redaktor *İsmət Səfərov*

Redaktor *İsabə Hüseynova*

Baş korrektor *Rahilə Cəbrayılova*

Kompyuter operatoru *Təranə Baxşəliyeva*

f.f.d. Əliyeva Gülbahar Rəhmanqızı

Dünya xalqları və çoxmədəniyyətlilik

Dərs vəsaiti

Çapa imzalanıb 07. 06. 2018. Kağız formatı 60x84 1/16.
Həcmi 7,5 ç.v. Sifariş 131 . Sayı 50.

" İqtisad Universiteti " Nəşriyyatı
AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6